www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 1 sentyabr 2014-cü il Bazar ertəsi № 218 (5927) Qiyməti 40

**Xəbər**

## Azərbaycanlı qız təyyarədə rusları vahiməyə saldı

yazısı səh.14-də

**Gündəm**

### Bakı ABŞ və Rusiyanın çarpaz təhdidi altında




Azərbaycan müharibəyə başlayacağı təqdirdə Dağlıq Qarabağın tanınacağı ilə bağlı iddialar ölkəmizə qarşı psixoloji təzyiqdir, yoxsa yeni erməni möhtəkirliyi?..

yazısı səh.11-də

### Hacı Qalibə və bələdiyyə sədrinə şok ittihamlar

yazısı səh.13-də

### İsa Qəmbərə başqanlıqdan üstün status vermək təklifi partiyada narazılıq yaratdı

yazısı səh.6-da

*Ekspert Türkiyənin yeni XİN başçısı haqda:*

### "Mövlud Çavuşoğlu Azərbaycana yaxın adamdır..."

yazısı səh.12-də

### Prezidentlərin növbəti görüşü bu həftə reallaşa bilər

yazısı səh.5-də

### Ölkə başçısının əsgərləri yemək bişirməkdən azad etmək tapşırığı müsbət qarşılandı

yazısı səh.6-da

### Təbrizdə Qarabağ müzakirələri

yazısı səh.12-də

### Alman telekanalının İŞİD düşərgəsindən reportajı

Terrorçu təşkilatın əsas maliyyə mənbəyi Səddam Hüseynin qızı imiş...

yazısı səh.15-də

### Ərdoğanın Ermənistanla bağlı yeni strategiyası var

yazısı səh.12-də

### İraq türkmənləri öz qəbirlərini qazmağa başladılar

yazısı səh.3-də

### Evi yanan ailə küçələrdə qalıb

yazısı səh.14-də

## Bakı üçün kritik seçim zamanı sürətlə daralır

# "BÖYÜK MÜHARİBƏNİN ASTANASINDAYIQ..." - şərh

Ukrayna prezidenti qorxunc savaş anonsu verdi; Azərbaycanın da yerləşdiyi region fəlakətə sürüklənir; Qərb Rusiyaya bir həftə vaxt ayırıb; Poroşenko təcili Ağ Evə çağırılıb; NATO da hərəkətə keçib; Donbasdakı dağıdıcı separatçılıq ən əvvəl Qarabağda əks-səda verə bilər, çünki...

yazısı səh.5-də



# İlham Əliyevdən ilginc açıqlama və ittihamlar

Prezident müxalifətə xaricdən yardım adı altında milyonlarla vəsaitin ötürüldüyünü bəyan etdi; ölkə başçısının dediklərinə Müsavatdan cavab gəldi...

yazısı səh.4-də



### Qubad İbadoğlu böyük sirlərin anonsunu verdi

yazısı səh. 8 və 9-da



*Kamil Vəli Nərimanoğlu:*

### "Hakimiyyət qeyri-müəyyən vəziyyətdən çəkinir"

yazısı səh.7-də



### Siyavuş Novruzov Müsavatdan rəsmi dəvət gözləyir

yazısı səh.10-da



# Putindən Qazaxıstanla bağlı sensasion açıqlama

## "Qazaxıstan heç vaxt dövlət olmayıb"

**Rusiyanın Tver vilayətində təşkil edilmiş "Seliger-2014" gənclik forumunda çıxış edən Rusiya prezidenti Vladimir Putin dünən sensasion fikirlər səsləndirib. O, Qazaxıstanın heç vaxt dövlət olmadığını bəyan edib.**

Virtualaz.org saytının "TSN" nəşrinə istinadən verdiyi xəbərə görə, bununla belə V.Putin qazax həmkarı Nursultan Nazarbayevin xidmətləri barədə danışıb. Rusiya lideri deyib ki, N.Nazarbayev çox unikal bir iş görüb.

"Nazarbayev qeyri-adi iş gördü. O, dövlət quruluşunun heç vaxt olmadığı ərazilərdə dövlət yaratdı. Nazarbayev bu mənada bütün postsovet məkanındakı dövlətçilik üçün unikal insandır" - deyə V.Putin bildirib. Rusiya prezidentinin sözlərinə görə, N.Nazarbayev çox müdrik və təcrübəli rəhbərdir: "Nazarbayev daim yalnız öz ölkəsinin gələcəyi barədə düşünür. O, heç vaxt öz ölkəsinin, öz xalqının iradəsinə qarşı çıxmaz. Nazarbayev xalqın ondan nə istədiyini, nə gözlədiyini çox dəqiq bilir".

Yada salaq ki, son günlər Rusiya ilə Qazaxıstan arasında açıq gərginlik var. İki ölkənin münasibətləri kəskin pisləşib. Rusiya prezidentinin dünənki bəyanatı da təsadüfi deyil. Belə ki, V.Putinin bu bəyanatı N.Nazarbayevin Ukraynanın Avropa İttifaqı ilə saziş imzalamasını dəstəkləməsi fonunda səslənir. N.Nazarbayev avqustun 26-da Minskdə Ukrayna prezidenti Pyotr Poroşenko ilə görüşündə bildirmişdi ki, rəsmi Kiyevin Avropa İttifaqı ilə bu sazişinin Rusiyanın Gömrük İttifaqı üzrə tərəfdaşı olan Qazaxıstana heç bir ziyanı yoxdur. Qazaxıstan prezidenti həmin görüşdə Ukrayna ilə sıx əməkdaşlıq etməyə də vəd vermişdi.

Bunun ardınca isə Kremlin birbaşa nəzarəti altında olan rusiyalı siyasətçi Vladimir Jirinovski bəyan etmişdi ki, Rusiya tezliklə Qazaxıstana qarşı ərazi iddiası irəli sürəcək. V.Jirinovski onu da bildirmişdi ki, "Qazaxıstanda antirus əhval-ruhiyyəsini gücləndirənlər var, bu ölkədəki dərsliklərdə ruslara nifrət hissi aşılanır".

Dünən isə N.Nazarbayev Rusiyadan gələn bu tip fikirlərə kəskin cavab verib. Qazaxıstanın dövlət başçısı yerli "Xabar" telekanalına müsahibəsində açıq mətnlə deyib ki, "Qazaxıstanın maraqlarına toxunulacağı təqdirdə rəsmi Astana Avrasiya İqtisadi İttifaqından imtina etmək hüququnu özündə saxlayacaq".

N.Nazarbayevin sözlərinə görə, əgər müqavilədə göstərilən qayda və şərtlərə əməl olunmasa, onun ölkəsinin Rusiyanın patronajlığı altında yaradılan Avrasiya İttifaqından çıxmaq hüququ heç bir halda mübahisə və müzakirə predmetinə çevrilə bilməz: "Qazaxıstanın belə bir addım atmaq, birliyi tərk etmək hüququ var. Mən bunu əvvəl də demişəm, bu gün də bir daha bəyan edirəm".

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz,
biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

«QAYA MƏTBUAT YAYIMI» MMC!
İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə catdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

Ən başlıcası gündəlik
«Yeni Musavat » qəzetinə–0,40 man
və bundan əlavə 2000 adda yerli
və xarici nəşrlər.
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45 598-35-22
Respublikanın digər büyük şəhərlərinə də abunə qəbul olunur:
mobil: (050)-235-23-41

# ABŞ və İngiltərə də Türkiyəni dinləyib



**Almaniyanın nüfuzlu "Der Spigel" jurnalı ABŞ və İngiltərənin Türkiyəni dinlədiyi iddiası ilə çıxış edib. Axar.az xəbər verir ki, dərgi dinlənilən qurumlar arasında Türkiyənin Vaşinqtonda yerləşən səfirliyinin də olduğunu bildirib.**

ABŞ-ın Mərkəzi Kəşfiyyat İdarəsinin (MKİ) Türkiyə haqqında məxfi məlumatları topladığını deyən jurnal bu məlumatların Edvard Snouden tərəfindən ifşa olunduğunu qeyd edib. Jurnal ABŞ-dan başqa İngiltərənin də Türkiyəni dinlədiyini, ölkədə enerji potensialına dair məlumatların qeyri-qanuni yolla əldə etdiyini ortaya çıxarıb.

Bundan başqa dərgi Türkiyənin ABŞ-la bu sahədə iş birliyini reallaşdırdığını da bildirib. Belə ki, amerikalılar Türkiyəyə PKK ilə bağlı məlumatları ötürürmüş. Türkiyə də öz növbəsində Rusiya və Ukrayna ilə bağlı gizli məlumatları ABŞ-a verib.



## İngiltərə cihadçıları ölkəyə geri buraxmayacaq

**İngiltərə hökuməti İraq və Suriyada döyüşən cihadçı Britaniya vətəndaşlarının ölkəyə qayıdışına qadağa qoyacaq. Musavat.com-un BBC-yə istinadən verdiyi məlumata görə, bu zaman terror fəaliyyətində iştirakda şübhəli bilinənlər vətəndaşlıqdan məhrum edilməyəcəklər.**

Bundan əlavə, Sərhəd Xidməti əməkdaşlarına İraq və Suriyadakı ekstremist qruplaşmalara qoşulmaq üçün getmək istəyənlərin pasportlarını almaqdan ötrü xüsusi səlahiyyətlər veriləcək.

Bu günlərdə İngiltərədə terror təhlükəsi cihadçıların İraqda və Suriyada fəallaşması ilə əlaqədar ciddi səviyyəyə qalxıb.

❑ Musavat.com

## ABŞ Rusiya əleyhinə yeni sanksiyaları dəstəklədi

**ABŞ Avropa Birliyinin Rusiya əleyhinə yeni sanksiyalar hazırlamaq qərarını bəyənir. Bu barədə ABŞ Milli Təhlükəsizlik Şurasının mətbuat katibi Keytlin Heydenin Ağ Evin saytında nəşr edilmiş bəyanatında bildirilir.**

Axar.az xəbər verir ki, mətbuat katibi AB-nin qərarını Ukraynanın suverenliyi və ərazi bütövlüyünə möhkəm dəstək kimi qiymətləndirib: "Biz Rusiyanı Ukraynaya qarşı qanunsuz fəaliyyətinə görə məsuliyyətə cəlb etmək üçün AB və digər tərəfdaşlarımızla sıx əməkdaşlıq şəraitində işləyirik".

Xatırladaq ki, dünən AB-nin lideri Herman Van Rompey bildirib ki, AB həftə ərzində Rusiya əleyhinə yeni sanksiyalar hazırlayacaq və Ukraynada vəziyyət stabilləşməsə onları tətbiq edəcək.

## Parisdə partlayış: dördmərtəbəli bina çökdü



**Fransanın paytaxtı Parisdə güclü partlayış nəticəsində 4 mərtəbəli yaşayış evi yerlə yeksan olub. Partlayışa binada qaz sızmasının səbəb olduğu ehtimal edilir. Paris yanğınsöndürən xidmətinin məlumatına görə, partlayış və uçqun nəticəsində 1 azyaşlı uşaq ölüb, 11 nəfər yaralanıb.**

Dağıntılar altında 5-i uşaq olmaqla, daha 10 nəfərin də qaldığı ehtimal edilir və onların axtarışı aparılır. Hadisə yerinə xeyli sayda yanğınsöndürən və təcili tibbi yardım briqadası cəlb edilib. Ölənlərin sayının artacağı istisna edilmir.

## İŞİD öz komandirini edam etdi



**İŞİD terror təşkilatının yüksək vəzifəli komandirlərindən biri olan Fars əsilli Hollandiya vətəndaşı Abu Ubaida Almaghribini İngilis kəşfiyyatı "M İ6"ya işlədiyi üçün edam etdiyi iddia edilib.**

Axar.az xəbər verir ki, Fars xəbər agentliyi "Alyoum 24" mövzu ilə əlaqədar bu sözləri deyib: "Keçmişdə Suriyanın Hələb şəhərində İŞİD-in kəşfiyyat şefi kimi işləyən Abu Ubaida Almaghribi İŞİD-in planları, fəaliyyətləri və hərəkətləri barədə İngiltərəyə məlumat sızdırdığı üçün başı kəsilərək edam edilib".

İngilis "Deili Meil" qəzetinin xəbərinə görə, ABŞ-lı jurnalist Ceyms Foleyin İŞİD tərəfindən Raqqa şəhərində edam edilməsindən bir gün sonra öldürüldüyü bildirilən Almaghribinin keçmişdə Foley və digər qərbli girovların saxlanıldığı bir həbsxananın təhlükəsizlik şefliyini etdiyi də iddia olunub.

İngiltərə Xarici İşlər Nazirliyi fars və İordaniya mediasında geniş şəkildə dərc edilən iddialarla əlaqədar açıqlama verməyib. Təhlükəsizlik xidmətlərindən "Deili Meil"ə açıqlamada isə belə deyilib: "Terror təşkilatları öz aralarından kimisə götürmək istəyəndə hansısa xarici agentliyə işləyir iddialarından tez-tez istifadə edirlər".

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05



## Qaxda sərnişin avtobusu minik maşını ilə toqquşdu

**Qaxda sərnişin avtobusu ilə minik maşını toqquşub, 5 nəfər xəsarət alıb. APA-nın Şəki-Zaqatala bürosunun məlumatına görə, hadisə Qax rayonu Turaclı kəndi ərazisində baş verib.**

Nəticədə 1949-cu il təvəllüdlü, Şəki rayonu Baş Göynük kənd sakini Məmməd Kərim oğlu Əmrahovun idarə etdiyi "LAZ" markalı 02 BC 942 dövlət nömrə nişanlı sərnişin avtobusu ilə Qax rayonu Turaclı kəndi istiqamətində hərəkətdə olarkən qarşıdan gələn avtomobilin yoluna çıxması səbəbindən qarşıdan gələn 1979-cu il təvəllüdlü, Mingəçevir şəhər sakini Zaur Firuz oğlu Məmmədovun idarə etdiyi "VAZ 21015" markalı 46 BG 615 dövlət nömrə nişanlı minik maşını ilə toqquşub.

Toqquşmadan sonra sərnişin avtobusu aşıb, minik maşını isə deformasiyaya uğrayıb. Baş vermiş qəza nəticəsində "VAZ-21015" markalı maşının sürücüsü Zaur Məmmədov, onun sərnişinləri, 1982-ci il təvəllüdlü Mingəçevir şəhər sakini Elnar Şeyx oğlu Rəcəbov və 1977-ci il təvəllüdlü, Qax rayonu Zəyəm kəndində anadan olan və hazırda Mingəçevir şəhərində yaşayan Fərqan Aydın oğlu Əmranov və sərnişin avtobusunda olan sərnişinlərdən, 1950-ci il təvəllüdlü, Şəki rayonu Baş Göynük kənd sakini Ceyran Süleyman qızı Ağasıyeva və 1959-cu il təvəllüdlü Şəki rayonu Baş Göynük kənd sakini Sevda Cəfər qızı Əmrahova aldıqları müxtəlif dərəcəli bədən xəsarətləri ilə Qax Rayon Mərkəzi Xəstəxanasına (RMX) aparılıblar.

Qax RMX-dan APA-ya verilən məlumata görə, qəza nəticəsində xəstəxanaya daxil olan yaralılardan Fərqan Əmranov, Zaur Məmmədov və Elnar Rəcəbov xəstəxananın cərrahiyə şöbəsinə yerləşdiriliblər. Hazırda onların vəziyyəti orta-ağır hesab olunur. Ceyran Ağasıyeva və Sevda Əmrahovanın xəsarəti yüngül olduğundan onlara ilkin tibbi yardım göstərildikdən sonra ambulator müalicə almaq şərti ilə evə buraxılıblar. Faktla bağlı Qax rayon polis Şöbəsində cinayət işi başlayıb, araşdırma aparılır.

Qəza törədən sərnişin avtobusunda 15 nəfərə yaxın sərnişin olub, onlar Şəkinin Baş Göynük kəndindən Qax rayonunun Turaclı kəndinə hüzür mərasiminə gedirdilər.

Yeni Müsavat
N 218 (5927) 1 sentyabr 2014

# Günün içindən



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Başqanlığa hələlik rəsmən bir iddiaçı var

**Məlum olduğu kimi, Müsavat Partiyası sentyabrın 27-də VIII qurultayını keçirməklə bağlı qərar qəbul edib. Partiya BŞİH tərəfindən yer ayrılmaması səbəbindən indiyədək Ali orqana seçkilərini təxirə salmaq məcburiyyətində qalmışdı. Lakin bu dəfə qərargahda olsa belə, Müsavat ali tədbiri keçirməkdə israrlıdır.**

## Gülağa Aslanlı: "Qeydə alınma Qurultaya Hazırlıq üzrə Təşkilat Komitəsinin qaydalarına uyğun aparılır"

Artıq avqustun 28-dən etibarən seçkili orqanlara namizədliyini irəli sürən şəxslərin qeydə alınması prosesinə başlanılıb. Sentyabrın 27-də qurultay nümayəndələri tərəfindən partiyanın başqanı, Məclis üzvləri və MNTK-sı seçiləcək. Keçən 3 gün ərzində bu seçkili orqanlara namizədliklərini irəli sürən şəxslər kifayət qədərdir.

Müsavat başqanının müavini Gülağa Aslanlı həftənin bazar günü istisna olmaqla, bütün günləri namizədlərin qeydiyyat prosesinin aparıldığını bildirdi: "Qeydə alınma Qurultaya Hazırlıq üzrə Təşkilat Komitəsinin qəbul elədiyi qaydalara uyğun aparılır. Ərizəçilər Müsavat Partiyasının qərargahına üz tuturlar. Qeydə almanı iki nəfər həyata keçirir. Hər gün səhər saat 10:00-dan axşam 18:00-a qədər sənədlər qəbul edilir. Ərizəçi xüsusi sənəddə namizədliyini verdiyi barədə imza atır. İmza atdığı andan artıq onun namizədliyi qeydə alınmış hesab olunur. İndiyə qədər bir nəfər başqanlığa (Tural Abbaslı), 6 nəfər MNTK-ya, 25 nəfər isə Məclis üzvlüyünə namizədliyini irəli sürüb".



Başqan müavini qurultaya yer ayrılması ilə bağlı BŞİH-yə hələ ki, müraciət edilmədiyini söylədi: "Yerlə bağlı müraciət hazırlanır. Yəqin ki, sentyabrın 1-də keçiriləcək Qurultaya Hazırlıq üzrə Təşkilat Komitəsinin iclasında müzakirə olunandan sonra müraciət ünvanlacaq".

Gülağa Aslanlı hazırkı başqan İsa Qəmbərin indiyədək qurultaya bağlı heç bir seçkili orqana namizədliyini vermədiyini də bildirdi.

❑ **Gülağa ASLANLI**

# "Leyla və Arif Yunuslar mübariz əhvaldadır"

## Lakin vəkili onların səhhəti ilə bağlı narahatdır; İntiqam Əliyev və Rəsul Cəfərovun durumu isə normaldır...

**Həbsdə olan hüquq müdafiəçilərindən xəbər var. Avqustun əvvəllərində saxlanılan Sülh və Demokratiya İnstitutunun rəhbəri Leyla Yunus, həyat yoldaşı Arif Yunus, hüquq müdafiəçisi İntiqam Əliyev və İnsan Haqları Klubunun sədri Rəsul Cəfərovun hazırkı durumunu öyrənmək üçün onların vəkilləri ilə əlaqə saxladıq.**









Hüquq müdafiəçisi Xalid Bağırov Leyla və Arif Yunusların saxlanma şəraitinin normal olmadığını və səhhətləri ilə bağlı narahatlığını bildirdi: "Həm Leyla xanım, həm də Arif bəy mübariz əhval-ruhiyyədədirlər. Saxlanma şəraitləri normal deyil, BMT standartlarına uyğun gəlmir. Kameralar çox istidir, şəraitsizdir, balaca kameralarda çox sayda insan saxlanır. Onların səhhəti ilə bağlı narahatıq. Onlar azadlıqda olarkən sağlamlıqlarında problem var idi. İndi həbsxana şəraitində daha da pisləşə bilər. Ötən həftədən başlayaraq artıq onların yanına yemək, sovqat buraxılır. Dərmanları göndərilir".

X.Bağırov onu da qeyd etdi ki, həbs qəti imkan tədbirinin seçilməsi ilə Avropa Məhkəməsinə müraciət olunub.

Hüquq müdafiəçisi İntiqam Əliyevin vəkili Anar Qasımlı isə müvəkkilinin vəziyyətinin normal olduğunu və hər hansı problem yaşamadığını bildirdi: "İntiqam müəllimlə dünən görüşdüm, işin gedişatı ilə bağlı bəzi məsələləri müzakirə etdik, qərara aldıq ki, bu həftə ev dustaqlığı ilə bağlı vəsatət verək. İntiqam müəllim dedi ki, vəsatət verilsin, ancaq özü iştirak etməyəcək. Sadəcə Avropa Məhkəməsinin perspektivi baxımından biz bu şikayətləri veririk, ancaq özü iştirak etmir, vəkilləri iştirak edəcək. Səhhəti də normaldır, hər hansı problem yoxdur".

İnsan Haqları Klubunun sədri Rəsul Cəfərovun vəkili Fariz Namazlı onunla bağlı hər hansı problemin olmadığını, ailəsi ilə görüş üçün razılıq alındığını qeyd etdi: "Durumu yaxşıdır, sağlamlığı və saxlanma şəraiti bağlı hər hansı problem yoxdur, hər hansı istintaq hərəkəti aparılmır. Anası və qardaşı ilə görüş üçün müraciət etmişik, istintaq orqanları görüşə etiraz etməyib. Sadəcə görüş otaqlarında təmir getdiyi üçün ailəsi ilə görüş hələ ki, mümkün deyil. Həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı yerli məhkəmə instansiyalarını keçmişik, hazırda Avropa Məhkəməsinə müraciət hazırlayırıq".

❑ **Nərgiz LİFTİYEVA**

# İraq türkmənləri öz qəbirlərini qazmağa başladılar

**ABŞ və İraq ordusu iki aydan uzun müddətdir İraq Şam İslam Dövlətinin (İŞİD) mühasirəsi altında olan və təxminən 12 min şiə türkmanın yaşadığı Əmirli qəsəbəsi üçün əməliyyata başlayıb. modern.az Türkiyə KİV-nə istinadən xəbər verir ki, digər tərəfdə Əmirli qəsəbəsindəki türkmanlar onları xilas cəhdi müvəffəqiyyətsiz nəticələnə biləcəyini də istisna etməyərək indidən öz məzarlarını qazırlar.**



İŞİD terror təşkilatının təzyiqi altında saxlanılan türkman əhalinin orta sıxlıqda olduğu Əmirli qəsəbəsinə yönəlik havadan humanitar yardım əməliyyatı və bu əməliyyata dəstək üçün yaxınlıqdakı İŞİD yaraqlılarına qarşı keçirilən hava hücumları ilə bağlı yeni təfərrüatlar açıqlanıb.

ABŞ Mərkəzi Qüvvələr Komandanlığından (CENTCOM) verilən açıqlamada, İraq hökumətinin tələbilə Əmirlidə köməksiz qalan vətəndaşların qorunması və regiondakı humanitar böhranın həll olunması üçün humanitar yardım dağıdılmasına qarşı əməliyyata dəstək məqsədilə Vaşinqton İŞİD hədəflərinə üç hava zərbəsi endirib. İraq təhlükəsizlik qüvvələri ilə koordinasiya halında aparılan hava hücumlarında ABŞ döyüş təyyarələrinin İŞİD-ə aid üç avtomobil, bir zirehli maşın, bir nəzarət nöqtəsi və bir tankı vuraraq məhv etdiyi bildirilir.

Bundan başqa, "Əl Cəzirə" telekanalına danışan türkmanlar sözügedən əməliyyatın uğursuz olma ehtimalına qarşı özləri və ailələri üçün qəbir qazmağa başladıqlarını söyləyiblər.

***P.S.** Ən son məlumatlara görə, İraq hərbçiləri və kürd silahlı peşmərgələri mühasirəni yararaq Əmirli şəhərinə daxil olub.*

# Fəalları dənləyən "köhnə dəyirman"



**Xalid KAZIMLI**

**15-20 il öncə də siyasi fəalları həbs edirdilər - üçünü bir maddəylə, ikisini başqa maddəylə. İttihamların hamısı uydurma, qondarmaydı.**

**7-8 il öncə də eyni proses permanent şəkildə gedirdi - fəallıq göstərən, öndə olan partiya aktivlərini ikibir, üçbir müxtəlif ittihamlarla içəri basır, hərəsinə 7-8 il iş verir, ilyarımdan sonra "əfv edirdilər".**

3-4 il əvvəl də eləydi. "Köhnə dəyirman" bir ucdan siyasi məhbus qəbul edir, "hüquq müdafiəçisi" istehsal edirdi.

1-2 il əvvəl isə bir az fərqli oldu: siyasi motivli həbslərin səngiyəcəyini gözlədiyimiz yerdə tutqular daha kütləvi səciyyə aldı: "Nida"çılar, Tofiq Yaqublu, İlqar Məmmədov, Yadigar Sadıqov, Anar Məmmədli, Pərviz Həşimli, Bəşir Süleymanov və başqaları həbs edildi...

Bu il də qara gəldi. Jurnalist Rauf Mirqədirovla başlayan həbs dalğası Leyla və Arif Yunuslarla da yatmadı, Rəsul Cəfərovu da aldı apardı. Bununla paralel Sirac və Fərəc qardaşları dəmir barmaqlıqlar arxasına salındı. İndi də Seymur Həzi...

15 il öncənin həbsləri ilə indinin həbsləri arasında ilk baxışdan o qədər də fərq yoxdur - bütün hallarda həbs olunanlar müxalif fikirli şəxslərdir, ən azı mövcud hakimiyyətin yanında olmayan, ona yarınmayan, işinə yaramayanlardır.

Amma bu həbslər arasında fərqlər də var. 15-20 il öncə siyasi fəalları tez-tez və vaxtaşırı tutsalar da, hüquq müdafiəçilərini, jurnalistləri tutmazdılar.

O vaxtlar jurnalistləri başqa cür cəzalandırardılar: döyərdilər, söyərdilər, məhkəməyə verərdilər, cərimələrdilər, qorxudardılar, əsgərliyə aparardılar. Amma tutmaz, həbs etməzdilər. Beynəlxalq birlik də, yerli ictimaiyyət də tənqidçi jurnalistlərin həbsinə təhəmmül etmirdi.

Ona görə də sərt tənqidi yazıları ilə iqtidar komandasını təngə gətirmiş, boğaza yığmış "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlunu həbs etmək üçün ələ düşən ilk fürsətdən yararlanmaq istəyən hakimiyyət ciddi müqavimətlə üzləşdi. Avropanın bütün siyasi, hüquqi üstqurumları ayağa qalxdı, ölkə mətbuatının aparıcı qəzetləri öz nəşrlərini dayandırıb "Ümumi qəzet" buraxdılar. Bu beynəlxalq rezonansın fonunda R.Arifoğlunun məhbəsdə cəmi 45 gün saxladılar.

"Jurnalistləri tutmaq olmaz" stereotipi 8-9 il öncə dağıldıldı. Ard-arda bir neçə jurnalist həbs olundu. Bir ara onların sayı 10-a çatdı.

Əliyev hakimiyyətinin ikinci mərhələsində bir sıra stereotiplər kimi "jurnalistlərə dəymək olmaz", "beynəlxalq ictimaiyyət siyasi həbsləri qəbul etməz", "siyasi dustaqlara görə ölkəyə sanksiya tətbiq edilə bilər" kimi illüziyalar da dağılıb getdi.

2003-dən bəri ölkədə siyasi motivli həbslər qat-qat artıb, trivial ifadə ilə desək, dünya birliyi hələ də dözür.

Artıq tutulanların sırasında jurnalistlər, hüquq müdafiəçiləri, hətta vəkillər də var. Dünyanın aparıcı demokratik dövlətlərinin siyasi dairələri, Avropa üstqurumları, beynəlxalq hüquq müdafiə təşkilatları ölkəmizdəki vəziyyətlə bağlı bir neçə ton bəyanat yayıblar - xeyri yoxdur.

Azərbaycan əhalisi də fakt qarşısındadır, Avropa təşkilatları da. Hakimiyyət tənqidçi siyasi rəqiblərini, müxtəlif monitorinqlər apararaq başağrısı verənləri bir-bir azadlıqdan, ictimai-siyasi fəaliyyətdən məhrum edir.

Artıq repressiya dalğası qarşısında immuniteti olan kimsə qalmayıb. Əvvəllər bu imtiyazdan hüquq müdafiəçiləri, jurnalistlər və siyasi liderlər (ana müxalifət partiyalarının birinci şəxsləri) yararlanırdısa, indi yalnız sonuncular qalıb.

Hiss olunur ki, artıq sıra onlara da çatıb. Sabah İsa Qəmbəri, Əli Kərimlini, Mirmahmud Mirəlioğlunu həbs etsələr, bu, artıq heç kəsə təəccüblü görünməyəcək.

Ötən həftənin beşinci günü saxlanılan, ertəsi gün barəsində iki aylıq həbs qərarı çıxarılan jurnalist Seymur Həzinin vaqiesi göstərir ki, məhbəs qapısı hamı üçün açıqdır.

Həbs edilmək üçün kiminsə cinayət törətməsinə ehtiyac yoxdur. Artıq həbs ediləcək adamı günlərlə izləməyə, həbs planı qurmağa, bəhanə axtarmağa da ehtiyac qalmayıb. Hər kəsi ilk göründüyü yerdə saxlamaq texniki işdir. Uyğun bəhanə, hal şahidləri əl altındadır.

Belə bir dövrana gəlmişik. Heç olmasa siyasi dustaqlar üçün ayrıca türmə yaratsaydılar...



# Hamıya qarşı savaş

**Azər RƏŞİDOĞLU**

**Dövlət başçısı İlham Əliyev son çıxışında ölkədəki sərt idarəçiliyin müəllifinin məhz özünün olduğunu açıqlamış oldu. Ölkə rəhbərinin çıxışı son günlər siyasi müstəvidə baş verənlərə iqtidarın verdiyi qiymət kimi də dəyərləndirilə bilər.**

Ölkənin tanınmış hüquq müdafiəçiləri, gənc fəalların həbsi məhz bu arqumentlərlə əsaslandırılırdı - xarici fondlardan konkret şəxslərə inqilab üçün pullar ayrılıb, qanunsuz sahibkarlıq fəaliyyəti baş verib, dövlətə xəyanət edilib və s.

Prezidentin çıxışına qədər bəlkə də baş verənləri orta təbəqə məmurlarının özbaşınalığı kimi dəyərləndirmək mümkün idi. Lakin ölkə başçısı çıxışında baş verənlərə açıq münasibət bildirdi: "İndi heç kəs üçün sirr deyil ki, müxtəlif fondlar vasitəsilə, müxtəlif ölkələrdə kütləvi iğtişaşların, qarşıdurmanın yaradılması üçün praktiki addımlar atılır. 10 il bundan əvvəl bu, daha da məxfi formada aparılırdısa, hazırda artıq bütün maskalar yırtılıb, heç gizlətmirlər. Məqsəd də odur ki, təbii resurslarla zəngin, böyük potensiala, əlverişli coğrafi mövqeyə malik ölkələr təsir altına düşsün və başqasının diktəsi ilə hərəkət etsin, oturub-dursun".

Prezident həmçinin qeyd edib ki, buna baxmayaraq, yardım adı altında Azərbaycana hər il milyonlarla dollar pul ötürülür: "O pul müxalifət qurumlarının cibinə gedir. Düzdür, bizim müxalifət pula o qədər meyillidir ki, o, ayrılan qrantların 70-80 faizini öz cibinə qoyur. Ona görə o pullar onu göndərənlərin iradəsi ilə xərclənmir. Ancaq fakt budur. Biz bunu bilirik, burada heç nəyi gizlətmək mümkün deyil. Bütün bank hesablarına nə qədər gəlir, kimə gəlir, o pul sonra hara gedir və bilin ki, verilən o vəsait ölkəmizin maraqlarının əleyhinə işləyən vəsaitdir. Onsuz da lap o miqdarı on dəfə artırsalar da bunun xeyri olmayacaq. Çünki Azərbaycanda sabitliyin, inkişafın təminatçısı Azərbaycan xalqıdır, görülən işlərdir, abadlaşan şəhərlər və inkişafda olan ölkəmizdir. Ona görə hesab edirəm ki, Azərbaycanda sabitliyi pozmaq cəhdləri yersizdir. Bunu artıq o cəhdləri edənlər də tamamilə başa düşürlər".

Göründüyü kimi, yenə də inqilab təhlükəsindən danışılır. Vurğulayaq ki, ölkədə rəngli inqilabların baş verməsi üçün seçici fəallığı son dərəcə yüksək olmalı və yüz minlərlə insan öz səsini sona qədər qorumağı bacarmalıdır. Azərbaycanda isə hələ belə bir tendensiya müşahidə edilmir.

Digər tərəfdən, birmənalı olaraq, məxməri inqilablar oliqarxiyanın xalqın tərəfinə keçdiyi zaman reallaşa bilir. Ukraynadakı son proseslər də milyonlarla maliyyə hesabına gerçəkləşdirilə bildi. Böyük proseslər üçün maliyyə əsas şərtdir.

Məhz oliqarxları müxalifətə keçməyə sövq edəndən sonra Qərb Ukrayna müxalifətini silahlanmaq, milli qvardiya yaratmaq, klassik inqilaba hazırlaşmaq barədə bəyanatlar verməyə sövq etdi.

Kənardan görünən budur ki, hakimiyyət öz daxilindən narahatdır. Əslində, dövlət başçısının hədə dolu mesajları müxalifətə deyil, hakim komandada təmsil olunub müxalifətlə gizli müttəfiqliyə getmək istəyən məmurlara ünvanlanıb.

Kütləvi həbslər isə onu deməyə əsas verir ki, Azərbaycan iqtidarı beynəlxalq aləmlə öz arasında bufer yaradır; hakimiyyət "pullu inqilab" ideologiyasının Azərbaycandakı daşıyıcılarını kütləvi şəkildə həbs etməklə olası inqilabı beşiyindəcə boğmağa qərarlıdır. Amma indiyədək həbs edilən və həbs ediləcəyi gözlənilən ictimai-siyasi xadimlərin heç birinin inqilabçı obrazları yoxdur...

***

Qanunların sərtləşdirilməsi istiqamətində atılan addımlar, jurnalistləri və müxalifətçiləri susdurmaq cəhdləri Azərbaycana yaxşı nəsə vəd etmir. Söz və mətbuat azadlığı, demokratik dəyərlər hər addımda pozulur, tapdanır.

Hakimiyyət hamıya qarşı - xarici qüvvələrə, QHT sektoruna, mətbuata və müxalifətə savaş elan edib. Lakin hamını həbs etmək də mümkün deyil. Hakimiyyət güzəştlərə getməlidir. Lakin dövlət başçısının son çıxışından da bəlli olur ki, iqtidar bundan sonra daha sərt idarəçiliyə üstünlük verəcək. Bu taktika sonadək effekt verəcəkmi, hakimiyyəti gözlənilən təhlükələrdən xilas edəcəkmi? Bu sualın cavabını zaman özü verəcək.



# İlham Əliyevdən ilginc açıqlama və ittihamlar

## Prezident müxalifətə xaricdən yardım adı altında milyonlarla vəsaitin ötürüldüyünü bəyan etdi; ölkə başçısının dediklərinə Müsavat Partiyasından cavab gəldi...

**"Azərbaycanda azad cəmiyyət formalaşıb, bütün demokratik təsisatlar var". Bunu Azərbaycan prezidenti İlham Əliyev ötən həftənin sonunda Beyləqanda rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə deyib. Ölkə başçısı əlavə edib ki, Azərbaycanın dəyərləri əsas dəyərlərdir: "Əlbəttə ki, biz ümumbəşəri dəyərləri bölüşürük. Azərbaycan dəyərləri ümumbəşəri dəyərlərin tərkib hissəsidir.**

Ancaq bizim xalqımızın özünə xas olan dəyərləri var. Biz onları qoruyuruq, qorumalıyıq. Əlbəttə ki, gənclər Vətənə bağlı olmalıdırlar. Bu gün Azərbaycan o qədər sürətlə inkişaf edir ki, Vətəni sevən hər bir insan qürur hissi ilə deyir: Mən Azərbaycan vətəndaşıyam! Ümumiyyətlə, hər bir insan öz Vətənini sevməlidir. Ancaq daha inkişaf etmiş ölkələrdə, təbii ki, bu, özünü daha da yüksək səviyyədə büruzə verir. Hesab edirəm ki, vətənpərvərlik, bilik, savad, fiziki hazırlıq, öz keçmişinə bağlılıq, milli ruhda tərbiyə bizim üçün əsas amillər olmalıdır".

Prezident qeyd edib ki, indi bəzi xarici dairələr qloballaşma adı altında öz iradələrini tətbiq etmək istəyirlər: "Xüsusilə gənclər arasında iş aparılır, müxtəlif fondlar vasitəsilə, guya ki, hansısa layihələrin icrası üçün vəsait ayrılır. Əslində gəncləri öz dövlətinə qarşı çevirmək, istiqamətləndirmək üçün işlər aparılır. Biz bunları bilirik. Bu gün Azərbaycanın uğurlu inkişafını heç də hər kəs qəbul etmir. Ölkə daxilində də milli satqınlar var ki, onlar xarici antiazərbaycan dairələrinə öz vicdanını satıblar. Xarici dairələr var ki, çalışırlar Azərbaycanda sabitlik pozulsun, inkişaf dayansın, Azərbaycan asılı vəziyyətə düşsün. Biz bunu bilirik. Mən prezident kimi gündəlik fəaliyyətimdə bu qüvvələrə qarşı açıq mübarizə aparıram. Ona görə də Azərbaycana qarşı mediada qarayaxma, böhtan kampaniyaları aparılır. Bunun səbəbi odur ki, biz müstəqilliyimizi qoruyuruq. Azərbaycan xalqının haqlı tələbini, müstəqil olmaq arzusunu qoruyuruq, qoruyacağıq. Siz də, gələcəkdə Azərbaycanı idarə edəcək insanlar da bax bu yolla getməlisiniz".

Ölkə başçısı son zamanlar dünyada baş verən bəzi proseslərdən də danışıb: "İndi heç kəs üçün sirr deyil ki, müxtəlif fondlar vasitəsilə, müxtəlif ölkələrdə kütləvi iğtişaşların, qarşıdurmanın yaradılması üçün praktiki addımlar atılır. Əgər 10 il bundan əvvəl bu, daha da məxfi formada aparılırdısa, hazırda artıq bütün maskalar yırtılıb, heç gizlətmirlər. Məqsəd də odur ki, təbii resurslarla zəngin, böyük potensiala, əlverişli coğrafi mövqeyə malik ölkələr təsir altına düşsün və başqasının diktəsi ilə hərəkət etsin, oturub-dursun. Bu isə o ölkələri məhvə aparır".

Ölkə başçısı yaxın tarixi xatırladıb: "Bizim qonşuluğumuzda baş vermiş hadisələrin nələrə gətirib çıxardığı da gözümüzün qabağındadır. Bilin ki, Azərbaycan üçün də oxşar ssenarilər yazılmışdı. Sadəcə olaraq bizim iqtidarımızın dəmir iradəsi imkan vermədi ki, bu ssenarilər burada həyata keçirilsin və heç vaxt imkan verməyəcəyik.

Ona görə siz gənclər bunu yaxşı bilməlisiniz və bizim gənclərimiz xarici dairələrin təsiri altına düşməməlidir. Xarici qüvvələr Azərbaycanın inkişafını bizdən artıqmı istəyirlər? Əlbəttə ki, yox. Onların maraqları başqadır və biz bilirik bunun səbəbi nədir. Onlar da bilirlər ki, bu, bizimlə keçməyəcək və sizinlə də keçməməlidir. Ona görə siz də bu məsələləri daim diqqət mərkəzində saxlamalısınız".

İlham Əliyev deyib ki, Azərbaycana xaricdən heç bir yardım, kömək lazım deyil: "Lazım olanda onsuz da heç kim bizə kömək etməyib. Azərbaycan ağır vəziyyətdə olanda kim gəlib bizə kömək edib? Heç kim. Mənim yadımdadır, vaxt var idi ki, biz beynəlxalq qurumlardan kredit ala bilmirdik, vermirdilər kredit. Amma indi biz özümüz başqa ölkələrə kredit veririk. Yəni bizim iqtisadi inkişafımız sırf Azərbaycan dövlətinin, hökumətinin uğurudur və aparılan siyasətin nəticəsidir. Ona görə bizə yardım etmək üçün heç kimə müraciət etməmişik və buna ehtiyac yoxdur. Amma yardım adı altında Azərbaycana hər il milyonlarla dollar pul ötürülür. O pul müxalifət qurumlarının cibinə gedir. Düzdür, bizim müxalifət pula o qədər meyillidir ki, o, ayrılan qrantların 70-80 faizini öz cibinə qoyur. Ona görə o pullar onu göndərənlərin iradəsi ilə xərclənmir. Ancaq fakt budur. Biz bunu bilirik, burada heç nəyi gizlətmək mümkün deyil. Bütün bank hesablarına nə qədər gəlir, kimə gəlir, o pul sonra hara gedir və bilin ki, verilən o vəsait ölkəmizin maraqlarının əleyhinə işləyən vəsaitdir. Onsuz da lap o miqdarı on dəfə artırsalar da bunun xeyri olmayacaq. Çünki Azərbaycanda sabitliyin, inkişafın təminatçısı Azərbaycan xalqıdır, görülən işlərdir, abadlaşan şəhərlər və inkişafda olan ölkəmizdir. Ona görə hesab edirəm ki, Azərbaycanda sabitliyi pozmaq cəhdləri yersizdir. Bunu artıq o cəhdləri edənlər də tamamilə başa düşürlər".

Azərbaycanın aparıcı müxalifət təşkilatı olan Müsavat Partiyasının başqan müavini Mehman Cavadoğlu ölkə prezidentinin ittihamlarına münasibət bildirib. Mehman Cavadoğlu deyib ki, bu ittihamlar Müsavata aid edilə bilməz. Çünki Müsavat Partiyası həmişə Azərbaycan qanunlarına əməl edərək fəaliyyət göstərib: "Xarici donor təşkilatlar maliyyə yardımını, qrantı siyasi partiyalara yox, QHT-lərə verirlər. Müsavat Partiyası sırf siyasi qurum olduğu üçün xarici təşkilatlardan qrant ala bilməz və heç vaxt almayıb. Müsavat Partiyası indiyə qədər xaricdən heç bir təşkilatdan bir manat da olsun maliyyə almayıb. Xaricdən maliyyə almaq həm Azərbaycan qanunlarına ziddir, həm də donor ölkələrin də əksəriyyətinin qanunlarına ziddir. Ona görə də Müsavat qanunlara hörmət və əməl edən bir siyasi partiya olaraq, heç vaxt xaricdən maliyyə almayıb. Məncə, bu iddia QHT-lərlə bağlı məsələ ola bilər. Bu məsələdə isə daxili mətbəxi o qədər də dərindən bilmirəm. Ona görə də bir fikir bildirə bilmirəm".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 218 (5927) 1 sentyabr 2014

# Bakı üçün kritik seçim zamanı sürətlə daralır

# "Böyük müharibənin astanasındayıq..." - şərh

## Ukrayna prezidenti qorxunc savaş anonsu verdi; Azərbaycanın da yerləşdiyi region fəlakətə sürüklənir; Qərb Rusiyaya bir həftə vaxt ayırıb; Poroşenko təcili Ağ Evə çağırılıb; NATO da hərəkətə keçib; Donbasdakı dağıdıcı separatçılıq ən əvvəl Qarabağda əks-səda verə bilər, çünki...



**Ötən həftəsonu Şərqi Ukraynada vəziyyətin qəfildən kəskinləşməsi dərhal dünyanın diqqətinə gəldi. Rəsmi Moskva etiraf eləməsə də, Rusiya ordusunun qonşu və suveren Ukraynanın ərazisinə girməsi faktı ləngimədən BMT Təhlükəsizlik Şurasında müzakirəyə çıxarıldı. Kremlə bu dəfə ən sərt formada xəbərdarlıqlar edildi.**

Lakin bu çağırışlar da Minskdəki "üçlü sammit" kimi ciddi nəticə vermədi. Odur ki, bir gün sonra Avropa Birliyi (AB) ölkələri Brüsseldə ən yüksək səviyyədə və şəxsən Ukrayna prezidentinin iştirakı ilə məsələyə dair təcili toplantı keçirməli oldu.

Artıq bəllidir ki, Poroşenkonu dinləyən qurum liderləri Rusiyaya cəmi bir həftə vaxt veriblər. Bu müddətdə Moskva Ukraynaya müdaxiləsini davam etdirərsə, ona qarşı qat-qat ciddi sanksiyalar tətbiq olunacağı anons edilib. Avropa Komissiyası bununla əlaqədar bir həftə ərzində təcili hazırlıq işləri görmək və bu addımların atılması yönündə təkliflər irəli sürmək tapşırığı alıb. Hətta Rusiyanın maliyyə sisteminin çökdürülməsi təklifləri səslənib.

Öz növbəsində Almaniya kansleri Angela Merkel bəyan edib ki, Moskva bir həftə ərzində Ukraynaya müdaxiləni dayandırmasa və vəziyyət yaxşılığa dəyişməsə, əksinə, pisləşsə, Rusiyanı yeni sanksiyalar təhdid edəcək. Avropa Komissiyasının sədri Joze Manuel Barrozu isə Ukrayna prezidenti Petro Poroşenko ilə görüşdən sonra Brüssel brifinqində bildirib ki, Avropa Birliyi Ukraynaya həm danışıqlar zamanı siyasi, eləcə də iqtisadi addımlarla dəstək olmağa hazırdır.

"Avropa Birliyinə üzv ölkələrin böyük əksəriyyəti Rusiyaya qarşı yeni sektoral sanksiyaların tətbiq olunmasını dəstəkləyib". Ukrayna mətbuatının xəbərinə görə, bu barədə Brüsseldə keçirdiyi brifinqdə Ukrayna prezidenti Pyotr Poroşenko deyib (axar.az). Dövlət başçısı bildirib ki, Avropa Birliyi həmçinin ölkəsinə maliyyə dəstəyi göstərəcək: "Qurum yaxın günlərdə 1 milyard avro kredit verilməsini məqbul saydı. Bundan başqa, cari ilin sonlarında Ukraynaya 250 milyon avronun hədiyyə edilməsi nəzərdə tutulur. Təşkilat həmçinin, ölkəmizə hərbi-texniki yardım, müasir silahlar da verəcək". Prezident onu da diqqətə çatdırıb ki, bütün bunların nəticəsində Ukrayna ordusunun döyüş qabiliyyəti yüksək səviyyəyə gələcək.

Lakin Ukrayna prezidenti bədbin proqnoz da verib. AB liderləri ilə bundan sonra atılacaq addımları müzakirə edən Poroşenko dünya müharibəsinin yaxınlaşdığı xəbərdarlığını edib. AB-yə üzv olan ölkələrin dövlət və hökumət başçılarının qatıldığı sammitin Ukrayna ilə bağlı iclasından sonra təşkil olunan mətbuat konfransında o, hadisələrin müsbət sonluqla bitməyəcəyini deyib. Onun sözlərinə görə, döyüşlərin dayandırılması üçün böyük səy göstərilməlidir: "Böyük müharibənin astanasındayıq. Hazırda baş verən hadisələr regional müharibəyə çevrilə bilər".

Öz növbəsində Litva prezidenti Dalya Qribauskayte "Rusiya Ukrayna ilə müharibə aparmaqla Avropaya savaş elan elədiyini" söyləyib. O, AB-dən Kiyevdə ordu təchiz edilməsini istəyib. Zirvə görüşündə danışan prezident Rusiyanın Avropaya inteqrasiya döneminde olan Ukraynaya qarşı savaş başlatdığının bir gerçək olduğunu və Ukraynaya hər cür dəstəyin gərəkliliyini xüsusi vurğulayıb.

Vəziyyətin ən kritik həddə olmasının başqa bir göstəricisi də ABŞ prezidenti Barak Obamanın Poroşenkonu təcili Ağ Evə çağırmasıdır. Ukrayna prezidentinin Amerikaya bu ilk səfəri daxil olduğumuz həftə ərzində reallaşmalıdır.

NATO isə mümkün müharibə perspektivini nəzərə alaraq Şərqi Avropanın ölkələrinin Rusiya ilə həmsərhəd zonasında ilk dəfə olaraq 5 hərbi baza yerləşdirmək niyyətindədir. Bazalar Polşa, Rumıniya, Estoniya, Latviya və Litvada yaradılacaq. Ümumilikdə, bazalarda 4 min hərbçi yerləşdiriləcək. Alyansın baş katibi Anders Foq Rasmussen "The Guardian" qəzetinə müsahibəsində Rusiya təhlükəsi ilə bağlı NATO-nun da artıq hərəkətə keçdiyini, yeni situasiya üçün çevik reaksiya planına malik olduğunu qeyd edib. Bu plan cəmi bir neçə saat ərzində qüvvələrin yerdəyişməsini nəzərdə tutur. Alyans rəhbəri Ukraynanın təcavüzə qarşı daha effektli direnişi üçün ona kömək göstərələcəyini, bütün bu məsələlərin isə NATO-nun Uels sammitində detallı müzakirə ediləcəyini də bildirib.

Maraqlıdır ki, Rusiya prezidenti Vladimir Putin də Şərqi Ukraynadakı dramatik situasiyanın böyük müharibəyə çevrilə biləcəyini istisna eləməyib. Təbii ki, bununla o, Kiyevi, Avropa paytaxtları və ABŞ-ı təhdid eləmək niyyətindədir. Habelə, SSRİ-nin birinci və sonuncu prezidenti Mixail Qorbaçov yeni böyük savaş təhlükəsindən danışaraq, Kremlin Ukraynaya hərbi müdaxiləsinin əleyhinə olduğunu dilə gətirib, "bu, bir xalqın müharibəsidir" deyib, qəti şəkildə müharibəyə qarşı çıxıb...

***

Bir çox təhlilçilərə görə isə Donbasdakı dağıdıcı separatçılığın böyük müharibəyə çevrilməsi ilk öncə Dağlıq Qarabağ münaqişəsi zonasında əks-səda verə bilər. Ən azı ona görə ki, iki qlobal güc mərkəzinin (Qərb və Rusiya) maraqları Ukraynadan sonra ən çox Cənubi Qafqazda, Qarabağ məsələsində kəsişir.

Digər yandan, analitiklər dəfələrlə bildiriblər ki, Ukraynadan sonra Azərbaycan Kreml üçün, Putinin Avrasiya layihələrindən ötrü postsovet məkanının ən strateji ölkəsidir. Odur ki, Rusiya Ukrayna ilə birgə "Azərbaycan düyünü"nü də bir dəfəyə kəsmək fikrinə düşə bilər.

Deməli, Bakı üçün də seçim zamanı daralır. O mənada ki, milli təhlükəsizliklə bağlı boşluqları qardaş Türkiyənin də köməyi ilə qısa zamanda aradan qaldırıb sahman yaratmaq vaxtıdır. Zaman indi Azərbaycana işləmir. Amma işlətməliyik.

❑ **Siyasət şöbəsi**

# Sərkisyanın Qarabağa son uçuşu...



**Elşad PAŞASOY**
epashasoy@yahoo.com

**Bir həftə əvvəl Vəfa Quluzadə Moskvanın nüvə silahına əl ata biləcəyi haqda xəbərdarlıq etmişdi. Onda Rasim Ağayev "Göydən yerə daş düşsə, Vəfa Quluzadə deyəcək, bu daşı Rusiya göydən yerə atıb" deyərək istehzalı reaksiya vermişdi.**

Budur, Putin onu təmizə çıxartmaq istəyən Ağayevi yox, Quluzadəni təsdiqlədi. Rusiya prezidenti Qərbə ölkəsinin nüvə gücünü xatırlatdı və "bizimlə qarşıdurmaya girməmək ən yaxşısı olar" dedi. Putin o qədər irəli gedib ki, hətta Qazaxıstan adlı dövlətin mövcudluğuna şübhə edir, Nazarbayevi hədələyir.

Rusiyanın dünyanı təhdid etdiyi günlərdə ermənilərin də əlinə fürsət düşüb. Arxalı köpək məsələsi yəni... Sabah Ermənistan prezidenti Serj Sərkisyanın başçılıq etdiyi nümayəndə heyəti Azərbaycana gələcək. Bəli, Azərbaycana - ölkəmizin ayrılmaz hissəsi saydığımız Dağlıq Qarabağa. Amma fakt budur ki, düşmən on illərdir bu torpaqları bizim əlimizdən almağı və indiyədək cəngində saxlamağı bacarıb. Sərkisyan qondarma "Dağlıq Qarabağ Respublikası"nın müstəqilliyinin 23-cü ildönümü ilə bağlı tədbirlərdə iştirak edəcək. Nümayəndə heyəti sanki xarici ölkəyə səfər edəcək, nazirlər və diaspor erməniləri də tədbirə təşrif buyuracaq.

Qubadlının işğalının 21-ci ildönümündə bunları yazmaq çox ağırdır. Amma bu, acı həqiqətdir, röya deyil. Sabah ermənilər Xankəndidə hərbi parad keçirəcək, Şuşa şəhərində isə Geoloji Muzeyin açılışını edəcəklər. Ermənistan parlamentinin bütün fraksiyalarını təmsil edən deputat qrupu da Qarabağda olacaq. Bu barədə xəbər yayılandan sonra rəsmi Bakı gərək bütün beynəlxalq təşkilatlara müraciətlər ünvanlayıb Sərkisyanın gəlişini əngəlləmək üçün cəhdlər göstərəydi. Ancaq biz bunu müşahidə etmirik. Qarabağ separatçıları 1991-ci il sentyabrın 2-də Azərbaycandan ayrıldıqlarını, qanunsuz olaraq öz müstəqilliklərini elan etdiklərini bəyan ediblər və onların azğınlıqları artıq adi qarşılanır. Bir neçə gün əvvəl ABŞ-ın Kaliforniya ştatının tanıdığı "DQR" öz "müstəqilliyini" qeyd edəcək.

Qarabağ canisi Köçəryan Rusiyada çıxan "Nuhun Gəmisi" qəzetinə müsahibəsində deyib ki, Ermənistan batır. Ermənilərin it kökündə yaşadığı, imkanı çatanın ölkədən qaçıb getdiyi məlumdur. Ermənilər o kökdədir ki, hətta Borçalıda azərbaycanlıların həyətində yer belləyir, tualet yeri qazır, odun doğrayır, günəmuzd işləyirlər. Düşmən millətin qapısında qul kimi işləməyə belə dözürlər. Ancaq nə Köçəryanın dedikləri, nə ermənilərin sayının ilbeil azalması bizi arxayınlaşdıra bilməz. Ermənistanda bir erməni qalmasa belə, nə qədər Rusiya imperiyası var, Azərbaycan təhlükə ilə üzbəüz qalacaq. Bu təhlükəni önləməyin ən birinci yolu ölkədə milli birliyin təminatına nail olmaq, qarşıdurmanı aradan götürməkdir.

Düzdür, mən Rusiya təhlükəsindən Azərbaycanı Qərbin də xilas edəcəyini zənn etmirəm. Gürcüstan, Ukrayna nümunəsi var... Necə ki, o Qərb 1920-ci ildə müstəqilliyini tanıdığı Azərbaycanın tikə-parça edilməsinə, 30-cu illərdə bu xalqın qaymaqlarının kütləvi məhvinə göz yumdu, hətta 1945-46-cı illərdə Cənubi Azərbaycanda qurulan Demokratik Respublikanın süqutuna imkan yaratdı. Demokratiya nağıllarını da çox eşitdik bu illərdə. Ancaq mənə torpağımı 20 ildən çoxdur işğalda olduğu halda işğalçını öz adı ilə tanımayan, üstəlik bir dılğır ermənini ölümünə görə Azərbaycana nota verən Qərbin demokratiyası lazım deyil! Belə yanaşma varkən onun gətirdiyi demokratiya İraqdakı İŞİD-dən yaxşı olmayacaq. Azərbaycanın 4 mindən çox əsir və itkini var, Qərb nə zaman Ermənistandan bu itkinləri tələb edib? Heç vaxt!

Üstəlik, işğalçıya hər il milyonlar ayırırlar. Budur, həmin milyonlar hesabınadır ki, 2 sentyabrda işğalçı ölkə Qarabağda hərbi parad və bayram tədbiri keçirir. Azacıq ədalət olsaydı, Azərbaycan bir raket zərbəsilə Sərkisyanı və onun canilərdən ibarət nümayəndə heyətini məhv edər, 1991-ci ildəki 20 noyabr qətliamının cavabını da verərdi, İsmət Qayıbovun, Məhəmməd Əsədovun, Vəli Məmmədovun... qisası alınardı.

Kəsəsi, dünyada ədalət olsaydı, sabah Sərkisyanın Qarabağa son gəlişi kimi tarixə düşərdi. Elə hərbi paradı qəbul edən zaman bircə raket zərbəsi və ermənilərin Qarabağda dağılan tifağı... Təsəvvür edirsinizmi? Qarabağ məsələsinin həlli bu qədər sadədir. Ancaq ədalət olsaydı. Rusiya məlum, heç olmasa Qərbdə... Gözləyək, görək bir Qərb dövləti Sərkisyana "Azərbaycan torpağında nə ölümün var" deyib onu qınayacaqmı...?! Ərdoğan Sərkisyanı dostsayağı inauqurasiyasına dəvət etmişdi. Bu da onun cavabı...

# Prezidentlərin növbəti görüşü bu həftə reallaşa bilər

## İlham Əliyev və Sərkisyanın NATO sammitində bir araya gələcəyi gözlənilir

**"Heç kim münaqişənin eskalasiyasında maraqlı deyil və Dağlıq Qarabağ münaqişəsinin hərbi yolla həlli yoxdur". anspress-in məlumatına görə, bunu "Turan" İnformasiya Agentliyinə müsahibəsində ATƏT-in ABŞ-dan olan həmsədri Ceyms Uorlik deyib. O bildirib ki, ATƏT-in Minsk Qrupu sülhün saxlanılmasına çalışır.**



Amerikalı diplomat qeyd edib ki, iyul ayının 31-dən başlayan və avqust ayının əvvəllərinə qədər davam edən cəbhə xəttindəki gərgin vəziyyət sülh prosesinə əngəldir. "Cəbhə xəttindəki münaqişə zamanı onlarla insanın ölməsi bizi sülhün nailiyyətinə gedən yolda geriyə salır. Həll yollarını tapmaq üçün işləmək və danışıqlar stolu arxasında səyləri ikiqat artırmaq lazımdır. Bunun üçün isə atəşkəs rejiminə əməl etmək ilkin şərtdir".

Həmsədr Azərbaycan və Ermənistan prezidentlərinin yaxın zamanlarda növbəti görüşünün baş tutacağını da istisna etməyib: "Prezidentlər NATO-nun Uelsdə keçiriləcək sammitində və ya BMT Baş Assambleyasının iclasında görüşə bilər", - deyə C. Uorlik bildirib.

Qeyd edək ki, NATO-nun sammiti sentyabr ayının 4-5-də Uelsin paytaxtı Kardifdə keçiriləcək.

YENİ MÜSAVAT
N 218 (5927) 1 sentyabr 2014

# Prezidentin əsgərləri yemək bişirməkdən azad etmək tapşırığı müsbət qarşılandı



**Üzeyir Cəfərov:** "Bu, çox müsbət qərardır və ictimai nəzarətdə saxlanılmalıdır"



**Azad İsazadə:** "Təmizlik və yemək hazırlamaq tapşırıqları çox vaxt "dedovşina"ya gətirib çıxarır"

**"Birincisi, əsgər yemək bişirə bilmir, ikincisi, axı yemək bişirmək onun peşəsi deyil". Bu fikirləri prezident İlham Əliyev Füzulu rayonuna səfəri zamanı Horadiz qəsəbəsində bir ailənin qonağı olan zaman orduda mülki şəxslərin işə götürülməsindən danışarkən qeyd edib. Ölkə başçısı qeyd edib ki, əsgərlərin mülki işlərlə məşğul olması onları əsas fəaliyyətdən ayırır: "Göstəriş verdim ki, əsgərləri bu işlərdən azad edin. Amma bu mülki işlərə yerli camaatı götürsünlər".**

Ölkə başçısının bu qərarını hərbi ekspert Üzeyir Cəfərov da müsbət qiymətləndirib və bu tapşırığın həyata keçirilməsinə ictimai nəzarət olunmasının vacibliyindən danışıb: "Bu, çox müsbət qərardır və biz bunu dəfələrlə demişik ki, əsgərin birbaşa vəzifəsi döyüş hazırlığı ilə bağlı olan məsələlər olmalıdır. Müdafiə Nazirliyi belə bir ideya irəli sürüb və artıq onun tətbiqinə başlanıb. Mülki şəxslər yemək bişirmək, təmizlik və sair kimi işlərə cəlb olunublar. Hərbi hissələrdə aşpazlar, qabyuyanlar, təmizlikçilər, ö cümlədən nəzarət-buraxılış məntəqələrində dayananlar da mülki vətəndaşlardan ibarət olmalıdır. Bu, çox yaxşı haldır. Çünki əsgərlər döyüş hazırlığından kənarda qalır və bu cür işlərə cəlb olunurdular. Bu, dünya təcrübəsində əksər ordularda tətbiq olunur".

Hərbi ekspert bildirib ki, bu addım bir çox digər problemlərin də qarşısını alacaq: "Çünki gənc əsgərlərin yeməkxanada işlədilməsi, təsərrüfat işlərinə cəlb olunması, daha yaşlı və təcrübəli əsgərlər tərəfindən əməyin istismarına məruz qalması halları da sirr deyil. Bildiyiniz kimi, əsgərlik yaşı 35-ə kimidir və adətən yaşlı əsgərlərlə gənc əsgərlər arasında narazılıq halları yaranması səbəblərindən biri də təmizlik işlərinin gənc əsgərlərin üzərinə qoyulması idi. Hətta döyüş bölgələrində bu, daha faciəvi hadisələrlə nəticələnirdi".

Ekspert bu qərarın həyata keçirilməsinə ictimai nəzarətin vacibliyini belə əsaslandırıb: "Bunun hərbi hissələrdə necə tənzimlənəcəyi də izlənilməlidir. Bu təkcə hərbi hissənin komandanlığı tərəfindən deyil, həm də ictimai nəzarət qurumları tərəfindən həyata keçirilməlidir. Buraya QHT-lər, dövlət qurumları, mətbuat nümayəndələri cəlb olunmalıdır və bu şəxslərdən ibarət komissiya əsgərlərin durumuna, bu işə cəlb olunan mülki şəxslərin vəzifə borclarının yerinə yetirməsi ilə bağlı vəziyyətə ictimai nəzarəti həyata keçirsinlər. Rusiyada, həmçinin NATO ölkələrində ictimai nəzarəti həyata keçirən qurumlar hərbi hissələrə baş çəkirlər və vəziyyətin dəyərləndirilməsi ilə bağlı komandanlığa köməklik göstərirlər. Bu təcrübə də həyata keçirilsə, mənə elə gəlir ki, orduda ab-hava xeyli yaxşılaşar və baş verən hadisələrin də sayı kəskin şəkildə azalar".

Hərbi psixoloq Azad İsazadə bu qərarı müsbət qiymətləndirsə də bir sıra istisna hallardan danışıb: "Bu, müsbət bir haldır. Çünki əsgərin hərbi bilikləri öyrənməyə daha çox vaxtı qalacaq. İkinci isə, reallıq belədir ki, təmizlik və yemək hazırlamaq tapşırıqları çox vaxt "dedovşina"ya gətirib çıxarır. Bəzi işlər yaxşı sayılır, təmizlik və sair işlər isə köhnə əsgərlər tərəfindən gənc əsgərlərə cəza kimi verilir. Yeni qaydalar tətbiq olunsa, "dedovşina" halları da azalacaq. Ancaq bir məsələ də var ki, ekstremal vəziyyətdə, döyüş tapşırığı yerinə yetirən zaman ordunun arxasınca mülki şəxslərin gedib yemək, təmizlik ehtiyacları təmin etməsi bir qədər problem yaradacaq. Burada söhbət döyüşdən və cəbhə xəttindən gedir.

Bu sərəncamı yerinə yetirərkən biz nəzərə almalıyıq ki, hansı hərbi hissələrdə hərbiçilərdən ibarət əvəzedici peşəkarları hazırlamaq lazımdır. Bunu Müdafiə Nazirliyi müəyyənləşdirməlidir ki, hansı peşə mülki sayıla bilər, hansı peşə yox. Məsələn, sürücü, rabitə, tibb bacısı və sair mülki vətəndaşlardan da ola bilər. Nazirlik tərəfindən bu siyahı müəyyənləşdirilməlidir və qeyd olunmalıdır ki, harada sırf mülki şəxslər işləyə bilər, harada isə hərbçilər ola bilər. Məsələn, cəbhəyə yaxın yerlərdə sözsüz ki, hərbçilər olmalıdır, digər hərbi hissələrdə isə mülki şəxslər".

❑ **Nərgiz LİFTİYEVA**

**Müsavat Partiyasının sentyabrın 27-də keçiriləcək qurultayında hazırkı başqan İsa Qəmbərin namizəd olmayacağı dəqiqdir. Partiyanı bərpa edən, 22 ildir uğurla onun başqanı olan bir şəxsin bu postdan getməsi sıravi müsavatçıları üzməyə bilməz. Artıq daxildə İsa bəyin başqanlıqdan gedib-getməməsi ilə bağlı ikitirəlik yaranıb. Bir tərəf nizamnamədə dəyişiklik edilməsinin və İsa Qəmbərin başqanlıqda qalmasının tərəfdarıdır. Digər tərəf isə buna əks mövqedədir.**

# İsa Qəmbərə başqanlıqdan üstün status vermək təklifi ikitirəlik yaratdı

## Müsavat rəhbərliyində və başqanlığa iddialılar arasında təklifi dəstəkləyənlər də var, əleyhinə olanlar da...

Partiyanın Divan üzvü Nüşabə Sadıxlı bir neçə gün öncə mətbuata verdiyi müsahibədə qurultayda İsa Qəmbərə yeni başqana təsir etmək gücündə olan səlahiyyətlərin verilməsi ilə bağlı fikirlər səsləndirib: "İsa Qəmbərə elə bir rəsmi status verilsin ki, o, partiyada istənilən məsələyə müdaxilə edə bilsin. Mənimlə həmfikir olan bir sıra şəxslər bunun üzərində düşünür. Mövqeyimizi təklif kimi qurultayda rəsmən irəli sürəcəyik. Çalışacağıq ki, təklifimiz qəbul edilsin".

Nüşabə Sadıxlının bu fikirlərinə partiya daxilindən reaksiyalar gəlməyə başlayıb. Başqanlığa iddialı şəxs, partiyanın Divan üzvü Tural Abbaslı verdiyi müsahibələrində bu fikirlərlə razılaşmayıb. Partiya yetkilisi hesab edir ki, veriləcək bu status yeni başqanın səlahiyyətlərini şübhə altına ala bilər: "İsa bəy dəfələrlə bildirib ki, onun təsis olunacaq hər hansı statusa ehtiyacı yoxdur. Düşünürəm ki, İsa Qəmbərin şəxsi siyasi nüfuzu kifayət qədərdir. İstənilən vaxt məsələlərə müdaxilə etmək iqtidarındadır. İnanmıram ki, hansısa müsavatçı İsa Qəmbər bir postda təmsil olunmasa, onu qəbul etməsin. Bu təklifi praktiki cəhətdən müzakirə etsək, burada nüfuz parçalanmasının şahidi ola bilərik. Belə ki, qurultay keçirilir, yeni başqan seçilir, bundan əlavə də başqanın səlahiyyətlərindən üstün post yaradılır. Dolayısı ilə başqanın hüquqi olaraq idarəetmə səlahiyyətləri azalır. Bu da gələcəkdə partiyada ikitirəliyin, fikir ayrılığının yaranmasına səbəb ola bilər. Nüfuzsuz bir başqanın da hansısa məsələlərdə uğur əldə etməsi mümkün deyil. Partiyanın sadəcə bir başqanı olar, onu da qurultay seçər. Əgər İsa bəy yenidən başqan olmaq istəsə, biz qurultayda bu təklifi səsləndirə bilərik. Yəni nizamnaməyə dəyişiklik edərik. Şəxsən özüm İsa bəyin yenidən başqan seçilməsinə səs verərəm. Amma xüsusi səlahiyyət verərək mövcud başqanın səlahiyyətlərinin şübhə altına alınmasının tərəfdarı deyiləm".



İsa Qəmbər

Başqanlığına digər namizəd, partiyanın İcra Aparatının rəhbəri Arif Hacılı da bu barədə mövqeyini açıqlayıb: "Təbii ki, bizim tərəfimizdən bu təkliflərlə əlaqədar hər hansı problem ola bilməz. Onsuz da vahid komanda olaraq fəaliyyət göstəririk. Qurultaydan sonra da vahid komanda kimi fəaliyyət göstərmək niyyətindəyik. Çünki bu seçkilər digər seçkilərdən fərqli olaraq partiyadaxili seçkilərdir".

Müsavat başqanlığına iddialı digər namizəd Qubad İbadoğlu hesab edir ki, İsa Qəmbərin başqanlıqdan getməsi onun nüfuzuna təsir etməyəcək: "İsa bəyin hansı statusda olmasından asılı olmayaraq, Müsavatda böyük nüfuzu var. Müsavatçıların lideridir. Hesab edirəm ki, istənilən halda İsa bəyin başqanlıqdan getməsi nüfuzunun zəifləməsinə səbəb olmayacaq. Əksinə, nüfuzu artacaq. İsa bəyin özünün qəbul elədiyi, eyni zamanda, qurultay nümayəndələrinin dəstək verdiyi istənilən qərara hörmətlə yanaşacam. Bu istiqamətdə fəaliyyət göstərmək niyyətindəyəm".

Sabiq başqan müşaviri, partiya başqanlığına iddiaçılardan olan Səxavət Əlisoy irəli sürülən təklifi doğru hesab etmir: "Hər kəsin düşüncəsinə hörmətlə yanaşmaq lazımdır. Bu baxımdan bu fikirlərə hörmətlə yanaşıram. Çünki fikir azadlığı deyilən bir şey var. Amma Nüşabə xanımın təklifini doğru hesab etmirəm. Bunun üçün gərək partiyanın nizamnaməsində dəyişiklik baş versin. Düşünürəm ki, əziyyət çəkib nizamnamə dəyişmək, qurultay keçirmək lazım deyil. İsa bəy həmin postunda qalsın. Məntiqlə bu təklifin uyğunluğu yoxdur".

Səxavət Əlisoy qurultayda belə bir fikir irəli sürülsə, əleyhinə çıxacağını da qeyd etdi.

❑ **Cavanşir ABBASLI**

# Müsavatı dəyişdirmək istəyən iddialı kimdir?

## Başqanlığa namizədlər əsas şüardan danışdılar

**Müsavat Partiyasının qurultayına bir aydan da az qalıb. Partiya başqanlığına namizədliyini rəsmi şəkildə hələlik bir nəfər - Tural Abbaslı irəli sürsə də iddiaçıların sayının 4 olduğu məlumdur. Ortaya əlavə iddiaçılar çıxmayacağı halda Müsavat başqanı olmaq uğrunda mübarizə Arif Hacılı, Qubad İbadoğlu, Tural Abbaslı və Səxavət Əlisoy arasında gedəcək.**

İddiaçıların seçki kampaniyasında hansı şüarla çıxış edəcəyini onların özündən soruşduq. Başqanlığa iddialı Arif Hacılı hələ ki, şüar və təbliğatla bağlı konkret nəsə demək fikrində deyil. Səbəbini isə hələ başqanlığa namizədliyini rəsmi qaydada irəli sürməməsi ilə əsaslandırdı.

Qubad İbadoğlu da təbliğat kampaniyasında seçki şüarını namizədliyini rəsmən irəli sürdükdən sonra açıqlayacaq.

Səxavət Əlisoy isə namizədliyini hələ rəsmi şəkildə irəli sürməsə də seçki şüarının necə olduğunu açıqladı: "Seçki kampaniyasında əsas şüarım "Dəyişmək zamanıdır - yenilənmiş Müsavat" olacaq. Başqan seçiləcəyim halda isə başqanlıq fəaliyyəti ilə bağlı proqramım, platformam var. Namizədliyimi rəsmən irəli sürdükdən və qeydə alındıqdan sonra media üçün açıqlayacağam".

Tural Abbaslı da seçki şüarını açıqladı: "Əsas şüarımız partiyanın xalqa açıq olmasını nəzərdə tutacaq. Şüarımız "Xalqın partiyası - Müsavat", digər şüarımız "Yeniləşmək" olacaq".

Seçki kampaniyasına start verilən gün namizədliyini irəli sürən və qeydiyyata alınan T.Abbaslı artıq təbliğat kampaniyasına da başlayıb: "Əvvəla, bizdə parlament, prezident, yaxud bələdiyyə seçkiləri keçirilmir. Əsas təbliğat artıq seçilmiş qurultay nümayəndələri arasında gedir. Qurultaya 600-ə yaxın nümayəndə seçilib. Təbii ki, hər biri ilə ünsiyyətdə olmağa çalışırıq və çalışacağıq. Qurultay nümayəndələrimiz regionları da əhatə edir. Düzdür, istərdik ki, bütün regionlara gedək, müsavatçılarla birbaşa söhbətlər edək, fikirlərimizi bildirək. Bundan başqa, sosial şəbəkələrin verdiyi üstünlüklər də var. Burada bir fərqli nüans var. Biz təbliğatımızın təkcə qurultay nümayəndələri və müsavatçılar arasında aparılmasını yox, həm də cəmiyyətin şahidi olmasını istəyirik. Çünki Müsavat Partiyasında baş verən proseslər cəmiyyətin də maraqındadır. Müsavatda seçki yolu ilə dəyişikliyin olması dolayı yolla cəmiyyətə də təsir edəcək. Nəzərə almaq lazımdır ki, daxili seçkilərlə, qurultay vasitəsilə formalaşan rəhbərlik gələcəkdə həmin partiyanı seçkilərə aparacaq. Həmin insanları cəmiyyətimizə parlament, bələdiyyə namizədləri kimi təqdim edəcək. 2018-ci ildə prezident seçkilərinə namizəd kimi təqdim edəcək. Odur ki, biz xalqla partiya arasında yaxınlıq, doğmalıq yaratmaq istəyirik. Təbliğatımı rəqiblərimdən daha güclü aparmaq üçün qurultay üzvü olmayan müsavatçılarla da görüşürük, onların fikirlərini dinləyirik. Vaxt və fiziki imkanlarımız yol verdiyi dərəcədə bunu edəcəyik. Seçkinin bir müsbət tərəfi də odur ki, partiya daxilindəki prosesləri analiz edirsən, sanki yenidən nəyisə kəşf edirsən, regionlara çıxırsan, regionların problemlərini üzə çıxarırsan".

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 218 (5927) 1 sentyabr 2014

**"Baxış bucağı"**

**Növbəti gəlişində yenə də eyni ünvanda - "Nizami" kinoteatrının yaxınlığındakı kafenin qarşısında görüşdük. Ömrünün ixtiyar çağında Türkiyədə yaşayıb-çalışmağa məcbur olan dəyərli ziyalımız Bakıya gəlişində də boş dayanmır, günün çox hissəsini kitabxanada çalışır, yeni araşdırmalar üzərində işləyir. Ancaq vətənin dərdi-səri də onu rahat buraxmır.**



# "Hakimiyyət qeyri-müəyyən vəziyyətdən çəkinir"

## **Kamil Vəli Nərimanoğlu:** "İctimai institutlar olmasa, demokratiyanın tozundan da danışmaq olmaz"

Ətrafda çalışan ustaların hay-harayı, təmir işlərinin yaratdığı səs-küyü belə ağrılar üzərində köklənmiş söhbətimizə mane ola bilmədi. İldə ən azı bir dəfə doğma məmləkəti ziyarətə gələn İstanbul Aydın Universitetinin Orta Şərq və Qafqaz Araşdırmalar Mərkəzinin müdiri, professor Kamil Vəli Nərimanoğludur müsahibimiz.

*- Professor, növbəti dəfə illər öncə "Azərbaycan bizim xeyir-şər yerimizdir" dediyiniz vətənə gəlmisiniz. Budəfəki gəlişinizdə Azərbaycanı, Bakını necə gördünüz, indi hansı ovqatdasınız?*

- Çox sağ ol ki, həmin ifadə yadından çıxmayıb. Təəssüf ki, hər gəlişimdə şər xeyirdən çox olur. Yaşıdlarım, məndən yaşlılar dünyadan gedir, tanımadığım nəsil yetişir. Daha çox siyasi məhbus, iztirabverici hadisə, hay-küy, daha çox rəng görürəm, daha çox toz uduram. Azərbaycan azan səsi eşidilməyəcək dərəcədə az olan bir məmləkətdir. Bir müsəlman ölkəsində ki, azan səsi eşidilməyə, bu ölkənin bərəkətinə, gələcəyinə, taleyinə şəxsən mən şübhə edirəm. Təbii ki, müsəlman ölkələrinin hamısı xoşbəxt deyil. Problemlər yaşayan ölkələr təəssüf ki, elə müsəlman ölkələrdir. Bunun bir səbəbi odur ki, biz Quranı həyatımızın, yaşayışımızın, yaşam tərzi olaraq qəbul etməmişik. Biz Quranı bilmirik. Quran bizə ritual kimi lazım olur, amma onu əqidəyə, həyat tərzinə çevirə bilmirik. İkinci faciəmiz - milli faciəmiz, milli özünüdərki, yəni Əli bəy Hüseynzadəni, Mirzə Cəlili, Hüseyn Cavidi, Sabiri, Əhməd Ağaoğlunu, başda Məhəmməd Əmin Rəsulzadə olmaqla dövlətə böyük dəyərləri get-gedə yadırğayırıq. Bunun son mogikanı rəhmətlik Əbülfəz Elçibəy idi. İndi onun məktəbi var. Doğrudur biri Müsavat, digəri AXCP, başqası KXCP adlanır. Amma fərqi yoxdur, bu, Elçibəy məktəbidir. Ayrı-ayrı partiyalar olsa da, onların yolu birdir - Məhəmməd Əmin Rəsulzadə-Elçibəy yolu. Hər il 16 avqustda mən çalışıram Bəxtiyar müəllimin doğum günü münasibətilə bir yazı yazım. Bu zaman bəzi şeylərin hesabatını verməyə çalışıram. Yəni nələr olmuş, nələr üzücüdür ya ümidvericidir.

*- Yəni düşüncələrinizə xoş hisslər hakim olmur...*

- Mənfi, üzücü şeylər müsbətdən qat-qat çoxdur.

*- Bu vəziyyətin hökm sürməsinin əsas səbəbini nədə görürsünüz? Məgər bu, yalnız siyasi amillərlə bağlıdır?*

- Bunun bir qismi böyük ölkələrin qurduğu oyundan Azərbaycanın çıxa bilməməsi ilə bağlıdır. İkincisi, Azərbaycandakı şərait və siyasi iqtidardır. Üçüncüsü, ya zəlzələdən, ya vəlvələdən ölkədə sosial deqradasiya, ucuzlaşma, dəyərlərin get-gedə zəifləməsidir. Məsələn, mən Xruşşov dövründə, buzların əriməsi, hərəkətlənmə dövründə yaşamışam. Durğunluq dövrünün süstlüyünü, şüarçılığını, daha sonra milli hərəkatı görmüşəm. Sonra yenə milli hərəkat dəyərlərinin getdikcə öldürülməsinin şahidi olmuşam. Yalnız mən yox. Ölkədə qalan, burdan gedən ziyalılar, xalqımız bəlkə bunu məndən də yaxşı görür. O mənada burda bir kəşf etmək istəmirəm. Amma bir insan ömründə çox paradoksal, çox qəribə və çox heyrətedici hadisələrlə zəngin olub. Sizin sualınızı gözləmədən cavab verim ki, uzaqdan vətən o qədər də gözəl görünmür. Yəni Azərbaycanın ictimai-siyasi-tarixi şərtləri yaxşı görünmür. Birinci ona görə ki, nə qədər ki, Qarabağ məsələsi həll olunmayıb, biz rahat nəfəs ala bilmərik. Torpağı 20-ci əsrdən azala-azala gələn bir dövlətin, bir millətin evinin sahəsi kiçildilirsə, get-gedə yoxluğa məhkum etməyi metr-metr yaşayırsa, bundan kədərli heç nə ola bilməz. Çünki kiçilən vətən və vətənin içindəki insandır.

*- Azərbaycana Rusiya təhlükəsini real sayırsınızmı?*

- Əlbəttə ki, real təhlükədir. Mən az-çox yeni Avrasiya nəzəriyyəsini araşdırmışam, kökünü bilirəm. Həqiqətən də yeni Avrasiya nəzəriyyəsi SSRİ-ni başqa şəkildə həyata qaytarmaq deməkdir. Yəni "bəlkə də qaytardılar" deyil, "qaytaracağıq, qaytarmalıyıq" məntiqində olan siyasi, sosial bir addımdır. Əlbəttə, Putin elə-belə adam deyil, rus kəşfiyyatının, rus "KQB"sinin, rus maliyyəsinin və rus oliqarxiyasının yetişdirdiyi mürəkkəb bir şəxsiyyətdir. Ona görə də Putin və ətrafındakılar Orta Asiya, Qafqaz respublikalarını, Moldovanı əldə etmək yolunu tutub.

*- Azərbaycan belə mürəkkəb situasiyada nə etməlidir və etdikləri yetərlidirmi?*

- Gürcüstan və Ukrayna məsələni həll edib. Baxmayaraq ki, hər ikisinin bölünmə təhlükəsi var, Ukrayna çox ağır bir prosesin içindədir. Amma onların geriyə yolu yoxdur, yeni Avrasiya adlı quruma daxil olub Putinin yanında durmaları mümkün deyil. Ermənistan isə müstəqilliyini itirib. Bu ölkə hər şeyini Rusiyaya ya satıb, ya təslim edib və quru sözdən başqa heç nəyi qalmayıb. Bir türk olaraq deyil, neytral mövqeli qonşu olaraq deyirəm, Ermənistanın iqtisadi, mədəni durumu, təhsili, elmi çox aşağı səviyyədə olan ölkələr sırasına keçməkdədir. Ermənistan üçün kifayət qədər acınacaqlı vəziyyət yaranıb, yəni onu Rusiyadan ayırmaq mümkün deyil. Azərbaycan nə ondandır, nə bundan, keçid vəziyyətində olan ölkədir, Rusiyaya yolları da qapanmayıb, Qarabağ probleminin əsas açarlarından biri Rusiyadadır. Ona görə də bu problemi Azərbaycan Rusiyasız həll edə bilmir. Başqa tərəfdən, Rusiyada yaşayan azərbaycanlılar ayrı bir təzyiq rıçağıdır, Dağıstan, çeçenlər, İran məsələsi var. Ona görə də Azərbaycan Rusiyaya sərt münasibət göstərmək imkanlarından məhrumdur. Bizdə balans siyasəti deyirlər. Amma bu, balans deyil. Gərək balans sabitlik olsun. Bizdə o sabitlik hər gün pozula bilər.

*- Kamil müəllim, siz həm də partiya rəhbərliyində təmsil olunursunuz, AXCP sədrinin müavinisiniz. Ölkə daxilində baş verənləri nə ilə izah edərdiniz?*

- Mən çalışıram ki, ziyalı olduğum üçün siyasidən daha çox ictimai danışım. Amma istər-istəməz siyasi nöqtələr də ortaya çıxır. Çünki siyasi məqamlar var ki, onu heç vaxt ikinci dərəcəli saymaq olmaz. QHT-lərə qarşı amansız müharibə, Leyla xanımın, həyat yoldaşının, başqalarının həbsi, ayrı-ayrı şəxslərə qarşı hücumlar, siyasi məhbusların sayının artması, mediaya qarşı hücumlar, medianın qəti şəkildə ələ alınması və idarə olunması cəhdi, bunlar hamısı totalitarizmin ifrat təzahürləridir. Çünki bu ictimai institutlar olmasa, demokratiyanın heç tozundan da danışmaq olmaz. QHT-lər, xalq diplomatiyası, demokratik institutlar, siyasi partiyalar, azad mətbuat yoxdursa, demək o ölkədə demokratiya da yoxdur.



**"Hər kəsi anası qəhrəman kimi doğmur, onların düşdüyü vəziyyəti anlayışla qəbul etməliyik"**

*- Sizcə, hökumət niyə bu addımlara gedir, bəlkə onda hansısa təhlükə ilə bağlı informasiya var?*

- Məncə, hakimiyyət qeyri-müəyyən bir vəziyyətdən çəkinir. Qeyri-müəyyən vəziyyəti də Rusiya yarada bilər - Gömrük İttifaqına, sonra da Avrasiya Birliyinə girməlisən tələbi ilə. Bu, Azərbaycanın müstəqilliyinin sonu olacaq. 1920-ci ildə rus ordusu gəldi, müstəqilliyimizi bitirdi, dövlətimizi alt-üst etdi, rus dövlətinin parçası olan respublika elan etdi. Amma bu dəfə müstəqilliyimizin postmodern bitməsi baş verə bilər. Yəni Azərbaycan guya müstəqil olacaq. Amma Gömrük İttifaqı odur ki, sənin bütün maliyyə kanalların, xarici dünyaya çıxan damarlar başqa bir dövlətin əlində olacaq. Açıq deyim, mən bu hakimiyyəti qəbul etməyənlərdən biriyəm. Amma "İlham Əliyev Azərbaycanın müstəqilliyini istəmir" deməyə də dilim gəlmir. İstəyir ki, Azərbaycan müstəqil olsun, mən onu bilirəm. Müstəqilliyi istəmək məsələsi ya özünün, ya ailənin mənafeyi, ya piramidanın zirvəsində, ya da korrupsiya aparatının mərkəzində olmaq üçündür kimi də şərh oluna bilər. Amma bir insan kimi də o, ölkədə olub yaşamaq, prezidentliyinə davam etmək istəyirsə, bunun üçün İlham Əliyev real addımlar atmalıdır.

*- Konkretləşdirsək, hansı addımları?*

- Demokratik təşəbbüsləri, azadlıqları, xırdalasaq, mətbuatın, QHT-lərin, şəxslərin azad fikrini boğmamalıdır. Tutaq ki, biz burda oturub çay içirik, yüz bəhanə ilə bizi tuta bilərlər. Deyərlər ki, burda əyri oturmusunuz, o biri binadakı tikintiyə mane olursunuz, burdan keçən adama baxıb nəsə dediniz, onun şəxsiyyətinə toxundunuz, yaxud yuxarıdan başımıza "təsadüfən" bir şey düşə bilər. Hər oyunu qura bilərlər. Çünki buranın yiyəsi bunlardır, biz də qonağıq.

*- Bakıda olduğunuz zaman şəxsən özünüzə yönəlik bir təhlükə hiss etmirsiniz ki?*

- Açığı, yox. Bəziləri var özündən qəhrəman düzəltmək istəyir. Mənə qarşı gömrükdən üzü bəri hörmət var. Olan narahatçılıqlar mənə qarşı deyil, sistemdə olan narahatçılıqlardır. Lovğalıq olmasın, ölkədə elə ailə yoxdur ki, orda mənim tələbəm olmasın. 30 il dərs demişəm, yazı-pozumla, fəaliyyətimlə də tanıyanlar çoxdur. Düzdür, zaman keçdikcə bunlar azalır. Amma əsas missiyamız vətənimizə xidmət etməkdir. Türkiyə də mənim vətənimdir, onu sevə-sevə işləyirəm. Lakin Azərbaycanın yeri başqadır. Mənim Azərbaycana borcum var, özümü borclu bilirəm. Çünki bu torpaq mənə ev, yaşam, ailə verib, bu torpağın insanları məni insan eləyib, ovaxtkı universitet, müəllimlərin, bitirdiyim orta məktəb, yaşadığım mühit, ozamanki yaradıcılıq ittifaqları. Biz kənddən gəlib burda söz sahibi olmuşuq, siyasət, elm, ziyalılıq yolu tutmuşuq, mən bunu heç vaxt unuda bilmərəm, buna haqqım yoxdur. Millətin haqqını millətə qaytarmaq lazımdır. Biz də gücümüz çatan qədər yazmaqla, ədaləti qorumaqla, sözümüzü deməklə, haqsızlığa qarşı çıxmaqla bu vəziyyətin qarşısını ala bilərik. Mən Azərbaycanda yaşayan həmkarlarımın durumunu ağrı ilə dəyərləndirirəm. Universitetdə işləyən, başqa yerdə çalışan adam ailə-uşağına, minimum imkanlara görə susmağa, ayrı-ayrı məqamlarda boyun əyməyə, etinasız qalmağa məcbur olur. Bunu başa düşmək lazımdır, çünki doğrudan da vəziyyət ağırdır. Hər kəsi anası qəhrəman kimi doğmur, onların düşdüyü vəziyyəti anlayışla qəbul etməliyik.

*- Müxalifətin durumunu necə dəyərləndirirsiniz? Mövcud durumdan çıxış yolu nədədir?*

- İndi Azərbaycanın siyasətində bir az assimmetrik dualizm yaşanmaqdadır. Yəni hər şey qaydasında, ahəngində deyil. Artıq siyasətin ritmi, ahəngi dəyişib, o da postmodern olub. İndi siyasət ayrı-ayrı yerlərdə siyasi məhbusların sayı ilə, yaxud bir adama, bir partiyaya qarşı ən sərt tədbirlərlə ölçülür. Yenə də hesab edirəm ki, Rəsulzadə-Elçibəy yolu düzgün yoldur. Ola bilər ki, İsa Qəmbər Müsavat Partiyası başqanlığından getsin. Amma Strateji Mərkəz yaradılıb, çox əhəmiyyətli addımdır. Çünki bu qurum azca ağırlığın yerini dəyişməklə böyük manevr edəcək və o sahədə inşallah AXCP, KXCP və başqa bu mövqedə olan ziyalılar, Cəmil Həsənli ilə bərabər çox böyük işlər görə biləcək. Deyə bilərsiniz ki, bu birlik heç bir şəkildə mövcud deyil. Amma həyatın elə şərtləri var ki, adamları bir, bütöv olmağa məcbur edir. Biz nəinki Azərbaycanda, Təbrizdə, İranda, Türkiyədəki qüvvələrin siyasi birliyindən danışmalıyıq. Türkiyədə milli, dövlət məsələlərində partiya məsələsi rol oynamır. Təəssüf ki, Azərbaycanda siyasi mədəniyyət o qədər də oturuşmayıb. Amma Türkiyədə nə qədər kəskin tənqid etsələr də, elə dövlət atributları, dövlət strategiyası var ki, heç kəs onu pozmağa cəsarət etməz və hər kəs ona əməl etməlidir. Azərbaycanda da bu ənənənin formalaşmasına ciddi ehtiyac var. Elə hesab edirəm ki, yenə də ümidlər yox olmayıb. Azərbaycanda yenə də hər şey 360 dərəcə dəyişə bilər...

**❑ Elşad PAŞASOY**
**FOTO: "YM"**

YENİ MÜSAVAT
N 218 (5927) 1 sentyabr 2014



# Təmiz artistlik

**Zamin HACI**
zaminhaci@mail.ru

**Respublikamızda incəsənətə, sənətkarlara yüksək dövlət qayğısının nəticəsində hər gün yeni-yeni xalq artistlərimiz yetişməkdədir. Bunlardan biri də Binəqədi rayon icra hakimiyyətinin başçısı Xaləddin İsgəndərov yoldaşdır. Doğrudur, Xaləddin müəllim hələ bu adı almamışdır, ancaq xalqımız ürəyində bu adı ona vermişdir. Əsas olan da budur. Ona qalsa Hacıbala müəllim də vaxtilə Suraxanıda qeyri-rəsmi xalq artisti idi, hər yerə keçi və uçan boşqab heykəlləri düzmüşdü, prezidentin gözünə girməklə nəhayət uca mərtəbəyə qalxdı. Xaləddin müəllim hələlik Binəqədiyə heykəllər düzmür, ancaq ondan da vacib işlər görür.**

Misal üçün, bir uydurma qaynar xətt telefonu elan etmişdir, həmin nömrəyə zəng edəndə isə yalan olmasın, Barak Obamadan Vladimir Putinə qədər hər kəslə danışmaq mümkündür, lakin icra hakimiyyətindən kimsəyə düşə bilməzsən. Bəs nömrə nə üçün lazımdır? Yazdım da bə: Putinə zəng eləmək üçün.

Binəqədi sakinlərinin Putinə deyiləsi sözləri isə “en” qədərdir. Xaləddin müəllim rayona gələndən ərazi kənd toyu üçün bəzədilən toy mağarına oxşayır: az qala hər iki metrdən bir pambıqla “Xoşbəxt olasınız” yazıb vurublar. Yollar isə dağılıb gedir. Binəqədi sakinləri evə, işə xəndəkləri aşmaqla, yarğanlardan keçməklə, uçurumlara varmaqla gedirlər. Hər gün neçə saat tıxacda, tozun-torpağın içində eşələnirlər.

Toz-torpaq demişkən, Xaləddin müəllim keçən yay bütün işçilərinə məktəblilər kimi uniforma geyindirib işə bantiklə gəlməyi tapşırmışdı, bu yayın günvurması isə daha mırt nəticələr verdi: Avropa oyunları münasibətiylə “Təmiz Binəqədi” aksiyası elan edildi. İndi bu gülməli aksiya Xaləddin müəllimin əsas məşğuliyyətidir. Dövlətçilik-zad da yadından çıxıb, ancaq zibil atmağa başı qarışıb. Zibil isə qurtarmır, namərd Binəqədi sakinləri gecələr qarpız yeyib qabığını küçəyə atırlar. Ayran içib, dondurma yeyib qabını yerə tökürlər. İməciliklər, aksiyaya mollaları qoşmaq (gülməyin, icra hakimiyyətində həqiqətən belə görüş keçirilib, mollalara göstəriş verilib ki, yas yerlərində camaata “Təmiz Binəqədi” layihəsindən danışsınlar) da xeyir eləmir.

Bu layihə çərçivəsində icra hakimiyyəti rayon sakinləri arasında hətta... nərd və dama yarışı da təşkil eləmişdi. Ancaq maraqlıdır ki, əhali yarışı boykot elədi, baxmayaraq bütün günü özləri nərd atırlar. Görünür icra hakiminin nərdini oynamaq “zapadlo” sayılmışdı. Nəticədə yarışa məktəb direktorlarının zorla göndərdiyi bir-iki müəllimdən başqa kimsə qoşulmamışdı. Eyni zamanda, Avropa oyunlarında nərd yarışının da keçiriləcəyini ancaq Xaləddin müəllim zənn edə bilərdi. İnsafən, rayonda xeyli əraziyə ot əkib, süni dağ düzəldib. Bir tütəkdə “Bayatı” çalmağı da öyrənsə əsl dağ adamıdır, çobandır. Rayon sakinləri buna görə Xaləddin müəllimi sevirlər.

Başçının başqa bir məzəli hərəkəti rayonda xüsusi zibil qabları qoymasıdır. Alabəzək, əsl icra hakimi stilində qablardır: sarı, qırmızı, yaşıl, göy... Göy qurşağıdır sanki. Deyirsən indicə zibilin içindən yağmur yağacaq, akasyalar islanacaq. Romantizm Binəqədidə zibil qabı şəklində zühur edib. Amma bu spektr ayrımı təsadüfi deyil, Xaləddin müəllim hər bir qabın üstünə təyinatını da yazıb: “Kağız”, “Plastik qablar”, “Çörək”, “Əlvan metallar”, “Kitab-dəftər”, “Qızıl-gümüş” və sairə. (Axırıncını zarafata yazdım, birdən rayona hücum edərsiniz).

Əgər bu zibillər hamısı axırda eyni zibil maşınına doldurulursa, bu artistliyin mənası nədir? Üstəlik, Bakı yaxınlığında fransızların layihəsi ilə zibil emalı zavodu tikilib, onun da yanında ayrıca zibil çeşidləmə zavodu var. Zibillər onsuz da orda çeşidlənir, ayrılır.

Sonda Xaləddin müəllimə onu da çatdırmaq lazımdır ki, Avropa oyunları onsuz da Binəqədi ərazisində keçirilməyəcək, çox özünü həlak eləməsin. Hansısa turistin, idmançının azıb Biləcəriyə gəlib çıxması ehtimalı da sıfırdan bir az çox ola, olmaya...

Yazıda bir az yer qalıb, ondan istifadə edərək vergilər naziri Fazil müəllimə də atəşin salamlar göndəririk.

# Qubad İbadoğlu böyük sirlərin anonsunu verdi

# “14 milyon dollara Bakıda QHT inqilabı” - Deşifrə?

## Müsavat başqanlığına iddiaçı Qubad İbadoğlu: “Bir məhkəmə qərarı ilə bir neçə nəfər həbs oluna bilər”; “çox geniş miqyaslı istintaq aparılır...”

**Müsavat Divanının keçmiş üzvü, bu partiyanın başqanı postuna iddiaçı, İqtisadi Tədqiqatlar Mərkəzinin rəhbəri Qubad İbadoğlu avqustun 29-da “Yeni Müsavat” qəzetinin qonağı olub. Onunla müsahibənin ikinci, sonuncu hissəsini təqdim edirik.**

*(Əvvəli ötən sayımızda)*

***- Amma bizə də bəzi məlumatlar daxil olur. Məsələn, doğrudurmu ki, orda (istintaqda) inqilab cəhdindən söhbət gedir? Guya QHT-çilər hansısa fondlardan pul alaraq hakimiyyəti dəyişmək, ölkədə inqilab etmək istəyirlər?***

- Orada əsas ssenari vaxtı ilə haqqin.az saytında yazılanlardan fərqlənmir.

***- Haqqin. az? Hansı yazıdan söhbət gedir?***

- Aylar öncə dərc olunan bir yazıdan... Orda çox müxtəlif və şişirdilmiş rəqəmlər var idi.

***- Yazıda Sizə aid nəsə var idi?***

- Bəli, əsas hədəflərdən biri mən idim. Yazıda qeyd olunmuşdu ki, “ABŞ-ın Azərbaycanda inqilab etmək və Azərbaycanı Ukraynaya çevirmək niyyəti var. Bununla bağlı ölkədəki vətəndaş cəmiyyəti institutlarına böyük miqdarda vəsait ayrılıb”. Orada maliyyə ayrılan QHT rəhbərlərindən biri kimi mənim də adım çəkilmişdi. Bunun da əsas səbəblərindən biri budur ki, son illər mən Avropa Tərəfdaşlıq Proqramı çərçivəsində Avropa institutları ilə sıx əlaqədəyəm və kursumu müəyyənləşdirib, Azərbaycanın Avropaya inteqrasiyasına dəstək vermək üçün çalışıram. Düşünürdüm ki, mənim bu istiqamətdə fəaliyyətim Azərbaycanın gələcək strategiyasının seçimi üçün bir töhfə ola bilər. Amma görünür ki, vətəndaş cəmiyyəti institutlarını bu yönə çəkməklə onları çirkaba batırmaq, olmayan şeyləri onların adına yazmaq xətti var. Amma deyim ki, ölkədə heç bir inqilabdan söhbət gedə bilməz. Biz heç 10 QHT rəhbərini bir yerə yığa bilmirik, belə olanda inqilabı kiminlə edə bilərik ki? Bu, tamam cəfəngiyatdır. Mənim özüm də xaraktercə inqilabi fikirlərdən uzaq adamam. Qırğızıstanda olanda onun fəsadlarını da gördüm, hətta 5 ildə 2 dəfə inqilab edənlər belə onun təkrarlanmasını arzulamırlar. Yazılanlara gəlincə, o, bir neçə istiqamətdə yanlışlığı ilə seçilir. Birincisi, o qədər külli miqdarda vəsait heç vaxt Azərbaycanda vətəndaş cəmiyyəti institutuna ayrılmayıb...

***- Dəqiqləşdirək, nə qədər miqdarda vəsaitdən söhbət gedirdi?***

- 14 milyon dollar. Guya ölkədə inqilab etmək üçün vətəndaş cəmiyyəti institutlarına bu qədər məbləğdə vəsait ayrılıb.

***- QHT-lər inqilab edəcəkmiş? Yaxşı, istintaqa görə, o vəsaitdən sizə nə qədər düşür?***

- (gülərək) Elə bir bölüşdürmə aparmayıblar. Düzü, o işdə adı olan adamlar...

***- Üzr istəyirəm, bir şeyi yerindəcə dəqiqləşdirək. “Orda adı olan adamlar” dediyiniz adamlar indi hardadır?***

- Bir çoxu həbsdə.

***- Həbsdə olmayanlar varmı?***

- Var.

***- Kimlərdir?***

- Biri mənəm... Başqaları barədə danışmaq istəmirəm. Elə çox deyilik. Əslində bir qrup QHT rəhbəri hədəfə çıxarılıb.

***- Siz təsadüfənmi haqqin.az-da yayımlanan məqalə ilə paralel apardınız? Yoxsa istintaq materiallarının içində bu məqalə var idimi?***

- İndi düşünürəm ki, bu yazılar elə əvvəlcədən bu məqsədlər üçün yazılıb və sonradan ondan bizə qarşı istifadə olunur.

***- Əgər belə məqsədli bir plan varsa, deməli özünüzü də ən pis varianta - azadlığınızın məhdudlaşdırılmasına hazırlamısınız?***

- Mən bu ilin daha çox hissəsini Qırğızıstanda olmuşam, orda hökumətlə işləmişəm. Son dəfə avqustun 10-da 20 günlük işimi yekunlaşdırandan sonra vətənə qayıtdım. Qayıtmazdan az əvvəl bir status yazmışdım ki, mən Azərbaycana gəlirəm. Hər şeyə də hazıram...

***- Bəs elədirsə, niyə Azərbaycana qayıtdız? Biz bilən, hazırda QHT sektoruna aid xeyli adam ölkədən çıxıb.***

- Əvvəla, mən başqa ölkədə işləsəm də, Azərbaycanda yaşamağa üstünlük verirəm. Mənim buranı tərk etmək fikrim yoxdur. Həm siyasi fəaliyyətim, həm də vətəndaş cəmiyyəti sahəsində mübarizəmi davam etdirmək fikrindəyəm. Hesab edirəm ki, biz demokratik yolla mövcud problemləri həll edə bilərik. Eyni zamanda bu arada bu həm də mənəvi məsələ idi. Əgər bizim dostlarımız, həmkarlarımız bu gün məhbəsə atılırsa, özümü kənarda heç vaxt rahat hiss edə bilməzdim. Xüsusən də İntiqam Əliyevin həbsindən çox məyus oldum. Çünki onun peşəkarlığına, dürüstlüyünə, humanistliyinə hər zaman yüksək qiymət vermişəm. Amma təəssüflər olsun ki, təzyiqlər artdıqca vətəndaş cəmiyyəti institutu nümayəndələri geri çəkilir, hətta bəziləri ölkəni tərk edirlər. Bu arada qısa bir fasilə də baş verdi. Bəziləri arxayınlaşmışdı ki, proses başa çatıb. Amma son iki gündə baş verənlər göstərdi ki, proses başa çatmayıb. Proses davam edir, hələ qarşıda məhkəmələr də olacaq. Məhkəmələr varsa, cəza da olacaq. Buna hazır olmaq lazımdır ki, bir məhkəmə qərarı ilə bir neçə nəfərin də həbsi baş verə bilər. Çünki çox geniş miqyaslı istintaq aparılır. Mən həm də ona görə ölkəyə qayıtdım ki, öz işimdən, fəaliyyətimdən, peşəkarlığımdan arxayınam. Hər hansı yoxlama, dəqiqləşdirmə zamanı da gördüyümüz işlərin şəffaf hesabatını verə bilərik. Amma hamımız bilirik ki, bu ölkədə nə qanunun aliliyinə hörmət, nə də ədalətli məhkəmə sistemi yoxdur... Ona görə də buna o qədər də güvənmirəm. Mənim indiyə qədərki fəaliyyətimdə isə ən böyük prinsipiallığım şəffaflıq, hesabatlılıqla bağlı olub. Özüm ən çox vətəndaş cəmiyyəti sektorunda hökumətdən şəffaflıq tələb edən QHT-yə rəhbərlik etmişəm. Ona görə ki, bütün fəaliyyətimiz boyu həmişə çalışmışıq ki, özümüz şəffaf və hesabatlı olaq ki, hökumətdən də onu tələb etməyə haqqımız olsun.

***- Qubad bəy, sizin işinizdə də “erməni məsələsi” varmı?***

- Xeyr, bizim işimiz o işdən tamamilə ayrıdır. Mən heç vaxt Ermənistanda olmamışam, dəfələrlə Ermənistana tədbirlərə dəvətlər olub, iştirakdan imtina etmişəm.

***- Niyə?***

- Baxmayaraq ki, mən kifayət qədər səbirli və təmkinli adamam. Bilirsiniz ki, doğulduğum rayon düşmən işğalı altındadır. Həmişə düşünürəm ki, ermənilərlə bəzi müzakirələri müəyyən mərhələyə qədər aparmaq olar, amma onların riya, yalan dolu mövqeyinin qarşılığında səbrimi cilovlaya bilmirəm...

***- Hər halda, indi belə demək olarmı ki, Azərbaycanda geniş ictimaiyyətin xəbəri olmadan Qərb və Amerika əleyhinə istintaq orqanları böyük bir proses aparırlar?***

- O proses çoxdan gedir. Bu, birbaşa Qərblə əməkdaşlıqda fəal olan və bu prosesdə iştirak edənlərə qarşıdır. Çünki biz əsasən Qərb yönlü beynəlxalq donorlarla işləmişik və əsas tərəfdaşlarımız Avropa və Amerikada fəaliyyət göstərən təşkilatlar olub. Hazırkı proses yalnız onların əleyhinə deyil. Həm də onlarla əməkdaşlıq edən təşkilatlara qarşıdır. Məqsəd bu əlaqələrə son qoymaq və bu prosesdə iştirak edənləri sıradan çıxarmaqdır. Ola bilsin ki, bir neçə aydan sonra yeni bir situasiya yaradılsın. Həmin situasiyada necə ki, hakimiyyətin müəyyən qəzetləri, demokratik institutları var, eləcə də hakimiyyətyönlü QHT-ləri də olsun. Onsuz da bu günə qədər beləlləri var idi, bundan sonra da həmin proses daha geniş miqyasda davam edə bilər. Burda başlıca məqsəd ölkəyə məhz Qərbin proqramları ilə daxil olan xarici maliyyənin qarşısını almaqdır.

***- Qubad bəy, sanki QHT-lər olaraq müdafiəsiz qalmısız. Görüntüyə görə, nə cəmiyyət, nə demokratik təsisatlar sizi müdafiə edir, nə də Qərb ölkələri və oradakı donorlar... Heç olmasa, biz bilmədiyimiz bir nüans varmı ki, bu söylədiyimizin əksini ortaya qoysun?***

- Məsələnin qoyuluşu ilə tamamilə razıyam. Əslində bizim bir institut olaraq özümüzü təbliğat fəaliyyətimiz zəif olub. Təəssüf, bu gün ciddi olaraq müxalifətdən və mətbuatdan dəstək ala bilmirik. Əksinə, QHT-lər əleyhinə mövqelər səsləndirənlər və yazılar yazanlar var.

***- Hətta “14 milyon dollar olmasa da, yəqin, 1,4 milyon dollar söhbəti var” deyə düşünənlər də yox deyil. Nəyə görəsə sevmirlər QHT-ləri.***

- Hakimiyyət də bunu gözəl bilirdi. Ona görə də təbliğatı o istiqamətdə qurdular və bilirdilər ki, sadə və məlumatsız insanlar 14 milyona olmasa da, hansısa vəsaitin ortada olmasına inanacaq. Fikirləşəcəklər ki, od olmasa, tüstü də çıxmaz. Müəyyən mənada da buna nail oldular və QHT-lərin reputasiyası korlandı. O ki qaldı, donorların dəstəyinə, aktiv olmasa da, dəstək hiss olunur. Müəyyən müzakirələr olur, bizi də müzakirələrə cəlb edirlər, amma nəticə yoxdur. Çünki onların proseslərə təsir imkanları sanki bitib, çünki Azərbaycan hakimiyyəti onları da eşitmir. Əvvəllər bu və ya digər mövzularda hakimiyyətin bu təşkilatlarla məsləhətləşmələri olurdu. Son zamanlar onlar da belə müzakirələrə cəlb edilmirlər.

Mən istintaqa çağırılmaqdan narahat deyiləm. Amma bayaq da dediyim kimi, heç bir xəbərdarlıq edilmədən şəxsi və təşkilatın bank hesablarına həbs qoyulması ondan xəbər verir ki, bu iş ancaq istintaqda şahid qismində ifadə verməklə məhdudlaşmayacaq. Başqa təsir və təzyiq vasitələri də mümkündür. İndiki halda biz bu istiqamətdə nə qədər müdafiəsiz qalsaq da, özümüzü müdafiə etmək və ictimai dəstək qazanmaq üçün lazım olan addımları atacağıq.

***- Düşünürsüzmü ki, Müsavatdakı opponentləriniz “Hakimiyyət qəsdən bu situasiyanı yaradır ki, Qubad İbadoğlunu başqanlığa namizəd kimi reklam etsin”, - deyəcəklər. Bu cür iddiaya hazırsınızmi?***

- Düşünmürəm. Bunun əksini düşünürəm. Görsənən odur ki, hətta mənim başqanlıqla bağlı iddiamı gerçəkləşdirməyin qarşısını almaq üçün təzyiqlər var. Amma yenə də belə açıqlama vermək, düşünmək onların haqqıdır. Mən opponentlərimə hörmətlə yanaşıram. Düşünürəm ki, situasiyanı olduğu kimi dəyərləndirib, düzgün çıxışlar edəcəklər. Əgər mənim opponentlərimdən biri ilə bağlı belə situasiya baş versəydi, düşünərdim ki, hakimiyyət onun namizədliyinin gerçəkləşməsinə əngəl yaradır.

***- Qubad bəy, hakimiyyət nəyə görə sizin başqanlığa namizədliyinizə əngəl yaratsın ki? Məntiq nədir burda? Siz və ya bir qeyrisinin namizəd olmasının hakimiyyət üçün fərqi nədir? Çünki girişdə bu təzyiqləri ümumi QHT işinin bir hissəsi adlandırdız, indi isə namizədliklə bağlı təzyiq kimi qiymətləndirirsiz...***

- Çünki bu proseslər üst-üstə düşür və ona görə də biz belə əlaqə yaradırıq. Namizədlik kampaniyasına start verilən günü mən baş prokurorluğa çağılıram, ondan 1 gün əvvəl Bakı şəhərinin iki məhkəməsi mənim bank hesablarıma həbs qoyur, mənim təmsil etdiyim təşkilatın Ədliyyə Nazirliyinə olan müraciətinə imtina cavabı yazılır. Bunları nə ilə izah etmək olar; açıq və üst-üstə düşən məqamlar olduğundan onun namizədliklə bağlı olduğunu iddia etmək olar. Nədən belə fikirləşirəm, hakimiyyət mənim iddiamı gerçəkləşdirməyimə mane olur? Bilirsiniz ki, mən ziyaliyam, siyasətə də elmdən gəlmişəm, son illərdəki fəaliyyətimdə ən böyük qazanclarımdan biri də ictimai nüfuzum olub. Eyni zamanda, təmsil etdiyim nəsil də elə nəsildir ki, hakimiyyətin mənə qarşı opponentlik etməsinə çətinlik yaradır. Çünki mən Cəbhə hakimiyyətində işləməmişəm ki, mənə irad tutsunlar ki, sizin hakimiyyətinizdə belə olub, elə olub. Baxmayaraq ki, o iradların heç biri ilə razı olmamışam. Uzun illər həm partiya daxilində və həm də müxalifət düşərgəsində davam edən konfliktlərdə tərəf olmamışam. Təmsil etdiyim orta nəsil hazırkı gəncliklə köhnə siyasi elita arasında körpü funksiyasını yerinə yetirə bilər. Mənim beynəlxalq səviyyədəki əlaqələrim də hakimiyyətin hər zaman diqqətində olub...

***- Yəni belə anlaşılır ki, hakimiyyət bayaq dediyiniz “QHT inqilabı” ssenarisinə görə Sizi hədəfə götürüb... Hansı ki, o ssenariyə görə, Qərb Azərbaycanda QHT-lərin, vətəndaş cəmiyyətinın dominantlığı ilə inqilab etmək istəyir; Sizi isə o inqilab resursunun, Ana Müxalifət partiyasının başına keçirmək istəyir? Yaxud özünüz keçmək istəyirsiniz və bu halda, kod adı “QHT inqilabı” olan plan böyük bir təşkilat qazanır. Belə bir versiyanın da təsiri ola bilərmi Sizə münasibət baxımından?***

- Əgər yazılanlar təsdiqini tapsa idi və ortalıqda faktlar olsa idi, bu plan real görsənə bilərdi. Amma bizdə nə inqilab üçün resurs var, nə də ona istək. Bu yazılanlar hamısı uydurmadır.

Amma hakimiyyət təmsilçilərinin, iqtidar media orqanlarının Müsavat Partiyası sədrliyinə seçkilərə diqqəti də onu göstərir ki, onları kimin başqan olması ciddi maraqlandırır.

***- Kənardan görünən başqa bir mənzərəni də Sizə deyim. İnsanlar düşünür ki, bu adamın nə işi var Müsavat başqanlığına namizədlikdə? İşi-gücü, qrantı, dolanışığı var...***

- Hazırda Müsavat Partiyasında bir keçid dövrü yaşanır. Bunun ağrılı tərəfləri də ola bilər. Mən bir müsavatçı, 18 ilimi bu partiyaya həsr edən adam kimi tərəfdarlarım, partiya yoldaşlarım qarşısında özümü məsuliyyət altında hiss edirəm. Dəfələrlə müraciətlər olub ki, bu vəziyyətdə siz və sizin kimilərin kənara çəkilməsi doğru deyil. Deyilib ki, gələcəkdə biz sizdən hesab soruşacağıq ki, nə üçün partiyada keçid dövrünün olduğunu bildiyiniz halda kənara çəkildiz, məsuliyyəti paylaşmaq istəmədiz. Digər tərəfdən də Qırğızıstanda olanda da başa düşdüm ki, mənim iqtisadi biliklərim öz töhfəsini yalnız demokratik quruluşlu ölkədə verə bilər. Ona görə də ondan qırğızlar bəhrələnirlər, bizlər yox. Düşündüm ki, Azərbaycanda əsas işimi demokratiya və azadlıqlar uğrunda fəaliyyətə həsr edim. Ona görə də qərara gəldim ki, Müsavat Pariyasında və gənc müsavatçılarla birgə ölkədə sivil qaydada, yeniləşmiş formatda siyasi mübarizəyə qatılım. O mənada məndə məsuliyyət hissinin artdığını hiss etdim. Doğru dediniz ki, iş-güc mənasında mənim fəaliyyətim zəngin olub. Beynəlxalq səviyyədə, ölkədə işlərim olub. İndiki zamanda bütün bunlardan imtina edib, Müsavat Partiyasında başqanlığa iddia etmək o qədər asan məsələ deyil. Müəyyən müzakirələr olub, tərəddüdlər də özünü göstərib. Amma indiki proseslərin fonunda mən görürəm ki, düzgün qərar vermişəm. Başqanlıq iddiam hələ reallaşmadan mənə qarşı belə təzyiq və təsirlər varsa, mənimçün bu prosesdə iştirak etmək daha maraqlıdır. Mən işimi davam etdirmək niyyətindəyəm. Təbii ki, bu, məndən asılı deyil. Təzyiqlər o səviyyəyə qədər arta bilər ki, mən bu işimi yarıda kəsim.

***- Qubad bəy, siz başqan olacağınız təqdirdə QHT sektorundan gedəcəyinizi demişdiz. Bu halda hakimiyyətin o qorxduğu ssenari -pulların QHT rəhbəri olaraq sizə inqilab üçün çatdırılması da mümkün deyil axı...***

- Hanı o pullar, axı onlar yoxdur, uydurmadır, ola da bilməz. Heç bir donor QHT-yə bu məqsədlə yardım edə də bilməz, bu mümkün deyil. Bir də ki, mən ictimai fəaliyyətim zamanı QHT fəaliyyəti ilə siyasi fəaliyyət arasında sərhədi bilmişəm və ona həmişə əməl etmişəm. Bəli, mən QHT sektorundan gedəcəyimi açıqlamışam. Amma təhlükələr davam edir, bu gün QHT-yə, sabah müxalifət partiyasına, sonra mediaya qarşı ola bilər...

***- (zarafatla) Yox, siyasi partiyalara təzyiq olub, mediaya da olub. İndi sıra sizdədir...***

- Bizi bitirəndən sonra, təhlükə təzədən bir də dövrə vura bilər.

***- Qubad bəy, başqanlıq şansınız nə qədərdir? Əgər istintaq sizə mane olmasa, təzyiqlər davam etməsə... Partiya rəhbərliyində, strukturlarda dəstəyiniz varmı?***

- İndiki halda özümü kifayət qədər şanslı hesab edirəm. Bunu əsaslandıran xeyli müşahidələrim və arqumentlərim var. Çünki partiya elitasında, rayon strukturlarında məni dəstəkləyənlər çoxdur. Hesab edirəm ki, kifayət qədər elektoral dəstəyim var. Onu artırmaq üçün fəaliyyət göstərmək lazımdır. Amma təbliğat-təşviqat dönəmində əsas enerjim istintaqa və məhkəmələrə sərf olunacaqsa, müxtəlif sanksiyalara məruz qalacağamsa, bu, təbii ki, işimizə mənfi təsir göstəcək. Eyni zamanda, şansım olmasa idi, heç bu təzyiqlər də olmazdı.

**❑ Söhbəti yazdı:**
**Sevinc TELMANQIZI**








**“Mən ona görə ölkəyə qayıtdım ki, öz işimdən, fəaliyyətimdən, peşəkarlığımdan arxayınam”**

# Çörəklə imtaha çəkilənlər - bizimkilər



**Hüseynbala SƏLİMOV**

**Ukrayna ilə Rusiya arasında problem başlanarkən demişdik ki, bu məsələ hələ çox uzun çəkəcək. O vaxt çoxu düşünürdü ki, Qərb bu məsələni bir anın içində həll edəcək. Bəlkə Qərbin özü də problemin bu qədər qəlizləşəcəyini güman etmirdi.**

Bəs biz Ukrayna məsələsinə niyə bu qədər diqqət ayırırıq? İnanın ki, bəlkə də V.Putinin SSRİ planları alınacaqdı. Bunun qarşısını yalnız Ukraynadakı proseslər aldı. Düzdür, Nursultan Nazarbayev də çıxış qapısını özü üçün açıq saxlayır, Avrasiya İttifaqının sırf iqtisadi birlik olmasında israr edir.

Amma Ukrayna Rusiyanın imperiya planlarında həlledici həlqə idi. İndi Rusiya prosesdə özünün iştirakını bütün vasitələrlə inkar edir. Amma cidanı çuvalda gizlətmək olmaz. Hər şey göz önündədir. Hətta separatistlərin özləri onlarla birlikdə Rusiyanın adamlarının vuruşduğunu inkar etmirlər.

Amma onlar bunu etiraf etməsə belə, hətta formal məntiq belə hər şeyi yerbəyer edir, çunki müharibənin özünün də bir məntiqi var. Neçə illərdir ki, vur-tut bir neçə min əhalisi olan Dağlıq Qarabağın və yaxud da ki, bu bölgədən özünün iqtisadi resurslarına görə əhəmiyyətli dərəcədə fərqlənməyən Ermənistanın Azərbaycan üzərində hərbi qələbə çaldığı israr edilir. Maraqlıdır ki, digər ölkələr də həqiqəti bilsələr də münaqişənin siyasi şablonlarına dəstək verirlər.

Qəribədir ki, Ukraynaya verilən dəstəyi belə Azərbaycandan əsirgəyirlər. Qərb Ukrayna məsələsində daha ardıcıl mövqe tutub. Bu ardıcıllığı biz Gürcüstana və Azərbaycana tətbiqən sezmirik.

Güman edirik ki, Ukraynaya verilən siyasi dəstək Azərbaycana və Gürcüstana verilsəydi, bəlkə bu ölkələrin ərazisindəki münaqişə ocaqları çoxdan söndürülərdi.

Amma ümidləri tamam itirmək olmaz. Həm də ortalıqda başqa problem də var. Təəssüf ki, Azərbaycan hakimiyyəti daxili siyasətdə tamam başqa yola, ümummillilik relsindən çıxaraq siyasi ksenofobiya yoluna üz tutub. İndi milli barışıq məqamıdır. Amma nə edəsən ki, bu hakimiyyətlərin özəl problemləri bitib-tükənmir. Gürcüstanda da belədir. M.Saakaşviliyə və onun keçmiş komandasına gündə bir cinayət işi açılır.

Gürcüstanda vəziyyət bəllidir. Orada hakimiyət cəmiyyəti özündən əvvəlki hakimiyətin problemləri ilə məşğul edir. Axı nəsə etmək lazımdır...

Azərbyacana gəldikdə isə vəziyyət daha qəlizdir. Bizim hakimiyyəti yalnız bir fikir məşğul edir: necə etsinlər ki, bu sərvət kanalını itirməsinlər?

Cəmiyyət isə indi yalnız bərbad kanalizasiyaya və bir də yollara görə etiraz edə bilir. Halbuki cəmiyyətdə çox böyük bir potensial gizlənib. Bəli, onu sadəcə, hərəkətə gətirmək lazımdır. Amma nə edəsən ki, bu potensial hakimiyyətdə yalnız bir hiss yaradır: o hiss də qorxudur...

Həddən ziyadə böyük sərvət də insanın psixologiyasını dəyişir. Məhz ona görə də bizim hakimiyyət əslində öz cəmiyyətini sevmir. Onlar yalnız özlərinə qarşı cəmiyyətin çox böyük sevgisini imitasiya etməklə məşğuldurlar. Əslində isə münasibət qaşılıqlıdır. Cəmiyyət də bunlara yalnız itaət edir, sevgi yoxdur...

Əvvəldə müharibənin məntiqi haqqında yazdıq. Bəlkə də sual yarana bilər ki, əgər bir kiçik siyasi qüvvə bu boyda cəmiyyəti əzə bilirsə, onu özünə tabe etdirə bilirsə onun kiçik bir dövlətə məğlub olmasında təəccüblü nə var ki?

Təbii ki, bu, məntiqdir. Amma bu hakimiyyət daha çox Qarabağ probleminin finalına gəlib çıxdı. Onlar bu problemə təslim nöqtəsini qoydular. Əvvəlki dövrlərdə isə vəziyyət başqa idi. O vaxt cəmiyyət indiki qədər müti deyildi.

Sadəcə, əvvəlki hakimiyyətlərin səbatsızlığı, səriştəsizliyi cəmiyyətin enerjisini boş-boşuna sovurdu. Yorulmuş, sınmış cəmiyyəti özünə tabe etmək artıq bu hakimiyyətdən elə bir səriştə tələb etmirdi. Hələ o vaxt yazırdıq ki, Azərbaycan cəmiyyətinin özünə gəlməsi üçün bir sosial reabilitasiya mərhələsi lazım gələcək.

Bu hakimiyyəti qorxudan da elə budur. Ona görə də ölkədə iqtisadi mühiti elə səviyyədə saxlayırlar ki, insanlar dirçəlməsin, toyuq samanlıqda eşələnən kimi bütün günü bir parça çörək üçün əlləşib-vuruşsunlar. Bunlar insanları çörəklə imtahana çəkirlər. Bu ölkənin ən acı reallığı da elə budur.

Ac insan, təmin olunmamış insan isə heç vaxt böyük amalların fərqində olmur. O, ən yaxşı halda özünün və ailəsinin yükünü çəkməyə qadir olur....

YENİ MÜSAVAT
N 218 (5927) 1 sentyabr 2014



# İraq hadisələrinin arxasındakı gizlin

Kənan RÖVŞƏNOĞLU

**Son günlər ardıcıl olaraq İŞİD-in bombalanması xəbərləri arasında iki başlıq diqqətimi çəkdi. Birinci xəbər dünya ölkələrinin İŞİD təhlükəsinə qarşı Şimali İraq Kürd administrasiyasını silahlandırması ilə bağlı idi. ABŞ müdafiə naziri Çak Hagel bir neçə gün əvvəl bildirib ki, ABŞ-la yanaşı daha 7 ölkə İraq kürdlərinə (Məsud Bərzaninin rəhbərlik etdiyi administrasiya - K.R) "vacib silah və avadanlıq" göndərməyə boyun olub.**

Bunlar Albaniya, Britaniya, Kanada, Xorvatiya, Danimarka, İtaliya və Fransadır. Bundan başqa İranın da kürdlərə silah verdiyi məlum olub. Dünən isə Avstraliyanın da kürdlərə silah verməyə hazırlaşdığı haqda xəbərlər yayılıb. Deməli, siyahı getdikcə böyüyəcək. Və aydın görünür ki, bu ölkələri kürdləri silahlandırmağa sövq edən dövlət və ya təşkilatlar var. Ən böyük dəstəyi isə ABŞ hökuməti verir. ABŞ məhz İŞİD qüvvələrinin İraqın şimalında kürd administrasiyasının ərazilərinə hücum etdikdən sonra hərəkətə keçərək İŞİD-i havadan vurmağa başlayıb. Bu dövrdən də silah yardımı başlayıb. Bir maraqlı detal ondan ibarətdir ki, ABŞ-ın kürdlərə silah yardımını Müdafiə Nazirliyi (Pentaqon) deyil, Mərkəzi Kəşfiyyat İdarəsi həyata keçirir.

Əlbəttə, həm ABŞ-ın, həm də digər dövlətlərin silah yardımı ilə bağlı tutarlı izahları var. İŞİD İraqda böyük təhlükələr yaradıb və artıq nəinki bölgə üçün, bütövlükdə dünya üçün təhdidə (bu barədə bir qədər sonra - K.R) çevrilib. Ancaq elə burda bir sual yaranır: bu günə qədər bu yardımlar niyə edilmirdi? Və nədən yalnız kürdlər? Məlum olduğu kimi İŞİD artıq neçə ildir ki, İraq və Suriyada fəaliyyət göstərir. Bu ilin iyun ayının əvvəlində isə qruplaşma İraqın ikinci böyük şəhəri Mosulu ələ keçirib. Ancaq nə həmin vaxt, nə də sonrakı günlərdə İŞİD-çilər Telafer, Tuz Hurmatı və sair türkmən şəhərlərini ələ keçirəndə dünyada kimsə hərəkətə keçib İŞİD təhlükəsinə qarşı İraq ordusu və ya könüllü yerli döyüşçülərə silah-sursat yardımı etmədi?

Ancaq qəribə də olsa bunun əksini etdilər. Məsələn, İraq hökuməti ilə ABŞ arasında imzalanmış sazişə əsasən ABŞ hökumətinin İraq ordusuna satdığı 36 ədəd F-16 döyüş təyyarəsinin təhvil verilməsi Vaşinqton tərəfindən ertələndi. Səbəb kimi isə bu silah-sursatın "silahların terrorçuların əlinə keçməsi təhlükəsi"ni göstərdi. Eyni zamanda iki aydan artıqdır ki, adi silahlarla İŞİD qüvvələrinə qarşı evlərini, kəndlərini qoruyan türkmənlərə hər hansı silah yardımı edilmədi.

Bütün bunlar Yaxın Şərqdə siyasi xəritələrin yenidən çəkilməsi ilə bağlı iddiaların həqiqət yükünü artırır. İraqın zəiflədilməsi və ya bölünməsi, Suriyanın parçalanması, yeni kürd dövlətinin yaradılması ilə bağlı planlar haqda deyilənlər qismən də olsa doğrulanır. Bu oyunda İŞİD sadəcə bir vasitədir. Bunu təsdiqləyən əsas məqam isə bu qruplaşma ilə bağlı son günlər müşahidə olunan bir sıra xəbərlərdir. Bu günlərdə Səudiyyə Ərəbistanının kralı Abdulla bin Əbdül Əziz əl-Səud sensasiyalı bəyanatla çıxış edərək, dünya birliyini terrorla ciddi mübarizəyə çağırıb.

Təxminən 10 gün əvvəl isə Ərəbistanın baş müftisi Əbdüləziz əl-Şeyx İŞİD-ə qarşı bəyanat vermişdi.

Səudiyyə kralı isə deyib ki, tez bir zamanda lazımi tədbirlər görülməsə, yaxın aylarda terror aktları Amerika Birləşmiş Ştatları və Avropanı bürüyəcək. Kral həmçinin İŞİD-in insanlığa sığmayan vəhşi hərəkətlərini tənqid edib və əlavə eləyib ki, baş kəsib prosesi aşkar nümayiş etdirmək bütün mənəvi qaydalara, o cümlədən də islam dininin müqəddəs şərtlərinə ziddir. Yeri gəlmişkən, ötən həftə Səudiyyə Ərəbistanı təhlükəsizlik qüvvələri aralarında din adamlarının da olduğu 35 nəfəri İŞİD-ə dəstək verməkdə günahlandıraraq həbs edib.

Bu arada, ötən il bu zamanlarda Qərb mətbuatında Yaxın Şərq və Şimali Afrikada 5 dövlətin parçalanacağı və 14 yeni dövlətin meydana çıxacağı ilə bağlı iddialar haqda Qərb analitik mərkəzlərinin hesabatı yayılmışdı. Belə görünür ki, müsəlman dünyasının yenidən şəkilləndirilməsi planı artıq işə düşüb və bir sıra ölkələr plandan narahatdırlar. Bu istiqamətdə ilk addım isə görünür, yeni kürd dövlətinin yaradılmasıdır.

# "Tutduğum postlar nazir müavinindən üç dəfə yuxarı vəzifədir"

## Siyavuş Novruzov: "Müsavat rəsmi dəvət versin, müzakirə edib bu haqda qərar qəbul edəcəyik"

**Hakim Yeni Azərbaycan Partiyasının (YAP) icra katibinin müavini, deputat Siyavuş Novruzov yaxın vaxtlarda yüksək vəzifəyə təyin olunacaq. Bu barədə "Azadlıq" qəzetinin yaydığı məlumatda deyilir ki, YAP-çı deputat Gənclər və İdman Nazirliyində müavin postuna gətiriləcək.**

Məlumata görə, S.Novruzov nazir olmaq istəyirmiş. Lakin "yuxarılar" hələ Azad Rəhimovu əvəzləmək istəmədiyindən Siyavuş Novruzov müavin vəzifəsilə razılaşmalı olub. Qeyd edək ki, YAP-ın icra katibi Əli Əhmədov baş nazirin müavini təyin olunduqdan sonra onun partiyadakı müavini Mübariz Qurbanlı da bir az əvvəl Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri vəzifəsinə təyin olunub.

Məsələ ilə bağlı Siyavuş Novruzovla danışdıq. Fürsət düşmüşkən bəzi digər məsələlərə dair də suallar verdik.

***- Siyavuş bəy, vəzifə təklifi almağınız barədə məlumat doğrudur?***

- Mən Milli Məclisin deputatı, komitə sədriyəm, partiyada icra katibinin müaviniyəm. Tutduğum bu postlar nazir müavinindən üç dəfə yuxarı vəzifədir.

***- Amma YAP rəhbərliyindəki üç nəfərdən yalnız siz vəzifə təyinatı almamısınız. Bəlkə ona görə belə söhbətlər yayılır...***

- Kim bu barədə arzu-istəyini xoş niyyətlə bildirirsə, Allah canını sağ, işini avand eləsin. Amma belə bir şey yoxdur. Səhv məlumatdır.

***- Amma təyinat olsa, imtina etməzsiniz...***

- Bu gün partiyada kifayət qədər iş var. Bir iqtidar partiyasında çalışmaq, həmçinin Milli Məclisdə partiyanı təmsil etmək, bunlar çoxşaxəli işlərdir. Biz hamımız birlikdə çalışırıq, vəzifəyə gedənlər də, burda qalanlar da hamı bir komanda şəklində işləyir.

***- Həmkarlarınız gedəndən sonra, yəqin, işin ağırlığı sizin üzərinizdədir...***

- Biz bir yerdə işləyirik. Onlar da partiyaya gəlirlər. Mən də hər gün partiyadayam.



**"Siyasi partiyaların arzu-istəyi olarsa, buna zərurət yaranarsa, təbii ki, belə müzakirələr baş tuta bilər"**

***- Deyəsən YAP-ın mərkəzi qərargahı köçürüləcək. Ətrafında sökhasökdür...***

- Orda yeni bir yaşayış binası tikilir. Onun bizə aidiyyəti yoxdur, hələ ki, öz yerimizdəyik. Gələcəkdə, təbii ki, qərargah məsələsinə baxıla bilər. Rayon təşkilatlarının qərargahı müasir standartlara uyğunlaşır. Amma mərkəzi qərargah partiyanın apardığı çoxşaxəli işin tələblərinə cavab vermir. Dövlət büdcəsindən maliyyə alınır, həmçinin üzvlərimiz tərəfindən üzvlük haqqı toplanılır. Tədricən bu vəsaitin hesabına yeni binanın inşa olunması mümkündür. Bizim çox geniş beynəlxalq əlaqələrimiz var. Dünyanın bir çox ölkələrindəki partiyalarla əlaqələr qurulub. Həmin partiyaların da ofislərində olmuşuq. Bu, gələcəyin işidir ki, həmin partiyaların ofislərinə bənzər yeni bir bina tikilsin.

***- Bəs, YAP-ın qarşısındakı qazıntı məsələsi nədir?***

- Bu, su çəkilişi ilə əlaqədardır, bir həftədir ki, su xətlərini dəyişirlər.

***- Müsavatın qurultayına YAP da dəvət olunacaq. İştirak edəcəksinizmi?***

- Müsavat rəsmi dəvət versin, müzakirə edib bu haqda qərar qəbul edəcəyik. Yəni bu, mənim, ya digərinin qəbul edəcəyi qərar deyil. Bu, partiya rəhbərliyinin qərarı olacaq. Hansı qərar olacaqsa, biz ona uyğun hərəkət edəcəyik.

***- Bu günlərdə Türkiyədə AKP-nin qurultayına qatıldınız. Yəqin, şahidi oldunuz ki, hakim partiyanın tədbirlərinə, həmçinin milli törənlərə iqtidar və müxalifət bərabər qatılır. Bu ənənənin Azərbaycana gətirilməsinə nə mane olur?***

- Biz bütün hallarda tədbirlərimizə, yubileylərimizə siyasi partiyaları dəvət edirik. İstər beynəlxalq konfrans keçirəndə, yaxud digər tədbirlərə dəvətli olurlar. Lakin bəzən görürsən bir sıra partiyalar iştirakdan imtina edir, yaxud gəlmirlər. Amerika sistemi var, siyasi partiya, yaxud müstəqil şəxslərdən kimsə dəvət olunan tədbirlərdə üzrsüz səbəbdən iştirak etmirsə, onlar növbəti dəfə tədbirə dəvət olunmur. Biz dəfələrlə bu təcrübədən istifadə etmişik. Həm parlamentdə təmsil olunan, həm də təmsil olunmayan partiyaları müxtəlif səpkili tədbirlərə dəvət etmişik. AKP-nin qurultayına, düzdür, dəvət etmişdilər, amma əsas şəxslərdən heç biri iştirak etmirdi.

***- Azərbaycanda dövlət başçısının iştirak etdiyi milli bayram və ya matəm tədbirlərində siyasi partiya liderlərinin də iştirakı protokola salına bilərmi?***

- Dəfələrlə şahidi olmuşam ki, 28 Mayla əlaqədar tədbirlərə müxalifət partiyalarının hamısı dəvət olunub. Sadəcə olaraq bəzi hallarda bəzi müxalifət partiyalarının nümayəndələri etiket normalarını yerinə yetirmir. Cənab prezident də dəfələrlə birləşmənin, bir yerdə fəaliyyət göstərməyin zəruriliyindən bəhs edib. Keçən dəfə jurnalistləri toplayanda da bu barədə mesajlar verib. Sadəcə olaraq bəziləri buna hazır deyillər, bu da onların şəxsi problemləri ilə bağlıdır. Yəni partiyaya rəhbərlik edən şəxslərin müxalifətçilik yox, düşmənçilik aparmasının tərkib hissəsidir.

***- Bu günlərdə ölkə rəhbərliyinə daxil olan şəxslərin mətbuat nümayəndələri ilə görüşü oldu. Mümkündürmü siyasi partiyalarla da bölgədə baş verənlər, Azərbaycana yönəlik təhlükələr və s. mövzuları əhatə edən toplantı keçirilsin?***

- Mütəmadi belə hallar olub. Əgər siyasi partiyaların belə bir arzu-istəyi olacaqsa, buna zərurət yaranarsa, təbii ki, belə müzakirələr baş tuta bilər.

❑ Elşad PAŞASOY

# Qiymət artımı şadlıq saraylarının menyusuna təsir etməyib

## Bazarlardakı bahalaşma hələ ki, onlardan yan keçib...

**Rusiyaya qarşı Qərbin iqtisadi sanksiyaları artıq Azərbaycanda da kənd təsərrüfatı məhsulları və ərzağın bahalaşmasında özünü göstərir. Son bir həftə ərzində bəzi məhsulların qiymətinin hətta iki dəfə artması bunun bariz göstəricisidir.**



Mövcud durumun paytaxtdakı şadlıq saraylarının menyularında olan qiymətlərə hansı təsirinin olub-olmamasını öyrənmək üçün onlardan bir neçəsi ilə əlaqə saxladıq.

"İmperator" şadlıq sarayının əməkdaşı qiymətlərin stabil olaraq qaldığını bildirdi. Topdan formada aldıqları məhsulların qiymətlərində cüzi bahalaşma olduğunu söyləyən şəxs menyudakı qiymətlərin restoranın seçiləcək zalından və gələn qonaqların sayından asılı olaraq dəyişdiyini bildirdi.

Suallarımızı cavablandıran "Altun" şadlıq sarayının inzibatçısı da menyu qiymətlərində dəyişiklik olmadığını dedi. İstəkdən asılı olaraq menyudakı qiymətlərin 50, 60, 80 manat arasında dəyişdiyini deyən inzibatçı menyuya ediləcək dəyişikliklərin ancaq administratorla razılaşdırıldığını söylədi.

"Ağ çiçəyim" şadlıq sarayının mühasib xanımı isə qiymətlərin minimum 45 manatdan başladığını və 80 manatadək davam etdiyini söylədi. Onun sözlərinə görə, rəhbərlikdən menyudakı qiymətlərin qaldırılması ilə bağlı heç bir göstəriş verilməyib.

"Bakı Əyləncə Mərkəzi"nin administratoru Anar bəy də qiymətlərdə hələ ki, dəyişiklik olmadığını bildirdi.

❑ Fərìdə ABDIYEVA

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 118 (5927) 1 sentyabr 2014



# Bakı ABŞ və Rusiyanın çarpaz təhdidi altında

**Azərbaycan müharibəyə başlayacağı təqdirdə Dağlıq Qarabağın tanınacağı ilə bağlı iddialar ölkəmizə qarşı psixoloji təzyiqdir, yoxsa yeni erməni möhtəkirliyi? Kaliforniyanın qondarma qurumu tanıması haqda qərarı düşməni ruhlandırsa da, rəsmi Vaşinqtonun ştatın qərarı əleyhinə çıxdığı bəlli olub...**

**Avqustun 28-də ABŞ-ın əhali sayı etibarilə ən böyük ştatı olan və ermənilərin daha çox yaşadığı Kaliforniyanın Senatı qondarma "DQR"in müstəqilliyini tanıyan qətnamə qəbul edib. Bu, Amerikanın 50 ştatı arasında bu cür qərar çıxaran sayca 5-ci ştatdır. Qərarı təbii ki, erməniləri ruhlandırıb. Axı hər necə olmasa, söhbət sıradan bir ölkədən yox, ABŞ kimi qlobal gücdən, superdövlətdən və onun ictimai rəyi ilə manipulyasiyadan gedir. Üstəlik, bu dövlət Minsk Qrupunun iki əsas həmsədrindən, BMT Təhlükəsizlik Şurasının isə 5 daimi üzvündən biridir.**

Qərar beynəlxalq hüquq baxımından heç bir dəyərə malik olmasa da - ABŞ-ın xarici siyasətini ştatlar yox, Federal hökumət müəyyən edir - presedent baxımından, əlbəttə ki, Azərbaycandan ötrü xoşagələn deyil. Məsələ həm də ondadır ki, mənfur ermənilər saxta "soyqırımı" tanıtmağa da bu cür - ştatlardan başlayıblar.

Diqqətçəkici başqa məqam Kaliforniyanın tanınma məsələsinin "3 günlük müharibə"dən az sonraya təsadüf etməsidir. Ermənistanın xarici işlər naziri Edvard Nalbəndyan bunu guya işğalçı ölkənin "haqlı mövqeyi"nin Amerika tərəfindən müdafiəsinin təzahürü kimi qiymətləndirib. Belə olub-olmadığını söyləmək çətindir, ancaq gerçək budur ki, ABŞ-ın siyasi, hakim dairələrində erməni təcavüzünə loyal münasibət qalır və davam edir. Amerikanın ən azından, Dağlıq Qarabağın işğalına Krım, Abxaziya, Cənubi Osetiya, Dnestryanı bölgələrin işğalı kimi baxmadığı dəqiqdir.

***

Bu arada Ermənistanın "Aykakan Jamanak" qəzeti maraqlı iddia ortaya atıb. Qəzet Ermənistan Xarici İşlər Nazirliyindəki mənbəyə istinadən yazıb ki, guya Dağlıq Qarabağ münaqişəsi zonasında "3 günlük müharibə" zamanı ABŞ-ın siyasi dairələrində federal hökumət tərəfindən qondarma qurumun tanınması məsələsi müzakirə edilib.

"Bizim qaynağımızın məlumatına görə, Birləşmiş Ştatların siyasi elitasında belə hesab ediblər ki, İlham Əliyev Qarabağ üzərinə genişmiqyaslı hücuma yalnız Putinin "dobro"su ilə başlaya bilər və bu, Amerikaya qarşı geosiyasi qəsd anlamı verəcək. Bu qəsdə qarşı ən effektli vasitə Qarabağın müstəqilliyinin tanınması ola bilər. Necə ki, eyni qaydada Rusiya Gürcüstanın hücumu zamanı Abxaziya və Cənubi Osetiyanın müstəqilliyini tanımışdı", - deyə nəşr qeyd edib.

Ancaq eyni gündə başqa bir erməni KİV-i bu fikirlərə diametral zidd yazı dərc edib. "Kaliforniya ştatının tanınma qərarı nə dərəcədə Vaşinqtonun siyasi iradəsindən kənarda atılan addımdır" sualına cavabda ştatda nəşr olunan "California Currier" qəzetini qurucusu və redaktoru Arut Sasunyan deyib ki, "bu qərar nəinki Vaşinqtonla razılaşdırılmayıb, əksinə, Ağ Ev qəti şəkildə belə bir qərarın qəbul edilməsinə qarşı çıxıb".

Onun sözlərinə görə, Kaliforniya ştatı Vaşinqtonun qərarlarına qarşısında müstəqildir və Vaşinqtonun bununla bağlı nə düşündüyü onu qayğılandırmır: "Kaliforniyanın Senatı Vaşinqtonda nə fikirləşməsindən asılı olmayaraq müstəqil qərar çıxarmaq hüququna malikdir".

Erməni redaktor məlum qərarın qəbul edilməsində ştatdakı erməni lobbisi və ermənilərin ciddi çalışdığını, Azərbaycanın lobbi təşkilatlarının isə qərara mane olmaq istədiyini, lakin buna nail olmadığını bildirib. "Bəs niyə bu cür qərarlar başqa ştatlar üçün yoluxucu olmur" sualına cavabında Sasunyan bildirib ki, Amerika ştatlarının Dağlıq Qarabağı tanıması üçün hansısa əsasları yoxdur: "Dağlıq Qarabağ ABŞ ştatlarına hər hansı dəxli olmayan ərazidir. Ələlxüsus da o halda ki, xarici siyasət məsələləri ilə Vaşinqton məşğul olur. Amerikanın bütün 50 ştatı müstəqil qərarlar qəbul edə bilər. Konstitusiyada isə deyilir ki, Amerikanın xarici siyasətini Vaşinqton müəyyən edir, ştatlar yox. Odur ki, ştatların xarici məsələlərə qarışmaq hüququ yoxdur. ABŞ Konstitusiyası belədir".

***

Bu, doğurdan da belədir. Vaşinqton hökumətinin Dağlıq Qarabağla bağlı rəsmi mövqeyi isə Dövlət Departamentinin insan haqlarına dair hər il yaydığı hesabatlarda əksini tapır. Bu sənədlərdə Azərbaycanın




Dağlıq Qarabağ və ətrafındakı 7 rayonun Ermənistanın dəstəyi ilə separatçı qüvvələrin nəzarətində olduğu birmənalı şəkildə qeyd edilir.

Bununla belə, tanınma təhdidi başqa bir vaxt da gündəmdə olub və müvəqqəti aktuallıq kəsb edib. Belə ki, ABŞ-ın sabiq dövlət katibi Hillari Klintonun Bakı səfəri zamanı belə bir məlumat yayılmışdı ki, guya Amerika tərəfi qapalı görüşdə Bakını müharibədən çəkindirmək üçün onu müharibəyə başlayacağı təqdirdə separatçı qurumu tanıyacağı ilə hədələyib. Lakin bu məlumat ABŞ-ın Azərbaycandakı səfirliyi tərəfindən o vaxt təsdiq olunmadı.

Rusiyanın da tanınma ilə Azərbaycanı şantaj eləməsi bir ara müzakirə mövzusu olub. Lakin belə bir şantaj Kreml rəsmilərinin yox, bəzi rusiyalı politoloqların dilindən səslənmişdi. Amma hələ ki, belə çarpaz təhlükə real görünmür. Çünki nə Rusiyanın, nə də ABŞ-ın məsələdə əsas hədəfi ikinci erməni dövləti yaratmaq deyil. Belə bir hədəf güdülsəydi, Kosovo nümunəsindəki kimi çoxdan reallaşmışdı. Başqa yandan, həmin o Kosovo, Abxaziya, Cənubi Osetiyanın təcrübəsi göstərdi ki, separatçı rejimlərin tanınma məsələsində Amerika ilə Rusiyanın mövqeyi bir qayda olaraq, üst-üstə düşmür, əksinə, diametral ziddiyyət təşkil edir. Necə ki, Kosovonun müstəqilliyini ABŞ və müttəfiqləri tanısa da Rusiya bu addıma getmədi, Cənubi Osetiya və Abxaziya nümunəsində də əksinə - ABŞ və yerdə qalan dünya bu qurumları tanımadı və onları Gürcüstanın ayrılmaz tərkib hissəsi saymaqdadır.

İstənilən halda, Azərbaycan öz torpaqlarını hərb yolu ilə azad eləmək istərkən bütün riskləri ciddiyə alıb yüz ölçüb bir biçməli, ilk növbədə də ABŞ-ın və Rusiyanın neytrallığına əmin olmalıdır.

# Dilənən Ermənistan

## Ölkə vətəndaşları yoxsul statusundan çıxa bilmirlər

**Ermənistan Milli Statistika Xidməti, bu günlərdə "Yoxsulluq və ərzaq təminatı" məruzəsini dərc edib. Orada ilk dəfə olaraq əhalinin 2013-cü ildəki gəlirləri açıqlanıb. Sənəddə dərc edilmiş bütün rəqəmləri sadalamağa lüzum yox. Yalnız biri ilə maraqlanmaq yetər - yoxsulluq həddindən aşağı səviyyədə yaşayan Ermənistan sakinlərinin sayı məsələsi ilə (anspress).**



Statistikaya görə, erməni əhalinin 35%-dən çoxunun ayda cəmi 21 dollar gəliri olur. Adam fikirləşə belə bilmir ki, bu qədər az pulla onlar necə yaşaya bilirlər? Yəni onların Ermənistandan hara gəldi qaçmalarının səbəbi əslində aydındır.

Ölkə iqtisadiyyatı ilə bağlı fikirlərini jurnalistlə söhbətində Ermənistanın eks-prezidenti Robert Köçəryan da bölüşüb. Onun sözlərinə görə, Ermənistan iqtisadiyyatının yaxın gələcəyi üçün heç bir optimist qiymətləndirməyə malik deyil. Köçəryanın fikrincə, üstəlik, çox tezliklə Ermənistan iqtisadiyyatı üçün yeni təhlükələr yaranacaq və bunların sırasında qlobal təhlükələr də yer alacaq. Köçəryan vurğulayıb ki, Avrasiya İttifaqına girdikdən sonra da Ermənistanın başına nə gələcəyi bəlli deyil. Çünki Rusiya ilə Qərbin qarşıdurması şəraitində bu ittifaqın, həm də Gömrük İttifaqının necə işləyəcəyi aydın deyil.

Amma keçmiş Qarabağ yaraqlısı müəyyən sponsorlar tərəfindən Azərbaycan torpaqlarının işğal edilməsi üçün ayrılmış milyardlarla dolların hara xərclənməsi barədə bir kəlmə də danışmayıb. Həmin vəsaitlər bu gün iflasa uğramış Ermənistan iqtisadiyyatına xeyli dəstək ola bilərdi. O həmçinin, deməyib ki, indiki böhran hələ onun vaxtından başlayıb.

Mütəxəssislərin qənaətincə, hazırda Ermənistan iqtisadiyyatı staqnasiyadadır və gələcəkdə bu ölkənin yalnız bir perspektivi var - erməni xalqı əl açıb dilənməlidir və deməlidirlər ki, kim nə qədər bacarır, o qədər yardım etsin.

Yeri gəlmişkən, böyük siyasətə qayıtmasının mümkünlüyü barədə jurnalistlərin suallarına cavab verən 60 yaşlı Robert Köçəryan bir az əzilib-büzülüb ki, bəs, özünü 10 il öncəkindən xeyli gümrah hiss edir. "Mən mütəmadi olaraq üzgüçülüklə məşğul oluram, qışda xizək sürür, dağlara qalxmağı xoşlayıram, həmçinin biliyimi artırıram", - deyə o vurğulayıb. Belə görünür, Ermənistandakı müflisləşmənin şəxsən ona heç bir dəxli yoxdur. Köçəryanın böyük siyasətə qayıdışının mümkünlüyünə gəldikdə isə, o bildirib ki, "bu, vəziyyətdən asılıdır".

İqtisadi fəlakət isə bu gün Qarabağ klanının əleyhinə işləyir. Bu barədə erməni ekspertlər və politoloqlar açıqca danışırlar və 2014-cü ilin payızının çox qızmar olacağını vurğulayırlar.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi



## “Mövlud Çavuşoğlu Azərbaycana yaxın adamdır”

### Qabil Hüseynli: “Bir sıra strateji məsələlərdə o, Azərbaycan üçün ciddi işlər görüb...”

**Xəbər verildiyi kimi, baş nazir Əhməd Davudoğlu Türkiyənin yeni 62-ci hökumət kabinetini təqdim edib. Prezident Rəcəb Tayyib Ərdoğana təqdim edilən yeni hökumət kabinetində bir sıra yeni isimlər də var. Onlardan biri də Azərbaycanda da yaxşı tanınan AKP-dən olan deputat, bir müddət AŞ PA-nın prezidenti postunu tutmuş Mövlud Çavuşoğludur. Çavuşoğlu Davudoğlunun hökumətində xarici işlər naziri postunu tutacaq.**

AKP-də xarici siyasət üzrə koordinator kimi çalışan Çavuşoğlu 2002-ci ildən partiyanın Antaliyadan millət vəkili seçilib. Bu dövrdə dəfələrlə Azərbaycana səfər edən Çavuşoğlu prezident seçkilərində müşahidəçi olub, AŞ PA-nın məruzəçisi olub, qurumda Türkiyə nümayəndə heyətinə rəhbərlik edib, eyni zamanda 2010-2012-ci illərdə AŞ PA-nın prezidenti olub.

Mövlud Çavuşoğlu 1968-ci ildə Türkiyənin Alaniya vilayətində dünyaya gəlib. 1988-ci ildə Ankara Universiteti Siyasi Elmlər fakültəsini beynəlxalq münasibətlər ixtisası üzrə bitirib. Daha sonra təhsilini ABŞ-da Lonq Ayslənd Universitetində davam etdirib. 1991-ci ildə iqtisadiyyat üzrə magistr dərəcəsi alıb. 1993-cü ildə isə Ankara Universiteti Avropa Cəmiyyəti Araşdırma və Tətbiqetmə Mərkəzində “Avropa Birliyi mütəxəssisi” dərəcəsini alıb. Daha sonra təhsilini London İqtisadiyyat Məktəbində davam etdirən Çavuşoğlu “Ətraf Mühit İqtisadiyyatı və Davamlı İnkişaf” mövzusunda doktorluq müdafiə edib. 1995-ci ildə BMT İnkişaf Proqramında çalışıb. AKP yarandıqdan sonra bu partiyaya qoşulan Çavuşoğlu üç dəfə deputat seçilib. AKP xarici əlaqələr üzrə sədr müavini olub.

Politoloq Qabil Hüseynli “Yeni Müsavat”a açıqlamasında Çavuşoğlunun yeni təyinatını Azərbaycan üçün müsbət dəyərləndirdi. Onun fikrincə, xarici işlər naziri dövlətin müəyyən etdiyi kursu aparsa da, Çavuşoğlunun Azərbaycana yaxın siyasətçi olması, eləcə də Avropa Şurasında ölkəmiz üçün faydalı fəaliyyətləri onun nazir təyinatının Bakı üçün məqbul olduğunu göstərir: “Mövlud Çavuşoğlu Azərbaycana yaxın adamdır. Amma sadəcə olaraq prezident və baş nazirin müəyyən etdiyi kurs üzrə xarici siyasət yürüdəcək. Onun özünün Azərbaycan meyilli olması da bu işdə müsbət rol oynaya bilər. Bax bu nöqteyi-nəzərdən Çavuşoğlunun xarici işlər naziri təyin edilməsi Türkiyənin Azərbaycanla münasibətlərində müsbət rol oynaya bilər”.

Ancaq ekspertə görə, ümumilikdə Türkiyənin yeni xarici siyasət kursunun necə olacağı hələ aydın deyil. Onun qənaətincə, Ərdoğanın prezidentliyi dönəmində Türkiyə yeni xarici siyasət kursu götürəcək: “Ərdoğan və Davudoğlu yeni Türkiyə ideyasından danışırlar. Mətbuata sızan məlumata görə, ”Yeni Türkiyə” ideyası Kamalizmdən birdəfəlik imtina və Türkiyənin bir sıra yeni dəyərlərə qayıtması ilə müşayiət olunacaq. Məsələn, Ərdoğanın inauqurasiya mərasiminə Ermənistan prezidentinin dəvət edilməsi Yeni Türkiyənin təfəkkür tərzini əks etdirən ştrixlərdən biridir. İnauqurasiya mərasimində iştirak edən Ermənistan XİN başçısı Türkiyə tərəfinə Sərkisyanın qondarma “erməni soyqırımı”nda iştirakla bağlı məktubunu təqdim edib. Türkiyə tərəfi çox soyuqqanlılıqla həmin məktubu qəbul edib. Bu isə o deməkdir ki, Ermənistanın təntənə ilə təşkil edəcəyi “soyqırımın” 100 illiyi mərasimlərində Türkiyəni də nüfuzlu şəxslərdən biri, elə dostumuz Mövlud Çavuşoğlu təmsil edə bilər".

Lakin bununla yanaşı, Q.Hüseynli bir sıra strateji məsələlərdə Çavuşoğlunun Azərbaycan üçün ciddi işlər gördüyünü də qeyd edir: “Amma bütün bunlara baxmayaraq Avropa Şurasındakı fəaliyyəti zamanı AŞ-nin Ermənistanı təcavüzkar kimi tanımasında Çavuşoğlu və onun başçılıq etdiyi deputat qrupu böyük rol oynadı. Ermənilərin bir sıra həyasız iddialarının dəf edilməsində də onun rolu danılmazdır. M.Çavuşoğlu AŞ PA-nın sədri olduğu zaman məhz onun səyləri nəticəsində Dağlıq Qarabağa dair alt komissiyanın fəaliyyəti bərpa olundu. Yəqin ki, Ərdoğanın ”Yeni Türkiyə" konsepsiyası onun bu istiqamətdəki fəaliyyətinə təsir etməyəcək".

❑ **KƏNAN**

## Ərdoğanın Ermənistanla bağlı yeni strategiyası var

### Ekspertin fikrincə, Türkiyə qondarma “erməni soyqırımı” iddialarına qarşı bir sıra addımlar atacaq, o cümlədən Ermənistanla diplomatik münasibətlər qurulacaq

**Ermənistan hökuməti Türkiyənin yeni seçilmiş prezidenti Rəcəb Tayyib Ərdoğanı qondarma “erməni soyqırımı” tədbirlərində iştirak etmək üçün İrəvana dəvət edib. Dəvət məktubunu Ankarada keçirilən prezidentin andiçmə mərasimində Ermənistanı təmsil edən xarici işlər naziri Edvard Nalbəndyan çatdırıb. Nalbəndyan Ərdoğanla mərasimdə qısa görüş keçirdiyini və bu təmas əsnasında Sərkisyanın ona tapşırdığı vəzifəni yerinə yetirdiyini qeyd edib.**



Nalbəndyan Ərdoğanın gələn ilin 24 aprelində keçiriləcək mərasimdə iştirak edəcəyinə ümid etdiklərini vurğulayıb.

Ermənistan hökumətinin bu addımı birmənalı qarşılanmayıb. Məlum olduğu kimi, gələn il Ermənistan qondarma “erməni soyqırımı”nın 100-cü ildönümünü qeyd etməyə hazırlaşır. Ermənistan rəhbərliyinin Türkiyə prezidentini İrəvanda keçiriləcək mərasimə dəvət etməsi, eləcə də Türkiyə tərəfinin bu dəvət məktubunu qəbul etməsi Azərbaycanda narahatlıqla qarşılanıb. Türkiyə hökumətinin gələn il hansı addımları atacağı, İrəvanın “soyqırım” iddialarına qarşı hansı tədbirləri görəcəyi isə həlalik dəqiq deyil. Ankara Universitetinin doktorantı, politoloq Orxan Qafarlının fikrincə, Ankaranın “erməni məsələsi” ilə bağlı konkret fəaliyyət proqramı var: “Ərdoğanın inauqurasiya mərasiminə Serj Sərkisyanın dəvət olunması və onun yerinə xarici işlər naziri Edvard Nalbəndyanın tədbirdə iştirakı, Ankaranın erməni məsələsində ardıcıl bir siyasi strategiyanın olduğunu göstərir”.

O.Qafarlı deyir ki, AKP hökuməti üçün 2015-ci il “erməni soyqırımı” məsələsi iki aspektdə önəmlidir: “Birincisi, daxili siyasət baxımından. Çünki 2015-ci il iyunun 7-də növbəti parlament seçkiləri keçiriləcək. Və bu seçkilər öncəsi ABŞ-ın və AB ölkələrinin ”erməni soyqrımı"nı tanıması AKP-nin seçki öncəsi səs itirməsinə səbəb ola bilər. Belə bir halda ABŞ, İsrail və AB ilə Türkiyənin hazırkı münasibətlərini nəzərdən keçirdikdə belə görmək olur ki, Türkiyənin köhnə müttəfiqləri, xüsusilə də yəhudi lobbisi bu dəfə ABŞ Konqresində və AB ölkələrində Ankaraya qarşı olan qərarlarda maneə olmayacaqlar. Türkiyə rəhbərliyi bunu nəzərə alaraq Erməni məsələsində alternativ siyasət ortaya qoymağa məcbur olacaq. Bu vəziyyətdə inkarçı siyasətdən ədalətli şəkildə tarixi qiymətləndirmə xarakterli bir siyasətə keçiddən söz edilir. Bu kontekstdə 2014-cü ilin aprel ayında baş nazir olan Ərdoğanın başsağlığı mesajı və Ermənistan prezidentinin Ankaraya dəvət edilməsi bu mövzuda ardıcıl bir siyasətin olduğunu göstərir. Türkiyə Ermənistanla diplomatik münasibətlərin formalaşmasında maraqlı olduğunu göstərir".

O.Qafarlı deyir ki, Ankaranın 2015-ci ilə qədər Ermənistanla diplomatik münasibətləri bərpa etmək istəməsi ilə bağlı iddialar var. Ancaq bu dəfə Ankara Azərbaycanın maraqlarını nəzərə alacaq: “Burda diqqətə almaq lazımdır ki, Ankara bu dəfə Azərbaycanın rahatsız olduğu sərhəd məsələsinə toxunmayacaq. Daha aydın şəkildə ifadə etsək, ermənilərlə diplomatik münasibətlərin bərpa olunma prosesində sərhədlər açılmayacaq. İlk olaraq diplomatik münasibətlər bərpa olunacaq, bundan sonra Ankara birbaşa Qarabağ və sərhəd məsələsində diplomatik bağlantılarla problemlərə müdaxilə etməyi planlaşdırır. Ankara fikirləşir ki, diplomatik münasibətləri olmadığı bir ölkə ilə hər hansı münaqişəni müzakirə etmək mümkünsüzdür. Belə hallarda üçüncü tərəflərə ehtiyac yaranır və tərəflərin öz maraqları ortaya girir”.

Bakının bu məsələyə münasibətinə gəlincə, O.Qafarlı deyir ki, rəsmi Bakının Türkiyə-Ermənistan münasibətlərinin bərpa olunmasından narahat olub-olmadığı tam olaraq bilinmir: “Lakin düşünürəm ki, Ərdoğanın Bakı səfərində Azərbaycan rəhbərliyi ilə bu məsələlər müzakirə olunacaq”.

❑ **KƏNAN**

## Təbrizdə Qarabağ müzakirələri

### QAT-la İran dairələri arasında erməni işğalına qarşı mübarizədə mühüm razılaşmalar əldə edilib

**QAT sədri Akif Nağı, sədr müavini Gültəkin Quliyeva, İdarə Heyətinin üzvü Nəsib Cəfərov, QAT Ali Məclisinin üzvü, Şuşa batalyonunun sabiq komandiri Fəxrəddin Səfərovun daxil olduğu nümayəndə heyəti Təbriz şəhərində 4 günlük səfərdə olublar. Səfər zamanı Təbrizin elm, təhsil müəssisələrində, digər yerlərdə çoxsaylı görüşlər keçirilib, Dağlıq Qarabağ münaqişəsinə dair söhbətlər aparılıb, kitablar paylanıb, Qarabağa dair informasiya guşələri yaradılıb.**



Azərbaycan, türk, fars, ərəb, ingilis dillərində yazılmış “Qarabağ -Yaddaş kitabı”, “Xocalı soyqırımı”, “Qarabağ müharibəsi. Qısa tarix”, “Qarabağ debatları”, “Qarabağ gündəliyi”, “Quba Məzarlığı - erməni cinayətlərinin qanlı izi”, “Qarabağ dünən, bu gün və sabah” və digər kitablar Təbrizdə ciddi maraq doğurub, bu kitablara ehtiyacın olduğu dəfələrlə vurğulanıb. Səfərin gedişində QAT nümayəndələri Təbriz radiosunun qonağı olub, radionun kitabxanasına kitablar hədiyyə edib, Yusif Əzəminin aparıcısı olduğu populyar verilişdə çıxış edib, səfərin məqsədi, Qarabağ həqiqətləri ilə bağlı dinləyicilərə ətraflı məlumat veriblər. Sonra Təbrizdə yerləşən Azərbaycan Muzeyində görüş keçirilib. QAT üzvləri Muzeyin eksponatları və kitabxanası, həmçinin muzeyin həyətindəki daş heykəllərdən ibarət sərgi ilə tanış olublar, Muzeyin kitabxanasına kitablar təqdim ediblər. Görüşdə Muzeyin direktoru Qulamrza Zərdani, şöbə müdirləri Mina Rəncbər, Firəngiz Mirzani və digərləri iştirak ediblər.

Qonaqlar növbəti gün Təbriz Mərkəzi Kitabxanasında olublar. Görüşdə Akif Nağı, Gültəkin Quliyeva, Fəxrəddin Səfərov, Nəsib Cəfərov, kitabxananın direktoru Mehdi Diremnisari, əlyazmalar üzrə tədqiqatçı alim Hadi Haşimiyan və digərləri çıxış ediblər. Söhbət əsnasında məlum olub ki, Təbriz Mərkəzi Kitabxanasının əsasının qoyulmasında Naxçıvandan olan iki varlı tacirin - Hacı Məhəmməd və Hacı Hüseyn Naxçıvani qardaşlarının böyük xidmətləri olub. Onlar kitabxanaya öz şəxsi kolleksiyalarından kitabxanaya 4 min nüsxə ən qədim əlyazma təqdim edib. Kitabxananın foyesində həmin 2 xeyriyyəçi qardaşın büstləri qoyulub. Müzakirələrin gedişində orta əsrlərə aid mənbələrin üzərində işlənilməsi və çap olunması, Qarabağın tarixinin qədim mənbələr əsasında öyrənilməsinə xüsusi diqqət ayrılması, məşhur qarabağlı alimlərin həyat və yaradıcılığının İran mənbələri əsasında öyrənilməsi, Qarabağa dair birlikdə fars dilində kitabların hazırlanması, gətirilən kitabların hamısının fars dilinə və əski əlifbaya çevrilməsi barədə təkliflər irəli sürülüb.

QAT Mətbuat Xidmətinin məlumatına görə, görüşün sonunda Muzeydə Qarabağ İnformasiya Guşəsinin yaradılması razılaşdırılıb. QAT üzvləri daha sonra Təbriz Universitetində görüş keçiriblər. Görüşdə Universitetin prorektoru, tarix elmləri doktoru, professor Məhəmmədəli Pərğu, doktor Rəhim Nikbəxt, QAT sədri Akif Nağı və digərləri çıxış ediblər. Universitetin təmsilçisi M. Pərğu görüşün əvvəlini sürprizlə açıb və onun rəhbərliyi altında fars dilinə tərcümə olunmuş “Qarabağ müharibəsinin qısa tarixi” kitabını təqdim edib. Kitab İranın müxtəlif ali təhsil müəssisələrində yayılmaq üçün çap edilib. Təbriz Universitetində aparılan kitablardan ibarət Qarabağ İnformasiya Guşəsi yaradılıb. Çıxışlar zamanı Azərbaycan və İran alimləri tərəfindən qarşılıqlı şəkildə kitabların tərcümə edilməsi və yayılması, kitabların konkret mənbələr əsasında hazırlanması, Azərbaycanda əski əlifba ilə yazılmış kitabların İranda təzələnməsi, yenidən çap olunması, iki ölkənin rəsmi qurumları, o cümlədən nazirlikləri, universitetləri kitabxanaları arasında əlaqələrin qurulması, QHT-lərin imkanlarından daha geniş istifadə olunması barədə razılığa gəlinib.

QAT nümayəndə heyəti Təbrizin ən müxtəlif təbəqələri ilə görüşlər keçirib, müzakirələr aparıb, kitabları paylayıb. Ən müxtəlif səviyyələrdə olan görüşlərdə ən çox işlədilən ifadələr “Allah bu vəhşilikləri törədənlərə lənət eləsin!”, “Allah ermənilərə lənət eləsin!” ifadələri olub. Sonda əlaqələrin, əməkdaşlığın davam etdirilməsinin vacibliyi vurğulanıb.

Səfər Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyələşdirdiyi “Xarici ölkə universitetlərində Qarabağ İnformasiya Guşələrinin yaradılması” adlı layihə çərçivəsində həyata keçirilib.

❑ **Cavid TURAN**

# Deputata və bələdiyyə sədrinə şok ittihamlar

## Hacı Qalib Bilgəhdə "POSAT" kooperativinin üzvlərinə aid 4 hektar torpağı saxta yolla vəfat etmiş nənəsinin adına özəlləşdirməkdə suçlanır; deputat isə iddiaları əsassız sayır: "Bu işdə heç bir saxtakarlıq olmayıb, gəlin yerindəcə araşdırın"

**Son günlər qalmaqallı çıxışları ilə yadda qalan deputat Hacı Qalib Salahzadə barəsində "Yeni Müsavat"a sensasion bir müraciət daxil olub. Müraciət müəllifləri olan "POSAT" bağ-tikinti kooperativinin İdarə Heyətinin üzvləri yazırlar ki, deputat və Bilgəh bələdiyyəsinin sədri Fazil Rüstəmov əlbir olaraq müdhiş saxtakarlığa imza atıblar.**



Şikayətçilər bu problemlə bağlı aprel ayında da qısa bir məktubla redaksiyamıza müraciət etmişdilər. Bu dəfə isə onlar məsələnin mahiyyətini açıqlayıblar və çox ciddi qanunsuzluqlar edildiyini bildiriblər.

"Belə ki, bələdiyyə sədri kooperativə məxsus Bilgəhdə 4 hektar torpaq sahəsini həyətyanı sahə kimi deputatın vəfat etmiş nənəsi Kübra Camalovanın adına özəlləşdirib" - deyə onlar qeyd edirlər. Bu torpaqda kooperativin 28 nəfər üzvünün payı olduğunu iddia edən müraciət müəllifləri qeyd edirlər ki, bələdiyyə sədrini Hacı Qalib himayə edir və onun bu qanunsuz əməlinə görə heç kəs izahat tələb etmir.

Torpaq mübahisəsi ilə bağlı məhkəmə çəkişməsində olduqlarını deyən şikayətçilərin sözlərinə görə, deputatın bu əraziyə iddia etməsi üçün heç bir sənəd-sübutu yoxdur və saxta kağızlara istinad edir.

"1989-cu ildə Tikinti Nazirliyinin nəzdində yaradılmış "POSAT" bağ-tikinti kooperativinə 4 hektar torpaq sahəsi ayrılmışdı. Sovet dövründə bu sahədə 49 nəfərin torpaq payı olub. Lakin bilirsiniz ki, müstəqillikdən sonra köçənlər oldu, başqa ölkələrdə yaşamağa gedənlər oldu. Müstəqillik dövründə isə vəziyyət dəyişdi.

Beləliklə, 4 hektar torpaq sahəsində İdarə Heyətindən 28 nəfər payçı qaldı. Biz də müstəqillik dövründə bu sahəni təkrar qeydiyyatdan keçirdik. Bütün sənədlərimiz yerli-yerində var. Vergilər Nazirliyində təkrar qeydiyyatdan keçirmişik, Torpaq və Xəritəçəkmə Komitəsindən kadastr almışıq.

O cümlədən müəyyən olunmuş qaydada Daşınmaz Əmlakın Reyestr Xidməti Bakı Ərazi İdarəsindən çıxarış sənədləri almaq üçün sübutlarımızı təqdim etmişik. Ancaq Reyestr Xidməti əsassız olaraq bizə çıxarış verməkdən imtina etdiyi üçün bu qurumu məhkəməyə vermişik ,"- deyə şikayətçilər yazırlar.

Onların sözlərinə görə, sözügedən məhkəmə prosesi davam etdiyi dövrdə ağlasığmaz bir saxtakarlığın şahidi olublar. Məlum olub ki, çıxarış əldə etmək üçün məhkəmədə çəkişdikləri vaxtda Bilgəh bələdiyyəsinin sədri Fazil Rüstəmov torpağı deputat Hacı Qalibin mərhum nənəsinin adına özəlləşdirib:

"Bələdiyyə sədri açıq-aşkar özbaşınalıq edib. Fazil Rüstəmov bizə məxsus 4 hektar torpaq sahəsini və əlavə olaraq 1,3 hektar qonşu torpaq sahəsini həyətyanı torpaq sahəsi kimi deputatın bir neçə il əvvəl vəfat etmiş nənəsi Camalova Kübranın adına özəlləşdirib. Bu, absurd və qanuna tüpürməkdir. Çünki bələdiyyə sədrinin verdiyi sənədlərin saxtalığına və qanunsuzluğuna əmin olmaq üçün nə ekspert lazımdır, nə də məhkəmə hakimi.

Körpə uşaq da sənədlərə ötəri nəzər yetirsə, şahidi olacaq ki, primitiv üsullarla saxtakarlıq edilib. Bütün sənədlərin surəti üst-üstə yığılaraq bir yerə toplanıb. Ən qəribəsi budur ki, tələb olunan imzaların yerinə müxtəlif sənədlərdə, müxtəlif vəzifəli şəxslərin yerinə Fazil Rüstəmovun öz imzası var. Vəfat etmiş adamın adına torpaq sahəsində kadastr almamış BTİ çıxarış verib".

İdarə Heyətinin üzvləri onu da qeyd edirlər ki, bu işdə yol verilən fırıldaqçılığın rəsmiləşdirilməsi haqda ətraflı məlumat verəcəklər. "Biz bu işi belə qoymayacağıq. Bütün qanuni və hüquqi yollara əl ataraq, məhkəmə müstəvisində haqlı olduğumuzu sübut edirik və edəcəyik. Bilgəhin bələdiyyə sədri deputata yaxın adamdır və bu cür qanunsuzluğa qol qoyur. Biz hüquqi müstəvidə mübarizə aparıb, günahkarların cəzalandırılmasına nail olacağıq. Düzdür, bu iş uzun çəkən prosesidir. Lakin başqa yolumuz da yoxdur".

Bu ittihamlarla bağlı deputat Q.Salahzadə "Yeni Müsavat"a dedi ki, onların iddiaları tamamilə əsassızdır. Deputatın sözlərinə görə, İdarə Heyətinin üzvlərinin ittihamlarının yalan olduğunu sübut etməyə hazırdır. Hacı Qalib bildirdi ki, həmin şəxslər torpaq sahəsini paylayıblar: "Hələ 38 il əvvəl guya bunlara torpaq verilib. Sonra kooperativ yaradıblar. Bu kooperativdə olanlar - Tofiq Rüstəmov, Litfin Abbasov, Nazim İsmayılov, Tahir Qocayev və neçə belə ad çəkə bilərəm ki, onlar öz torpaqlarını paylayıblar. Bu torpaqlar da bilgəhlilərindir. Həmin adamlar paylarını satıblar. Bu 4 hektar torpağın qabağında rəhmətlik nənəmin adına torpaq olub. Bu işdə heç bir saxtakarlıq olmayıb".

Hacı Qalib "Yeni Müsavat"ın əməkdaşını kəndə dəvət edərək məsələni yerindəcə araşdırmağı təklif etdi: "Əgər bir şübhəniz varsa, gəlin araşdırın. Bələdiyyə sədri də danışsın. Mənim heç adıma orada torpaq yoxdur. Bizim 4 hektar ərazinin yanında evimiz var. Nənəm o vaxtı Abşeron rayon Kadastr İdarəsindən sənəd alıb, varəsə kimi nəvəsinə verib. Mən heç nə demirəm, müxbir göndərin bir-bir əraziyə baxsın. Sizə şikayət edənlərin kottecləri var, göstərə bilərik. Torpaq işində heç bir saxtakarlıq ola bilməz. Uzağı bir-iki yerdə qanunsuzluq edərsən, sonra səni tutarlar.

Əslində saxtakarlığı onlar ediblər. 23 nəfər arasında torpaq bölünüb, amma 28 nəfər qeyd ediblər. Orada bir neçə adamın adını yalan yazıblar. Onların da arasında öz paylarını satanlar var". Qeyd edək ki, "Yeni Müsavat" olaraq hər iki tərəfin mövqeyini çap etməklə yanaşı, torpaq mübahisəsini Bilgəhdə araşdırmağa çalışacağıq.


HÜQUQLARININ QEYDİYYATI VƏ ŞƏHƏRSALMA KADASTRI İDARƏSİ

QEYDİYYAT VƏSİQƏSİ

Verilir Abşeron rayonu Dövlət Texniki İnventarlaşdırma, Mülkiyyət hüquqlarının Qeydiyyatı və Şəhərsalma Kadastrı İdarəsi tərəfindən ondan ötrü ki, Sabunçu rayonu Bilgəh A.Salahzadə küçəsində ... yaşayış sahəsi-271,0m² kömməki sahəsi-115,5m² 7(yeddi) otaqdan ibarət yaşayış evi (tikintisi, bir hissəsi) ... Camalova Kübra Mirabdül Hüseyn qızının adına mülkiyyət hüququ əsasında Abşeron rayon ... 13 sentyabr 2005-ci il ...-1986 saylı ... qeydə alınmışdır.

6367 №-ilə reyestr kitabında ...


AZƏRBAYCAN RESPUBLİKASI
VERGİLƏR NAZİRLİYİ

Kommersiya hüquqi şəxslərinin
DÖVLƏT REYESTRİNDƏN ÇIXARIŞ
Bakı şəhəri Vergilər Departamentinin Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi

| | |
|---|---|
| Qurumun adı | "POSAT" BAĞ TİKİNTİ KOOPERATİVİ |
| Qeydiyyata alındığı tarix | 27.10.1989 |
| Əvvəlki dövlət qeydiyyat № | 81/58 |
| Dövlət qeydiyyat № (VÖEN) | 1002178771 |
| Təşkilati-hüquqi forması | Kooperativ |
| Maliyyə ili | 1 yanvar-31 dekabr |
| Hüquqi ünvanı | AZ1106, BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYONU, ZİYA BÜNYADOV, ev 23, mənzil 39 |
| Nizamnamə kapitalının miqdarı | 140.00 manat |
| Çıxarışın verildiyi tarix və № | 04.07.2011, 1101020015645700 |

... Prezidenti İlham Əliyevin 30.04.2007-ci il tarixli

❑ **Emil SALAMOĞLU**

# Fransadan qalmaqallı azərbaycanlı oliqarxa 4 milyon avro ultimatumu

## "Hafka" sentyabrın 1-dək bu pulu "Lans" klubunun hesabına köçürməlidir...

**Qalmaqallı və ekstravaqant azərbaycanlı oliqarx, "Hafka" ləqəbi ilə tanınan, hazırda müflis vəziyyətə düşən Hafiz Məmmədova Fransadan ultimatum gəlib. Virtualaz.org saytı Fransa mənbələrinə istinadən xəbər verir ki, əgər o, sentyabrın 1-nə keçən gecəyə qədər "Lans" klubunun hesabına 4 milyon avro köçürməsə, kluba futbolçu transferi qadağan ediləcək.**


**Hafiz Məmmədov**

Bu halda klubun prezidenti Jerve Martelin "Hafka" ilə münasibətləri kəsib onun barəsində fırıldaqçılıq ittihamı ilə məhkəməyə müraciət etməsi gözlənilir.

Xəbər verildiyi kimi, ötən il "Lans"ın nəzarət səhm paketini 20 milyon avroya alan "Hafka" bu il müflis olaraq klubun büdcəsinə pul verə bilməyib. Baxmayaraq ki, o, may ayında Parisdə təntənəli şəkildə "Lans"ın bu mövsüm üçün büdcəsinə 17 milyon avro pul ayıracağına dair rəsmi sənədi imzalamışdı.

Fransanın Peşəkar Klublara Nəzarət Komissiyası (DNCG) bu pulun azı 10 milyon avrosunun mövsümün başlamasına qədər transferini tələb edib, ancaq pullar vaxtında köçürülmədiyinə görə "Lans"ın yüksək liqada oynamasına qadağa qoyulub. Nəhayət, J.Martel klubun büdcəsinə yenidən baxandan sonra "Lans"a yüksək liqada oynamağa icazə verildi. İndi isə "Lans"ın oyunçu transferi hüququ əldə etməsi üçün azı 4 milyon avro lazımdır.

"Hafka" bu pulu verə bilmədiyi üçün J.Martel Azərbaycan dövləti ilə birbaşa danışıqlara başlamışdı və 4 milyon avro istəyirdi. O hesab edirdi ki, "Lans"ın oyunçuları "Land of Fire Azerbaijan" sözləri yazılmış köynəklərlə oyuna çıxdığı və Azərbaycanı təbliğ etdiyi üçün dövlət "Hafka"nın əvəzindən bu pulu verə bilər.

Lakin belə görünür, Azərbaycan dövləti müflis olmuş və gözdən düşmüş "Hafka"nın yerinə 4 milyon ödəməyə hazırlaşmır. Ona görə də sentyabrın 1-nə keçən gecəyə qədər 4 milyon avro "Lans"ın hesabına oturmasa, kluba oyunçu transferi qadağan ediləcək.

Klubun məşqçisi Antuan Komburace bildirib ki, onlar "Hafka" ilə davamlı olaraq əlaqə saxlayırlar və klubun majoritar səhmdarı pulu tapıb göndərəcəyinə hələ də inandırmağa çalışır. Ancaq indi ona inanan yoxdur.

"Lans" tərəfdarları sosial şəbəkələrdə "Hafka"ya qarşı kampaniyaya başlayıblar və ondan klubu bu vəziyyətə saldığı üçün cavab verməsini istəyirlər. Bəzi məlumatlara görə, "Lans" bu mövsümün sonunda müflis olduğunu elan edəcək.

"Hafka"nın İngiltərədə almaq istədiyi "Sheffield Wednesday" klubunun sahibi Milan Mandariç də artıq "Hafka"ya inanmır. Britaniya mətbuatının yazdığına görə, Mandariç deyib ki, azərbaycanlı biznesmenin klubun səhmlərinin 100 faizini almaq üçün vəd etdiyi pulu hələ tapa bilməyib və bu baxımdan klubun səhmləri üçün başqa alıcı axtarırlar.

"Əgər yaxın günlərdə Hafiz Məmmədov problemini həll edə bilsə, biz sövdələşməni başa çatdıra bilərik, əks halda başqa alıcı axtarmalı olacağıq" - deyə M.Mandariç bildirib. "Hafka" ingilis klubunu almaq üçün 50 milyon avro vəd etmişdi.



# Bakının 640 milyon dollarlıq tikintisi

**Bakıda metronun "Koroğlu" stansiyası yaxınlığında, Böyükşor gölünün Sabunçu rayonu istiqamətindəki sahilində tikilən olimpiya stadionunda işlər sürətlə davam etdirilir. Hazırda stadionda bir neçə istiqamətdə fasiləsiz iş gedir, həmçinin oturacaqların quraşdırılmasına başlanılıb.**

70 min tamaşaçı tutumuna malik olacaq stadionun tikintisinin ilkin dəyəri 640 milyon dollar açıqlanıb. Tikintini Türkiyənin "Tekfen" şirkəti həyata keçirir.

Olimpiya stadionunun gələn ilin ilk rübündə təhvil verilməsi gözlənilir. 2015-ci ildə Bakıda keçiriləcək ilk Avropa Yay Oyunlarının açılış və bağlanış mərasimlərinin burada keçirilməsi planlaşdırılır.

**Beynəlxalq Təhsil Mərkəzi**

***Biz sizi Ukraynanın, Belorusun, Rusiyanın və Gürcüstanın dövlət universitetlərində bakalavr və magistr dərəcələri üzrə əyani, qiyabi və ikinci ali təhsil almağa dəvət edirik.***

< *Kiyev Dövlət Texniki Universiteti*
< *Kompüter mühəndisliyi. Hüquq. İqtisadiyyat.*
< *Kremençuk Dövlət Universiteti*
< *Psixologiya. Jurnalistika. Hüquq. Filologiya*
< *Kiyev Dövlət Dəniz Akademiyası*
< *Gəmi sürmə. Dəniz və çay nəqliyyatı. Hüquq*
< *Tbilisi Dövlət Tibb Universiteti*
< *Müalicə işi. Stomatologiya. Əczaçılıq. Pediatria*
< *Minsk Dövlət Universiteti*
< *Beynəlxalq Münasibətlər. İqtisadiyyat. Jurnalistika*
< *Qrodno Dövlət Universiteti*
< *Hüquq. İqtisadiyyat. Pedoqoqika. Tərcüməçilik*
< *Volqoqrad Dövlət Aqrar Universiteti.*
< *Aqronom. Yerölçmə və Kadastr. Elektrik təchizatı.*

**Bizim bu ölkələrin yuxarıda adları sadalanan və bu siyahıda adları olmayan bir çox digər dövlət universitetləri ilə əməkdaşlıq və təmsilçilik haqqında rəsmi müqavilələrimiz var. Diqqət! Bəzi ixtisaslar üzrə pulsuz təhsil almaq şansınız var!**

**Ünvan: Bakı ş. Məmmədzadə k. 13A Nərimanov m-su**
**Tel: (050) 3319999; (077)3319999; (055)2522525; (012)4379980**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**
Tel: (055) 776-70-34

**Elan**

**Bakının Türkan qəsəbəsində dənizdən 600-700 metr aralı, sahəsi 20 sot olan bag satılır. Bağın orderi, 82 metr dərinlikdən çıxan şirin suyu, hasar və darvazası, meyvə agacları, 1 otaq və mətbəxdən ibarət kiçik tikilisi var. Qaz və telefon xətti yaxınlıqdan keçir. Qiyməti razılaşma yolu ilə.**

**Əlaqə tel: 070-611-64-15**

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət! **İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə** və Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

# Evi yanan 10 nəfərlik külfət küçələrdə qalıb

## Məcburi köçkün ailəsi dövlətdən kömək istəyir; "Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə, icra hakimiyyətinə də getmişik, hərə bir tərəfə yönəldir bizi"

**Avqustun 16-da evi yanan 10 nəfərlik ailə küçələrdə qalıb. Məcburi köçkün olan Məmmədovlar ailəsinin 7-ci mikrorayon, "Bolluq bazarı" yaxınlığında yerləşən evi elektrik xəttində baş verən qısa qapanma nəticəsində əşyaları ilə birlikdə yanaraq yararsız hala düşüb.**





Hadisə zamanı ciddi yanıq xəsarətləri alan ailə başçısı Muğan Məmmədov 5 saylı xəstəxananın yanıq şöbəsində müalicə alıb. Evindən paltarlarını belə çıxara bilməyən 9 nəfər ailə üzvü isə neçə gündür gecələməyə yer tapmır.

Kömək üçün ölkə başçısına müraciət edən Məmmədovlar indi aidiyyəti qurumlardan yardım gözləyirlər.

"Yeni Müsavat"a müraciət edən Məmmədovların durumunu işıqlandırmaq üçün onlarla yanan mənzildə görüşdük.

Hadisənin şokundan ayılmayan ailə 20 ildən çoxdur yaşadıqları evlərini bu halda görüncə göz yaşlarını saxlaya bilmirlər. Evdə yanan bəzi avadanlıqların kreditini hələ də ödəyib qurtarmayıblar.

Yanğında bir əşya belə çıxara bilməyən ailəyə dəyən maddi ziyan minlərlə manat həcmindədir. Təzə alınmış soyuducu, televizor, divan, kondisioner və sair yanaraq yararsız hala düşüb. Yanğın nəticəsində televizor partlayıb və bu zaman otaqda olan Muğan Məmmədov xəsarət alıb. Şahidlərin sözlərinə görə, evin pəncərəsini sındıraraq ailə başçısını çətinliklə xilas ediblər.

Muğan Məmmədov hadisənin baş verdiyi anı belə xatırlayır: "Səhər saat 6-7 arası olardı. Tüstü iyinə ayıldım, gördüm ki, ev yanır, boğuluram, göz gözü görmürdü. Otağın küncündə televizor partladı, alovu məni vurdu, üzüm, bədənim yanmışdı. Özümü itirsəydim ölə bilərdim, qapını tapa bilmirdim. Yaxşı ki, pəncərədən düşən işığı gördüm və şüşəni sındırıb başımı çölə çıxardım, bir az ayıldım və qışqırıb qonşuları köməyə çağırdım. Qonşular gəlib məni çətinliklə pəncərədən çıxartdılar".



İndi Məmmədovlar təkcə yanan evlərinin yox, bundan sonra harada yaşayacaqlarının dərdini çəkirlər. Xatırladaq ki, evdə 3 ailə yaşayırmış. Ev əhlinin ən böyük üzvü 59 yaşındadır, ən kiçiyinin isə 2 yaşı var.

Muğan Məmmədovu xilas edən qonşusu deyir ki, iki dəqiqə gec çatsaydı, bu insan həyatını itirəcəkdi. Qonşular ailənin bugünkü durumuna acısalar da, əllərindən heç nə gəlmir.

Muğan Məmmədov deyir ki, son 10 gündə bütün aidiyyəti qurumlara müraciət ediblər, ancaq bir cavab yoxdur: "Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə, icra hakimiyyətinə də getmişik, hərə bir tərəfə yönəldir bizi. Biri deyir ora biz baxmırıq, biri başqa yerə göndərir. Yazıb-pozurlar, ancaq ortalıqda heç nə yoxdur, qalmışıq küçələrdə. Mən sığınacaq istəyirəm, qalmağa yerim olsun, bir az qazanım, məktəblərin açılmağına az qalıb, uşaqlarım məktəbə getməlidir".

Zərərçəkənin həyat yoldaşı Ceyran Məmmədova deyir ki, yuxarıda Allahın, yerdə də qonşuların köməyi ilə yanğından sağ-salamat qurtara biliblər: "Qardaşım xəstəxanadan təzə çıxıb, bütün həkimlərin bu barədə rəyi var. Hər kəs bizim vəziyyətimizə şahiddir. Ancaq bir nəfər kömək edən yoxdur. Ailədə azyaşlı uşaqlar var. İndi qohumların evində qalırıq. Bir azdan parklarda gecələməli olacağıq. 10 nəfərlik ailəni hansı qohum yerləşdirə bilər? Dövlətimizin hər cür imkanları var. Bizim də dərdimizə bir çarə qılsınlar".

İki məktəbli anası Sevil Quliyeva isə dövlətin onlara yardım edəcəyi günü gözləyir: "Evdə bir stəkan yoxdur ki, uşaqlara çay verək, qaşığına, çəngəlinə kimi hamısı əriyib. Bu gecə səhərə kimi küçədə qalmışıq, uşaqlarım xəstələnib, qızdırmasını düşürə bilmirdim. Məktəb başlayanda mən bu uşaqları haradan göndərəcəm dərsə? Axı onlar da bu dövlətin övladlarıdır. İkinci dəfə qaçqın həyatı yaşayırıq, bir də o zülmləri görmək istəmirik. Dövlətimiz bizə bir sığınacaq versin".

**❑ Nərgiz LİFTİYEVA**
**Fotolar müəllifindir**

# Azərbaycanlı qız rusları vahiməyə saldı



**Azərbaycanlı qız dünən "S7" aivaşirkətinin 3299 saylı "Novosibirsk-Bakı" reysində föveqaladə vəziyyət yaradıb. anspress-in məlumatına görə, təyyarə bazar günü, yerli vaxtla saat 10:40-da Sibirin paytaxtından Bakıya uçuş etməli imiş. Lakin 21 yaşlı azərbaycanlı sərnişinin ucbatından 2 saat gec havaya qalxıb.**

Rusiya DİN-in Sibir Federal Dairəsinin Terrorizm İdarəsi artıq bu barədə Rusiya mətbuatına açıqlama da verib. Açıqlamada bildirilir ki, sərnişinlər təyyarənin göyərtəsində olduğu zaman xoşagəlməz hadisə baş verib. "Sərnişinlər eşidiblər ki, Azərbaycan vətəndaşı olan 21 yaşlı qız kimsə telefonla təyyarəni partladacağını dedi. İnsanlar qorxublar və dərhal bu barədə stüardessaya məlumat veriblər. Bundan sonra polislər sərnişinlərin özləri ilə götürdükləri bütün yükləri yoxlayıblar və buna görə də, təyyarənin uçuşu 2 saat gecikib", - deyə açıqlamada bildirilir.

Kimliyi açıqlanmayan həmin azərbaycanlı qız polislərə izahatında sərnişinlərin onun telefon danışığının mahiyyətini düzgün anlamadığını söyləyib. "Azərbaycan vətəndaşı olan 21 yaşlı qız polislərə deyib ki, o, telefonda öz bacısı ilə mübahisə edirmiş və partlayış hədəsini də əsəbiləşdiyi üçün dilinə gətirib" - deyə yerli polis idarəsindən əlavə ediblər.



YENİ MÜSAVAT
N 218 (5927) 1 sentyabr 2014







# Alman telekanalı Türkiyədəki İŞİD düşərgəsindən görüntülər yayıb

## Qaziantepdəki terrorçu düşərgəsində bir neçə ölkənin vətəndaşlarının döyüş təlimi keçdiyi, Türkiyənin Suriya və İraq sərhədlərinin tam nəzarətsiz olduğu iddia olunur...

**Almaniyanın dövlət televiziyası olan Kanal 1 (ARD) İŞİD-ə dəstək vermək üçün Türkiyənin Qaziantep şəhərində yaradılan düşərgədən görüntülər yayıb. Reportajda Türkiyədə Suriyaya və İraqa göndərilmək üçün könüllülərə hərbi təlim keçilən bir neçə düşərgə olduğu iddia edilir.**

Telekanal bildirir ki, Türkiyədə yaradılan hərbi təlim düşərgələrində İŞİD-ə qoşulmaq istəyən bir neçə ölkədən gələn könüllülər var. Onlar qısa zamanda təlim gördükdən sonra maneəsiz şəkildə Suriya və İraq sərhədlərini keçir və İŞİD dəstələrinə qoşulur. Xəbərdə Türkiyənin cənub sərhədlərinin faktiki olaraq, qorunmadığı məsələsinə xüsusi diqqət ayrılıb. Müəllifin sözlərinə görə, Türkiyənin İraq və Suriya ilə sərhədləri tamamilə mühafizəsizdir.

Almaniya telekanalının məsələyə diqqət çəkməsinin səbəblərindən biri də son zamanlar 600-ə qədər Almaniya vətəndaşının İŞİD-ə qoşulmaq üçün Türkiyədəki təlim düşərgələrinə cəlb edilməsidir. Telekanal bildirir ki, terrorçulara qoşulan Almaniya vətəndaşlarının çoxu ölkəyə əməkçi miqrant kimi gələn müsəlmanlar və onların övladlarıdır.

Hamburqda yaşayıb, İŞİD-ə qatılan üç ələvi kökənli ailənin vəkili Mahmut Erdem Almaniya kanalına müsahibəsində bildirib ki, Türkiyənin Milli İstihbarat Təşkilatı (MİT) xarici ölkələrdən İŞİD-ə tərəfdar cəlb edilməsi məsələsinə tam nəzarət edir: "MİT Avropanın bir neçə ölkəsində gənclərin beyinlərini yuyaraq, onları bu düşərgələrə cəlb edir. Əsas hədəf qrupları Avropada yaşayan müsəlmanlardır. Bu düşərgələrə xeyli sayda ələvilərin də cəlb edildiyi haqda dəqiq bilgilərimiz var. Radikal terror qruplaşması olan İŞİD-in ən böyük düşməni ələvilərdir. Ancaq hələ xarakterləri formalaşmayan, ələvilik və yaşadıqları Qərb mədəniyyəti içərisində özlərinə yol arayan gənclərin beyinləri yuyulur, onlar bəlli qüvvələr tərəfindən cihada çağırılır. İŞİD-ə qoşulan bütün gənclərin şəxsi problemləri var. Ailələrinin dəstək istəklərindən sonra geniş araşdırmalarımız belə deməyə əsas verir. Bu işdə yalnız ailələri suçlamaq doğru deyil. Avropada qanunun aliliyi təmin edilən, insanların inanc, fikir, düşüncə azadlığının təmin edildiyi bir toplumdan ayrılıb, cihada getmələri, terror dəstəsinə qoşulub, insanlıq adına ləkə gətirən hərəkətlərlə məşğul olmaları bütün dövlətləri, eləcə də vətəndaş cəmiyyəti institutlarını narahat etməli, bu prosesin qarşısını almaq üçün təcili tədbirlər görülməlidir".

Vəkil bildirir ki, hədəf qruplarına çıxmaq üçün ən münasib yer məscidlərdir: "Avropadakı məscidlərə nəzarət gücləndirilməlidir. İnsanların ibadət məkanları terror qruplaşmasına tərəfdar toplayan istihbaratçılardan təmizlənməlidir".

Doqquz aydır ki, övladları İŞİD-ə qoşulan ailələrin problemini çözməyə çalışan, bu məqsədlə həm Almaniyada, həm də bir sıra Avropa strukturlarında görüşlər keçirən Almaniya Sosial Demokrat Partiyasının Hamburq millət vəkili Ali Rza Şimşek gənclərin radikallaşmasının qarşısının alınması üçün hazırladığı proqramı hökumətə təqdim edib: "Hökumətlə bərabər ailələrin və vətəndaş cəmiyyəti institutlarının üzərinə böyük yük düşür. Vətəndaşlar İslam adı arxasında gizlənən radikal qruplaşmalar haqqında davamlı olaraq, bilgiləndirilməlidir. Almaniya hökuməti artıq İŞİD-ə qoşulan vətəndaşlarının ölkəyə geri dönüşünün əngəllənməsi ilə bağlı hüquqi işlərə başlayıb. Ancaq bəzi ailələr övladlarını terrorun cəngindən qurtarmaq üçün onların yeri haqqında doğru bilgi vermirlər. Bu isə o deməkdir ki, potensial terrorçu kimi ölkədən çıxan insanlar faktiki terrorçu kimi Almaniyaya dönə bilər. Bu, Avropanın təhlükəsizliyi üçün ciddi təhdiddir".

Ali Rza Şimşəyin fikrincə, NATO ölkəsi olan Türkiyənin öz cənub sərhədlərini ciddi mühafizə etməsi üçün basqı göstərməyə ehtiyac var: "Türkiyədən Suriya və Şimali İraqdakı terror birliklərinə saysız canlı qüvvə getdiyi haqqında təkzibedilməz faktlar var. Yaralı terrorçuların Türkiyə xəstəxanalarında müalicə olunması haqda xəbərlər də alırıq. Bundan başqa, Türkiyənin İŞİD-ə lojistik dəstək verməsi iddiaları da var. Əgər bu iddialar doğrudursa, Türkiyə terror qruplaşmasına dəstəyini tamamən dayandırmalıdır. Təhlükəsizlik qüvvələri bu məsələdə daha həssas olmalıdır".

❑ **Aygün MURADXANLI**

# Urmiyədən həyəcanlı xəbərlər

## İran rejimi Urmu gölünü qurudur, kürd terrorçular isə Azərbaycan torpaqlarını ələ keçirməyə çalışır...

**"İki aydır Urmu gölünü dirçəltmə layihəsini icra etməyə hazırıq. Lakin təəssüf ki, vəsait verilmir və biz idarə bürokratiyasının əsirinə çevrilmişik. Urmu gölü isə hər gün daha da quruyur".**



Bunu Urmu Gölünü Canlandırma Mərkəzinin rəisi İ.Kəlantəri deyib. O, Urmu gölünün cənub hissəsinin tamamilə quruduğunu bildirərək deyib: "Təəssüf ki, gölün şimal hissəsində də çox az su qalıb. Cənab doktor Nobəxt dünən havadan böhranı müşahidə edib. Ümid edirik ki, bu baxışdan sonra gölü dirçəltmək üçün həyata keçirilməli olan layihələrin icrası üçün vəsait ayrılacaq".

İ.Kəlantəri sözlərinin sonunda Urmu gölünün yenidən dirçəlməsi üçün ümidlərin olduğunu da bəyan edib.

Bu arada Urmiyə ərazilərinə kürdlərin təhdidləri də artmaqdadır. GünAz TV-nin xəbərinə görə, PKK və PEJAK kimi kürd terror qruplaşmaları və radikal mühacir kürdlərin Güney Azərbaycanın qərb bölgəsinə ərazi iddiaları səngiməl bilmir. Bu dəfə onlar demokratik mühitdən sui-istifadə edərək BBC-farsi vasitəsi ilə yaydıqları musiqi parçasında Urmiyəni "Kürdistan" kimi qələmə veriblər. GünAz TV mətbuat mərkəzi azərbaycanlıların hüquqları üzrə fəaliyyət göstərən facebook səhifələrində yayılan məlumatlara əsasən bildirir ki, "Niştman" adlı musiqi parçasında "Urmiya, Urmiya" sözləri təkrarlanır və bu şəkildə Urmiyə bir kürd torpağı kimi göstərilir. Bu musiqi İran, Türkiyə və İraq kürdləri tərəfindən icra olunub.

Azərbaycan torpaqlarına göz dikən terrorçu kürd qruplaşmaları və radikal kürdlər Güney Azərbaycanın müxtəlif bölgələrinə yayılır. Bir neçə il öncə Təbrizin olduqca yaxınlığında yerləşən "Bağ-i məruf" adlı kəndə, bir qrup kürd sadə fəhlə kimi köçüb. Hazırda isə onların sayı 1200-1500 arası deyilir. Güney Azərbaycan torpaqlarına mühacirət edən digər mühacir kürdlər kimi onlar da artıq bu ərazidə özlərinə ayaq yerləri axtarırlar. Məlumata görə, keçən aylarda sözü gedən kürdlərin nümayəndəsi bir dini xadimlə birlikdə səlahiyyətli orqanlara müraciət edib və kürdlərə məxsus məscidin tikməsini tələb ediblər. Onlar Təbrizin icra hakimiyyəti və Şərqi Azərbaycan Vilayətinin (ostan) Valiliyindən lisenziya almağa çalışırlar.

Qeyd edək ki, Qərbi Azərbaycan Vilayətindəki şəhərlərdə olan kimi kürdlər bu siyasətlə Azərbaycan torpaqlarında yeni tarix yaratmaq və həmin bölgədə yerli bir xalq kimi olduqlarına əsas yaratmaq istəyirlər. Onlar vaxtilə Maku, Poldəşt, Şot, Çaldıran, Miyandoab, Salmas və s. kimi şəhərlərdə də məscid qurmağa və bununla da yerli əhali kimi özlərini qələmə verməyə cəhd ediblər.

Lakin Urmiyənin ozamankı imam cüməsi Höccətül İslam Həsəni onların məkrli planının qarşısını almaqda xüsusi rol oynayıb. Radikal kürdlər öz yerlərini bərkitməklə bir növ legitimlik qazanıb və bununla da terror qruplaşmalarının bölgəyə yol açmasına şərait yaradırlar.

❑ **Cavid TURAN**

## İŞİD-in əlindən qaçqın düşənlərin sayı bilindi - şok hesabat

### Terrorçu təşkilatın əsas maliyyə mənbəyi Səddam Hüseynin qızı imiş...



**İraqda 600 min insan evini tərk edib. axar.az xəbər verir ki, Birləşmiş Millətlər Təşkilatının İnsani İşlər Kordinatorluğu bu ilin yanvarından Şimali İraqa sığınan qaçqınların sayını açıqlayıb. Hesabatda deyilir ki, İraqda yurd-yuvasından didərgin düşənlərin sayı 1, 8 milyonu keçib.**

Onlardan 600 mini isə son bir ayda Ninova, Diyala və Enbar bölgələrində gedən silahlı toqquşmalarda başını götürüb qaçıb. İraqın kürd idarəçiliyi olan bölgəsində 216 min suriyalı və bütövlükdə 1,4 milyon qaçqın olduğu söylənir. Onların İŞİD terrorçularının zülmündən qurtuluş üçün ölkənin şimalına sığındığı vurğulanır. Qeyd edək ki, Yaxın Şərqdə gedən müharibələr nəticəsində illərdir bu ölkələrə sabitlik gətirilmir. Yüz minlərlə insan tələf olub, aclıq, xəstəlik, səfalət hökm sürür.

Bu arada İraq diktatoru Səddam Hüseynin qızı Raghadın atasının intiqamını almaq üçün İŞİD-ə maliyyə yardımı etdiyi üzə çıxıb. Məlumatlara görə, alman jurnalı "Der Spiegel" Raghadın İŞİD-in əsas maliyyə mənbəyi olduğunu iddia edib. Jurnalda dərc olunan xəbərdə qeyd olunub ki, Ürdün vilayətində lüks bir həyat sürən xanım Hüseyn milyonlarla dollarlıq sərvətə malikdir. Sərvətin bir hissəsinin İŞİD-ə verildiyi bildirilib. Raghadın atasının intiqamını aldıqdan sonra iqtidara keçəcəyi də qeyd edilib.

YENİ MÜSAVAT

Son səhifə

N 218 (5927) 1 sentyabr 2014



# Üzümün faydaları saymaqla bitməz...

Üzümün ən bol olduğu dövrdəyik. Meyvə olaraq istehlak etdiyiniz üzümün bir əczaxana olduğunu bilirsinizmi? A, B1, B2, C vitamini ilə yanaşı, tərkibində kalium, maqneziumu mikroelementləri ehtiva edən üzümün faydaları saysızdır. Araşdırmaçılar xüsusilə baş ağrısı və xərçəngə qarşı üzümün qoruyucu təsiri olduğunu düşünürlər. Üzüm həmçinin, immun sistemini qüvvətləndirir. Bundan əlavə, böyrək və qaraciyərin funksiyasını artırır, qaraciyər xəstəlikləri və qansızlığın müalicəsində təsirlidir. Qanın təmizlənməsinə, bədəndə yağların əriməsinə köməkçi olur. Bədəndə yığılan zərərli maddələrin çölə atılmasını təmin edir. Yağlı birləşmələrin yığılmasına maneə törədərək və qanı sulandıraraq ürək-damar sisteminin nizamlı işinə yardımçı olur. Tərkibindəki resveratrol maddəsi sayəsində xərçəngə qarşı bədəni qoruyur, orqanizmi viruslara qarşı müqavimətli hala gətirir. Qabıq və çəyirdəkləri mədəyə zərər vermədən həzmi sürətləndirir, bağırsaq sisteminin işini nizamlayır, bağırsaq sancısını aradan qaldırır. Beynin enerji qaynağıdır. Dərinin təzə və təmiz görünüş almasını təmin edir, allergiya və kirəcləşmələrdə iltihab meydana gəlməsinə mane olur.

# Qızıl tabutda dəfn edildi

Həyat yoldaşının və uşaqlarının gözü qarşısında öldürülən İrlandiyanın məşhur mafiya lideri Andy Connor qızıl tabutda dəfn edilib. Mafiya dünyasında "kök" ləqəbi ilə tanınan Connor ötən həftə öldürülmüşdü. Mafiya lideri son mənzilə yola salınarkən içinə qoyulduğu tabutun 25 min sterlinq olduğu bildirilib. Kimliyi bəlli olmayan şəxslər tərəfindən öldürülün Connorun cənazə mərasimində gərginlik olacağı gözlənilirdi. Məhz bu səbəbdən mərasimdə yüzlərlə polis təhlükəsizliyi bərpa etmək üçün çalışıb.



İrlandiyada 3 milyon sterlinqlik evi olan Connorun ölkədə fəaliyyət göstərən böyük bir oğru qruplaşmasını idarə etdiyi deyilir.

# Kişilər haqqında qadınların bilmədikləri...

Dedi-qodu etmədiklərini və bundan xoşlanmadıqlarını söyləsələr də əslində kişilər də dedi-qodu edərlər. Onlar söylədiklərimiz və romantik davranışlarımız haqda ümumiyyətlə, çox vaxt diqqətcildirlər. Ancaq bunu hər vaxt göstərməzlər. Kişilər danışan bir qadının ilk 10 dəqiqəsini yaxşıca dinləyərlər. Bu müddətdən sonra dinləyirmiş kimi özlərini apararlar. Onlara görə əhəmiyyətli olan onsuz da ilk 10 dəqiqədə deyiləndir. Özlərinə güvənərlər, ancaq bəzən də güvənə bilməzlər. Xoşlandıqları adama açılmaqda çətinlik çəkə bilərlər. Kişilər bəzən etdiklərini sevgililərinə və ya yoldaşlarına detallı izah etməkdən xoşlanarlar. Kişilər də ağlayar və romantik anlar yaşayarlar. Yalnız insanların qarşısında ağlamaqdan xoşlanmazlar. Zaman onlardan ötrü çox əhəmiyyətlidir. Görüş yerində uzun müddət gözləməyi xoşlamazlar. Kişilər də qadınlar kimi bəzən naz edər, hətta qorxarlar. Ancaq bu duyğunu çox ört-basdır edərlər. Qadınlar qədər kişilər də yaşlanmaqdan qorxur və estetik əməliyyatlara baş vururlar...





# 600 min dollarlıq işdən çıxdı

Amerikanın sabiq prezidenti Bill Klintonun qızı Çelsi Klinton illik 600 min dollar qazandığı NBC televiziyasından ayrılmağa qərar verib. Çelsi Klinton jurnalist olaraq kanalda çalışmayacağını deyib. Tvitter sosial şəbəkəsindəki hesabından işdən çıxdığını açıqlayan Ç.Klinton uşaq dünyaya gətirəcəyi üçün bu addımı atdığını söyləyib. O, övladını dünyaya gətirdikdən sonra atasının xeyriyyə qurumlarında çalışacağını deyib. Klintonun qızının qeyri-adi maaşı bu günə qədər bir neçə dəfə mübahisə mövzusuna çevrilmişdi.




**QOÇ** - O qədər də uğurlu gün deyil. Daxili sıxıntılarınız, səhhətinizlə bağlı problemlər, eləcə də mövcud şəraitdən narazılığınız əhvalınızı aşağı sala bilər. Yalnız qazanmaq şansınız var.

**BUĞA** - Ulduzlar bütün səlahiyyəti öz əlinizə verəcək. Odur ki, hər bir məsələdə obyektiv qərarlar qəbul etməlisiniz. Ətrafınızda olanlarla xoş davranın. Pulla bağlı diqqətli olun.

**ƏKİZLƏR** - İlk öncə ailə-sevgi münasibətlərini yaxşılaşdırın ki, gərginliyiniz azalsın. Günün ikinci yarısında sürprizlər mümkündür. Şəxsi büdcənizi artırmaq ehtimalınız da var. Yaxın səfərə çıxmağa dəyər.

**XƏRÇƏNG** - Kifayət qədər gərgin gün olduğundan tədbirli və ehtiyatlı olmağı unutmayın. Özünüzü istənilən təzyiq və təxribatdan qoruyun. Nəqliyyatda isə xüsusilə diqqətli olmalısınız.

**ŞİR** - Hansısa qanqaraldan hadisə gözlənilmir. Şübhə ilə yanaşdığınız adamları isə ittiham etməyə tələsməyin. Sizə hadisələri dərindən analiz etmək lazımdır. Nahar ərəfəsində təklif ala bilərsiniz.

**QIZ** - Bəri başdan nəzərinizə çatdıraq ki, bu təqvim sizin üçün daha çox maraqlı görüş və xoş təsadüflərlə yadda qalacaq. Çalışın ki, əsas vaxtınızı ailə-sevgi münasibətlərinə həsr edəsiniz.

**TƏRƏZİ** - Təzə ayın bu ilk günündə ulduzlar sizə daha çox istirahət vəd edir. Maraqlı sürprizlər, qonaqlıqlar yolunuzu gözləyir. Nahardan sonrakı saatlarda ovqatınızı yüksəldən insanlarla rastlaşacaqsınız.

**ƏQRƏB** - Hiss olunur ki, hansısa məsələyə görə tərəddüd içində qalmısınız. Əgər özünüz qərar çıxara bilmirsinizsə, etibar etdiyiniz insanlarla məsləhətləşin. Ayın bürcünüzdə olduğunu da unutmayın.

**OXATAN** - Bəri başdan nəzərinizə çatdıraq ki, bu gün uzaq səfərə çıxmağınız məsləhət deyil. Vaxtınızı ailənizlə və ya müştərək fəaliyyət göstərdiyiniz dostlarınızla birlikdə keçirin.

**OĞLAQ** - Məhəbbət və pul. Göy qübbəsi bu gün sizə məhz bu iki sahədə uğurlar bəxş edəcək. Deməli, büdcənizi ağırlaşdırıb sevdiyiniz adamla maraqlı bir təqvim yarada biləcəksiniz. Hər halda, uğurlar!

**SUTÖKƏN** - Düşünülməmiş risklərdən uzaq olsanız, ulduzlar sizi incitməyəcək, əksinə, günün sonuna qədər ovqatınızın xoş olması üçün canfəşanlıq göstərəcək. Axşam təzə xəbərlər də gözlənilir.

**BALIQLAR** - Dünənki ovqatınız bu gün də davam edəcək. Ətrafınızda hər şey gözəl olacaq. Hətta maddi durumunuz imkan versə, səfər də etmək olar. Şəxsi işlərinizdə isə dönüş gözlənilir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Öz uşaqlarını oğurladılar



İngiltərədəki bir xəstəxanada müalicə edilən Aşya adlı uşağın oğurlanması ölkə mediasının gündəmindəki ən önəmli məsələlərdən birinə çevrilib. Məlumatlara görə, 5 yaşlı qız anası Mahgemeh King və atası Bret King tərəfindən oğurlanıb. Xəstəxanadakı həkimlər uşağın ağır beyin əməliyyatı keçirdiyini, müalicəsinin bitmədiyini, yeriyə və danışa bilmədiyini deyirlər. Uşağın hər an ölə biləcəyini deyən həkimləri valideynlərinin onu niyə qaçırdığını daşa düşmədiklərini də açıqlayıblar.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lisenziya N: B 114
SAYI: 10.565